Azərbaycan Respublikası Təhsil Nazirliyi
Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu

# AZƏRBAYCAN RESPUBLİKASININ ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ TƏHSİL PROQRAMI (KURİKULUMU)

**(V-XI SİNİFLƏR )**

BAKI–2013

Azərbaycan tarixi fənni üzrə təhsil proqramı (kurikulumu) aşağıdakı tərkibdə işçi qrupu tərəfindən hazırlanmışdır:

Sədr: Yaqub Mahmudov - AMEA-nın Tarix İnstitutunun direktoru, AMEA - nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, əməkdar elm xadimi, professor, Vəli Əliyev - AMEA-nın müxbir üzvü, ADPU-nun professoru, tarix üzrə elmlər doktoru, Oqtay Sultanov-ADPU-nun kafedra müdiri, tarix fakültəsinin dekanı, tarix üzrə elmlər doktoru, professor; **Əkbər Qocayev** –Bakı şəhər 20 №-li məktəb-liseyin keçmiş direktoru, əməkdar müəllim, **Rafiq Xəlilov**-ADPU-nun baş müəllimi, Ramiz Hüseynov - layihənin koordinatoru, ARTPİ-nin bölmə müdiri, Sevil Bəhrəmova-ARTPİ-nin böyük elmi işçisi, Nərgiz Qasımzadə - Bülbül adına orta musiqi məktəbinin müəllimi, İntiqam Cəbrayılov - ARTPİ-nin şöbə müdiri, pedaqoqika üzrə elmlər doktoru, professor, Nizami Heydərov-Bakı şəhər 245 №-li tam orta məktəbin müəllimi, "Ən yaxşı müəllim"müsabiqəsinin qalibi, Həcər Əlişova- Bakı şəhər 171 №-li tam orta məktəbin müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Nazim Zeynalov- Bakı şəhər 88 №-li tam orta məktəbin müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Hafiz Cabbarov - Bakı şəhər H.Əliyev adına liseyin müəllimi, "Ən yaxşı müəllim", Ofeliya Musayeva - Bakı şəhər 279 №-li tam orta məktəbin müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Aida Məmmədova - Bakı şəhər 31 №-li tam orta məktəbin müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Zenfira Məhəmmədova - Bakı şəhər Z.Əliyeva adına liseyin müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Babək Xubyarov- Bakı şəhər 158 №-li tam orta məktəbin müəllimi, əməkdar müəllim, Sevinc Səfərəliyeva- Bakı şəhəri 132-134 №-li tam orta məktəbin müəllimi, əməkdar müəllim, Gültəkin Məmmədova- Bakı şəhəri 147 №-li tam orta məktəb-liseyin müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Leyla Hüseynova- Bakı şəhər MTK-nın müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Nərgiz Məmmədova - Bakı şəhər 248 №-li tam orta məktəbin müəllimi, Aydın Allahverdiyev-Bakı şəhər 72 №-li tam orta məktəbin müəllimi, Pərvanə Xəlilova - Bakı şəhər 190 №-li tam orta məktəbin müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Leyla Mürsəlova - Bakı şəhəri 34 №-li tam orta məktəbin

müəllimi, Əfsanə Həsənova - Bakı şəhəri 102 №-li tam orta məktəbin müəllimi, Asəf Həziyev - Bakı şəhəri H.Əliyev adına liseyin müəllimi, Elmin İmanov- Bakı şəhəri 6 №-li məktəb-liseyin müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Bəxtiyar İsrafilov - Bakı şəhəri 257 №-li tam orta məktəbin müəllimi, Arifə Bağırova- Bakı şəhəri 98 №-li tam orta məktəbin müəllimi; Sabir Ağayev- BPKİA və YHİ-nun kabinet müdiri, Rauf Məlikov-AMEA-nın Tarix İnstitutunun elmi işcisi, tarix üzrə fəlsəfə doktoru, Adiləxanım Manafova-Bakı şəhər 219 №-li tam orta məktəbin müəllimi, Amənə Kərbalayeva- Bakı şəhər 201 №-li tam orta məktəbin müəllimi, Gülsən Soltanova-Bakı şəhər 190 №-li tam orta məktəbin müəllimi, Röya Yaqubova- Bakı şəhər 272 №-li tam orta məktəbin müəllimi, Nailə Bayramova-Bakı Avropa liseyinin müəllimi, Səadət Cahandarova –Bakı Avropa liseyinin məllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Ülviyyə İsmayılova-Bakı şəhər 55 №-li tam orta məktəbin müəllimi.

**Təhsil proqramının (kurikulumun) internet üçün hazırlanmasına məsul olanlar:**

**Akif Əliyev,** ARTPİ-nin Ümumi orta və tam orta təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqoji elmlər üzrə fəlsəfə doktoru

**Ramiz Hüseynov,** ARTPİ-nin Ümumi orta və tam orta təhsilin kurikulumu şöbəsinin Humanitar fənlərinin təlimi bölməsinin müdiri

**Sevil Bəhrəmova,** ARTPİ-nin Humanitar fənlərin təlimi bölməsinin elmi işçisi

**Mündəricat**

**Giriş**

**I. Azərbaycan tarixi təliminin məzmunu**

1.1. Ümumi təlim nəticələri

1.2. Məzmun xətləri

1.3. Məzmun xətləri üzrə təlim nəticələri

1.4. Fəaliyyət xətləri

1.5. Məzmun standartları

V sinif

VI sinif

VII sinif

VIII sinif

IX sinif

X sinif

XI sinif

1.6.Fəndaxili və fənlərarası inteqrasiya

**II.Təlim strategiyaları**

2.1.Azərbaycan tarixi təliminin təşkilinə verilən əsas tələblər

2.2. Azərbaycan tarixi təliminin təşkilində istifadə olununan forma və üsullar barədə

2.3. Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair nümunələr

2.4. Azərbaycan tarixi fənnin məzmun standartlarının şərhi

**III. Şagird nailiyyətlərinin qiymətləndirilməsi**

**Resurslar**

**Tezaurus**

**İstifadə olunmuş ədəbiyyat**

## Giriş

***Azərbaycan tarixi fənni üzrə təhsil proqramı (kurikulumu) və onun xarakterik cəhətləri.***

Azərbaycan tarixi fənni üzrə təhsil proqramı (kurikulumu) ümumtəhsil məktəblərində Azərbaycan tarixi fənninin fəlsəfəsini, bu fənnin təlimi sahəsində fəaliyyətləri əks etdirən konseptual sənəddir. Bu sənəddə fənnin məzmunu (məzmun standartları), fəndaxili və fənlərarası inteqrasiya, müəllim və şagird fəaliyyətinə dair texnologiyalar, şagird nailiyyətlərinin qiymətləndirilməsi məsələləri əhatə olunmuşdur.

Qədim tarixə malik olan Azərbaycanın tarixi keçmişi bir-birini izləyən və tamamlayan, dinamik şəkildə biri digərini əvəz edən fakt və hadisələrlə zəngindir. Bu fakt və hadisələr Azərbaycan xalqının tarixi yaddaşında ən xarakterik abidələr kimi qalmaqdadır. Bu gün tarix özünün müasirliyi ilə müasir həyatı quranlar, gələcəyin perspektivlərini yaradanlar üçün bünövrə rolunu oynayır, Azərbaycanda insanların tarixi yaddaşının, milli mentalitetinin formalaşmasına təsir göstərir. Həm tarixi müstəvidə, həm də müasir zamanda sosial, iqtisadi, mədəni inkişaf baxımından müqayisə və təhlillər aparmağa imkan yaranır.

Bütün bunlar Azərbaycan tarixi üzrə biliklərin, ilk növbədə, tarixi xronoloji ardıcıllıqla müəyyən olunmasını və məzmun standartlarında nəzərə alınmasını tələb etmişdir. Həmin biliklər seçilmiş, ümumiləşdirilərək tarixi məkan, tarixi zaman, dövlət, şəxsiyyət, mədəniyyət məzmun xətləri üzrə qruplaşdırılmışdır.

Azərbaycan tarixinə dair məzmun standartları müəyyənləşdirilərkən şagirdlərin öyrənəcəkləri tarixi biliklərin, eləcə də bu fənn üzrə konkret təlim fəaliyyətlərinin (idraki, hissi, psixomotor) əhatə olunması diqqət mərkəzində saxlanılmışdır. Şagirdlərin təlim nailiyyətlərinin nəticələri müəyyən olunaraq kurikuluma daxil edilmişdir.

Məzmun standartlarında Azərbaycan tarixinə dair deklarativ biliklərlə yanaşı, şagirdlərə prosedural və kontekstual biliklərin verilməsi də nəzərdə tutulmuşdur. Bununla şagirdlərin praktik fəaliyyətə yönəldilməsi, xəritə üzrə işə,

tədqiqatçılığa, qrafik və cədvəllər hazırlamağa istiqamətləndirilməsi, onların yaradıcı işə cəlb olunması üçün imkan yaradılmışdır.

Məzmun standartları, təlim strategiyaları və qiymətləndirmə mexanizmləri hazırlanarkən şagird şəxsiyyətinin inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmışdır. İlk növbədə, onların meyil və maraqları, əqli və fiziki imkanları mühüm tələblər kimi əsas götürülmüşdür.

Azərbaycan tarixi fənni üzrə təhsil proqramı (kurikulumu) hazırlanarkən cəmiyyətdə gedən aşağıdakı sosial, iqtisadi, mədəni dəyişikliklər də nəzərə alınmışdır:

- iqtisadiyyatda elm, təhsil və xidmətin üstün rol oynaması;
- cəmiyyətin sosial, siyasi və mənəvi həyatının, iqtisadiyyatın bütün sahələrində informasiya texnologiyalarının tətbiqi ilə əlaqədar texnoloji yeniliklərin fasiləsizliyi;
- əhalinin peşə məşğuliyyətinin strukturunun dəyişməsi, informasiyaların istehsalı, yayılması, mühafizəsi və ötürülməsi ilə əlaqədar olan əhali qruplarının cəmiyyətdə üstünlük (çoxluq) təşkil etməsi;
- təhsil səviyyəsinin şəxsiyyətin, sosial təbəqələrin sosial strukturunu müəyyən edən əsas amil rolu oynaması;
- cəmiyyətin gündəlik həyatında kütləvi informasiya vasitələrindən, video məhsullardan, reklamlardan və s. asılılığın getdikcə artması.

Bütün bunlara Azərbaycan tarixi fənni üzrə təhsil proqramının (kurikulumun) xarakterik cəhətləri kimi diqqət yetirilmişdir.

***Fənnin əhəmiyyəti, məqsəd və vəzifələri.***

Azərbaycan tarixi ölkəmizin ərazisində uzaq və yaxın keçmişdə yaşamış insanların həyatını, onların həyatında baş verən hadisələri, həmin hadisələrin səbəb və nəticələrini öyrənən elmdir. Onun bir fənn kimi ümumtəhsil məktəblərində öyrənilməsi xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan tarixinin ümumtəhsil məktəblərində tədrisi dərin və əhatəli biliyə, bacarıq və vərdişlərə, yüksək intellektə, geniş dünyagörüşünə malik olan və onu

daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmağa, öz soykökünə, adət-ənənələrə, milli-mənəvi dəyərlərə əsaslanan, şərəfli tarixi keçmişinə dərindən yiyələnən, ailəsini, vətənini, millətini sevən və onu daim ucaltmağa çalışan vətəndaş tərbiyə etməyə xidmət edir.

Azərbaycan tarixi fənni şagirdlərdə ünsiyyət qurmaq və əməkdaşlıq etmək kimi yüksək mənəvi keyfiyyətlərin, mühakimə yürütmək, qoyulmuş problemə fərqli baxış nümayiş etdirmək, öz nöqteyi-nəzərini əsaslandırmaq, hüquqlarını qorumaq, başqalarının hüquqlarına hörmətlə yanaşmaq, dövlət, cəmiyyət və xalq qarşısında vəzifələrinə məsuliyyətlə yanaşmaq bacarığının formalaşmasına xidmət edir.

Azərbaycan tarixi fənni üzrə təhsil proqramının (kurikulumun) əsas cəhətlərindən biri kimi nəticəyönümlülük şagird fəaliyyətinin ardıcıl izlənilməsini, onun nailiyyətlərindəki irəliləyişlərin müntəzəm qiymətləndirilməsini təmin edir. Şagirdlərə gündəlik həyatda lazım olan zəruri bacarıqların aşılanmasını və onun ardıcıl olaraq inkişaf etdirilməsini ön plana çəkir. Təlim prosesi ilə gözlənilən nəticə arasında qarşılıqlı əlaqə üçün zəmin yaradır.

Ümumtəhsil məktəblərində Azərbaycan tarixi fənninin əsas məqsədi məktəblilərdə vətənpərvərlik, fəal vətəndaşlıq mövqeyi, digər xalqlara, ümumbəşəri humanist dəyərlərə hörmət, ənənəvi və mədəni nailiyyətlərə əsaslanan əqidə prinsipləri, dövlətçilik ənənələrinə sədaqət hissi formalaşdırmaq üçün onlara keçmiş və müasir dövrün hadisələrini sərbəst təhlil etmək, faktları ümumiləşdirmək, əldə olunan biliklərdən cəmiyyətin müasir vəziyyətinin qiymətləndirməsində istifadə, tarixi mənbə, müxtəlif fikir və konsepsiyaları təhlil etmək, başqalarının fikirlərinə hörmət etmək, eləcə də sərbəst nəticə çıxarmaq və kollektivdə işləmək bacarıq və vərdişləri aşılamaqla informativ-kommunikativ və hüquqi mədəniyyət formalaşdırmaqdan ibarətdir.

Bu məqsədin reallaşdırılması üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi məqsədəmüvafiq hesab edilir:

- tarixi hadisələrin, həmçinin müasir həyatda baş verən ictimai hadisələrin dərk, təhlil və təsnif edilməsi;

- milli-mənəvi dəyərlərdən, mədəni irsdən istifadə etməklə daxili potensialın zənginləşdirilməsi və onların gələcək nəsillərə ötürülməsi;
- dövlətçilik ənənələrinə istinad olunması, ölkəmizin müstəqil dövlət quruculuğunda şüurlu və məsuliyyətli vətəndaş kimi iştirak etməsi;
- vətənin tarixində baş vermiş hadisələr nəzərə alınmaqla milli mənafenin və maraqların qorunması;
- müxtəlif mənbələri təhlil etməklə onlardan nəticələrin çıxarılması, sosioloji məlumatlar üzərində işin təşkili, sosial, iqtisadi, mədəni problemlərin tarixi baxımından inkişafının digər fənlərlə əlaqədə izlənilməsi;
- tarixi hadisələrin qarşılıqlı əlaqələrini təhlil etməklə məntiqi və yaradıcı təfəkkürün inkişaf etdirilməsi.

Müəyyən edilmişdir ki, ümumtəhsil məktəblərində Azərbaycan tarixinin tədrisi vasitəsilə:

➢ **ümumi orta təhsil səviyyəsində** Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olması, dövlətçilik ənənələri, Azərbaycan xalqının, onun milli, sosial, əxlaqi-mənəvi dəyərlərinin təşəkkülü və formalaşması, qeosiyasi məkanda mövqeyi və rolu, bəşər sivilizasiyasının inkişafına təsiri, Azərbaycanın məruz qaldığı təcavüzlər və onlara qarşı mübarizə, müasir dünyada mövqeyi, ölkənin ümumi inkişafı, tarixi şəxsiyyətləri, maddi və mənəvi mədəniyyət abidələri haqqında sistemli məlumatların mənimsənilməsi təmin olunur, şagirdlərdə tarixi hadisələri təhlil etmək və onlara münasibət bildirmək, əlavə faktlar toplamaq və sistemləşdirib təqdim etmək, tarixi mənbələrlə işləmək bacarıqları formalaşdırılır, onlara vətənpərvərlik, milli iftixar hissləri aşılanır.

➢ **tam orta təhsil səviyyəsində** ümumi orta təhsil səviyyəsində nəzərdə tutulmuş fəaliyyətləri genişləndirməklə sivilizasiyalı inkişaf şəraitlərində yürüdülən siyasi xəttin Azərbaycanın ərazi bütövlüyünə, milli-mənəvi dəyərlərinə təsiri, bu dövrlərdə sosial-iqtisadi, mədəni inkişaf tendensiyaları, milli azadlıq hərəkatı, dövlətçiliyin bərpası, qorunması, inkişafı, müasir dövrdə Azərbaycanın dünyadakı mövqeyi, ölkənin ümumi inkişafını şərtləndirən amillər haqqında məlumatlar mənimsənilir, demokratik cəmiyyət şəraitində şagirdlərdə sosial-siyasi

və tarixi hadisələrə münasibət bildirmək və qiymətləndirmək bacarıqları formalaşdırılır.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə müvafiq olaraq icbari təhsil ümumi orta təhsil bazasında tamamlandığından respublikanın ümumtəhsil məktəblərində Azərbaycan tarixi üzrə təlimin məzmunu əvvəlki dövrlərdən fərqli olaraq konsentrik prinsipə əsasən aşağıdakı kimi qurulmuşdur.

**Ümumi orta təhsil bazasında:**

- V sinifdə Vətən tarixinin qədim zamanlardan bu günədək ən mühüm tarixi hadisə, proses və təzahürləri barədə ilkin təsəvvürlərin yaradılması istiqamətində təlim fəaliyyətinin qurulması;
- VI-IX siniflərdə sivilizasiyalı inkişaf nöqteyi-nəzərindən müvafiq bölmələr üzrə xronoloji ardıcıllıq gözlənilməklə Azərbaycan tarixinin ən qədim dövründən bu günə qədərki hadisə, proses və təzahürlər üzərində təlim fəaliyyətinin qurulması;

**Tam orta təhsil bazasında:**

- X-XI siniflərdə Azərbaycanın tarixi keçmişini və müasir dövrünü, sivilizasiyaların inkişafında rolunu, qlobal problemlərin həllində mövqeyini dəyərləndirməyə imkan verən təlim materialları üzərində fəaliyyətlərin qurulması.

## I. Azərbaycanın tarixi təliminin məzmunu

### 1.1. Ümumi təlim nəticələri

***Ümumi orta təhsil səviyyəsində şagird:***

- tarixi hadisələri xronoloji əsasda təsvir edir, onlar arasındakı səbəb və nəticə əlaqələrini izah edir;
- sivilizasiyaların formalaşmasında, dünya mədəniyyətinin, incəsənətinin inkişafında Azərbaycanın rolu və mövqeyi barədə mülahizələrini bildirir;

- tarixi fakt və hadisələrə, tarixi şəxsiyyətlərə və onların fəaliyyətinə münasibət bildirir, onları müvafiq dövr baxımından qiymətləndirir.

**Tam orta təhsil səviyyəsində şagird:**

- Azərbaycanın tarixi keçmişi və müasir dövrü haqqında zəruri biliklərə malik olduğunu nümayiş etdirir;
- tarixi hadisə və proseslərin mahiyyətini konkret dövrün xüsusiyyətləri baxımından izah edir və ona münasibət bildirir;
- tarixi informasiyaları toplayır, sistemləşdirir, təhlil edir və nəticələri barədə təqdimatlar hazırlayır;
- tarixi hadisələrlə bağlı fərziyyə və mülahizələr irəli sürür, proqnozlar verir;
- debatlarda, diskussiyalarda, müzakirələrdə Azərbaycan haqqında ictimai rəy formalaşdıran təkliflərlə çıxış edir, Azərbaycan cəmiyyətində hüquqi-siyasi dəyərlərin (demokratiya, şəxsiyyət azadlığı və s.) reallaşmasına münasibət bildirir.

## 1.2. Məzmun xətləri

Məzmun xətləri fənn üzrə ümumi təlim nəticələrinin reallaşdırılmasını təmin etmək üçün müəyyən edilən məzmunun zəruri hissələridir. Bu hissələr bir-biri ilə həm məntiqi, həm də xronoloji cəhətdən bağlı olur, məzmunun bütöv və əhatəli ifadə olunmasını təmin edir.

Azərbaycan tarixi fənni üzrə məzmun xətləri ümumi təhsilin səviyyələri üzrə bütün şagirdlər üçün vacib olan məzmunu əhatə etməyə, hər bir şagirdin Vətən tarixindən öyrənə biləcəyi və öyrənməli olduğu məsələləri müəyyənləşdirməyə imkan yaradır. Onlar siniflər üzrə özlərinə məxsus əsas və alt-standartları ehtiva etməklə fərqlənir .

Azərbaycan tarixi fənni üzrə məzmun standartları aşağıdakı siniflər üzrə sistemləşdirilmiş və beş məzmun xətti üzrə qruplaşdırılmışdır:

1. Tarixi zaman
2. Tarixi məkan
3. Dövlət
4. Şəxsiyyət
5. Mədəniyyət

Azərbaycan tarixi fənni üzrə məzmun xətlərinin vacibliyi aşağıdakı zərurətdən irəli gəlir.

**1. Tarixi zaman**

Bütün hadisə və təzahürlər tarixi zaman daxilində baş verir. Bu hadisə və təzahürlərin zaman daxilində baş verməsinin və inkişafının ardıcıllığı onlar arasında qarşılıqlı əlaqə və təsirləri müəyyənləşdirməyə imkan yaradır. Tarixi zamanda mövqe hadisə və təzahürlərin hansı tarixi şəraitdə baş verdiyini göstərir. Eyni zamanda bu şəraitin ona necə təsir göstərdiyini, həmin hadisə və təzahürün səbəbi, yaxud da nəticəsi olub-olmadığını müəyyən etməyə imkan verir.

Tarixi zaman daxilində hadisələrin və təzahürlərin dəyişməsinin izlənməsi şagirdlərin tarixi hadisələri zaman baxımından müəyyənləşdirməsi, əlaqələndirməsi, təhlil etməsi və dəyərləndirməsində, xronologiyaya dair bacarıqların mənimsənilməsində əhəmiyyətli rol oynayır.

**2. Tarixi məkan**

İnsanların və cəmiyyətin həyatı, onların inkişafı və dəyişməsi müəyyən tarixi məkan çərçivəsində baş verir. Həmin məkanın təbii-coğrafi şəraiti insanların həyat tərzlərinə, məşğuliyyətlərinə, təsərrüfat həyatlarına, ictimai münasibətlərinə, mədəni inkişaf xüsusiyyətlərinə böyük təsir göstərir. Ona görə də bu şəraitin öyrənilməsi təsərrüfatın, mədəniyyətin, dövlət quruluşunun, ictimai həyatın, daxili və xarici siyasətin inkişaf məntiqini izləməyə və onların gələcək inkişaf perspektivlərini proqnozlaşdırmağa imkan verir. Azərbaycan tarixində təbii-coğrafi amillərlə bağlı bilik və bacarıqların aşılanması şagirdlərin cəmiyyətin inkişafının

ətraf mühitdən, təbiətdən, geosiyasi amillərdən asılılığını dəyərləndirməsinə şərait yaradır.

**3. Dövlət**

Müxtəlif dövlət quruluşu formaları, qanunlar və onlara əməl olunması, dövlətlər arasında və dövlətlə vətəndaşlar arasında olan münasibətlər insanların həyatına və tarixin gedişinə güclü təsir göstərmişdir. Müxtəlif tarixi dövrlərdə mövcud olmuş Azərbaycan dövlətlərinin quruluşu, yeritdikləri sosial-iqtisadi və xarici siyasət inkişaf edərək dəyişmiş, müasir səviyyəyə gəlib çatmışdır. Şagirdlər bu dəyişiklikləri izləməklə Azərbaycan dövlətçiliyinin tarixinə dair biliklər qazanır, onun tarixi inkişaf yolunu izləməklə, müvafiq materiallar toplamaqla, təhlillər aparmaqla elmi dünyagörüşünə, idrak bacarıqlarına yiyələnirlər.

**4. Şəxsiyyət**

Ayrı-ayrı şəxsiyyətlərin fəaliyyəti bu və ya digər dərəcədə tarixin gedişinə təsir göstərir. Tarix şəxsiyyətlərin fəaliyyətindən xeyli dərəcədə asılı olur. Onların fəaliyyətlərinin əsasının başa düşülməsi və nəticələrinin düzgün qiymətləndirilməsi, eyni zamanda bir sıra tarixi hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirməyə və gələcəkdə baş verə biləcək digər hadisə və təzahürləri proqnozlaşdırmağa imkan yaradır. Buna görə də şagirdlərin keçmişdə və həmçinin müasir zamanda insan cəmiyyətinin inkişafında ayrı-ayrı şəxsiyyətlərin rolunu düzgün başa düşməsi və dəyərləndirməsi üçün onlara Azərbaycan tarixi ilə bağlı şəxsiyyətlərin fəaliyyəti barədə araşdırmalar aparmaq, müqayisələr və təhlillər əsasında fikir söyləmək imkanı verən bacarıqların aşılanması zəruri hesab edilir.

**5. Mədəniyyət**

Mədəniyyət insanların maddi və mənəvi fəaliyyətinin bütün nəticələrini əhatə edir. Tarixin gedişi ilə sıx bağlı olaraq yaranır və inkişaf edir. Bu fəaliyyət öz növbəsində milli və bəşəri mədəniyyətləri zənginləşdirir. Müəyyən cəmiyyətin mədəniyyətinin öyrənilməsi həmin cəmiyyətdə təsərrüfatın, insanlar arasındakı

münasibətlərin, mənəvi dəyərlərin, başqa mədəniyyətlərlə əlaqələrin xüsusiyyətlərini anlamağa və perspektivlərini qiymətləndirməyə imkan yaradır. Azərbaycan mədəniyyətinin tarixinə dair araşdırmalar şagirdləri düşünməyə, müqayisələr aparmağa sövq edir, onlarda milli qürur, maddi və mənəvi abidələrə məhəbbət hissi oyadır.

## 1.3. Məzmun xətləri üzrə təlim nəticələri

***Ümumi orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri***

### 1. Tarixi zaman

**Şagird**:

- Tarixi hadisələri xronoloji əsasda təsvir edir və qiymətləndirir.
- Tarixi hadisələr arasındakı səbəb-nəticə əlaqələrini izah edir.
- Sivilizasiyaların formalaşmasında, dünya mədəniyyəti və incəsənətinin inkişafında Azərbaycanın rolu barədə mülahizələrini şərh edir.

### 2. Tarixi məkan

**Şagird:**

- Tarixi məkana görə sivilizasiyaların formalaşmasında, dünya mədəniyyəti və incəsənətinin inkişafında Azərbaycanın mövqeyini şərh edir, nəticələri təqdim edir.

### 3. Dövlət

**Şagird:**

- Azərbaycanda dövlətçilik ənənələrinin yaranması və inkişafı xüsusiyyətlərini qiymətləndirir.
- Azərbaycan dövlətləri ilə bağlı müxtəlif tarixi mənbələrdən topladığı materialları təqdim edir.

### 4. Şəxsiyyət

**Şagird:**

-Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.

-Mənbələri araşdırmaqla Azərbaycanın görkəmli şəxsiyyətlərinə dair materiallar toplayır və təqdim edir.

### 5. Mədəniyyət

**Şagird:**

-Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini dünya sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətləri ilə müqayisə edir.

-Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir.

***Tam orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri***

**1.Tarixi zaman**

**Şagird:**

-Mənbələr əsasında Azərbaycanın keçmiş və müasir dövrlərini təhlil edir, onların oxşar və fərqli cəhətlərini izah edir, mülahizələrini təqdim edir.

-Tarixi hadisə, proses və təzahürlərin mahiyyətini konkret dövrün xüsusiyyətləri baxımından qiymətləndirir.

-Tarixi hadisə, proses və təzahürlərlə bağlı fərziyyə və mülahizələr irəli sürür, proqnozlar verir, təqdimatlar edir.

**2. Tarixi məkan**

**Şagird:**

-Müxtəlif tarixi hadisə, proses və təzahürlərlə bağlı informasiyalar toplayır və qiymətləndirir.

-Aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərini müqayisə edir, Azərbaycan üçün xarakterik cəhətləri izah edir.

**3. Dövlət**

**Şagird:**

-Dövlətlərin yaranması və inkişafında konkret dövrün xüsusiyyətlərini dəyərləndirir

-Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir.

-Dövlət quruluşları və dövlət idarəetmə formalarına dair təhlillər aparır.

**4. Şəxsiyyət**

**Şagird:**

-Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin rolu və fəaliyyətini dəyərləndirir, müqayisələr aparır, mülahizələrini bildirir.

-Görkəmli tarixi şəxsiyyətlər haqqında müxtəlif mənbələrdən materiallar toplayır, təhlillər aparır, mülahizələr əsasında təqdimatlar edir.

**5. Mədəniyyət**

**Şagird:**

-Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinin inkişafında rolunu dəyərləndirir.

-Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələrini təqdim edir.

## 1.4. Fəaliyyət xətləri

***Məzmun standartları müəyyənləşdirilərkən aşağıdakı fəaliyyət xətləri ilə əlaqəlilik nəzərə alınmışdır:***

- məlumat mənbələrindən istifadə;
- məlumatın toplanması və sistemləşdirilməsi;
- məlumatın interpretasiyası;
- məlumatın təhlili və tətbiqi;
- məlumatın təqdim edilməsi;
- məlumatın dəyərləndirilməsi;
- problemin həlli;
- proqnozlaşdırma.

## 1.5. Məzmun standartları

### V sinif

**V sinfin sonunda şagird:**

- tarixi zaman anlayışlarını fərqləndirir;
- maddi və yazılı mənbələr əsasında sadə tədqiqatlar aparır;
- insanların həyat tərzindəki dəyişiklikləri öz ailəsi nümunəsində təsvir edir;
- insan və cəmiyyətin inkişafı üçün əlverişli təbii coğrafi amilləri izah edir və mühüm tarixi abidələri xəritədə müəyyənləşdirir;
- Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir və xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir;
- Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri müəyyən edir;
- Azərbaycanın maddi mədəniyyət abidələrini və mənəvi dəyərlərini qiymətləndirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Tarixi zaman**

**Şagird:**

***1.1. Xronologiya ilə bağlı əsas anlayışları fərqləndirir.***

1.1.1. Tarixi zaman anlayışları arasındakı əlaqələri müəyyənləşdirir.

1.1.2. Sadə xronoloji məsələləri həll edir.

***1.2. Tarixi mənbələri tanıdığını nümayiş etdirir.***

1.2.1. Maddi və yazılı mənbələri fərqləndirir.

1.2.2. İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır.

***1.3. İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.***

1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri öz ailəsi nümunəsində təsvir edir.

**2. Tarixi məkan**

**Şagird:**

***2.1. Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.***

2.1.1. İnsan və cəmiyyətin həyatı üçün əlverişli təbii amilləri təsvir edir.

2.1.2. Xəritələrdə Azərbaycan ərazisini və mühüm tarixi abidələri müəyyənləşdirir.

**3. Dövlət**

**Şagird:**

***3.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.***

3.1.1. Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir.

3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.

3.1.3. Kiçikhəcmli tarixi hekayə qurur.

**4. Şəxsiyyət**

**Şagird:**

***4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.***

4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri (İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Sara Xatın, Şah I İsmayıl, Cavad xan, Məmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.) müəyyən edir.

4.1.2. Mənbələrə əsasən şəxsiyyətlər haqqında təqdimatlar hazırlayır.

**5. Mədəniyyət**

**Şagird:**

***5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.***

5.1.1. Mədəniyyət abidələrinin əhəmiyyətini izah edir.

5.1.2. Milli-mənəvi dəyərləri fərqləndirir.

5.1.3. Azərbaycan mədəniyyəti ilə bağlı sadə təqdimatlar hazırlayır

## VI sinif

**VI sinfin sonunda şagird:**

- mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müəyyən edir və zaman oxunda təsvir edir;
- maddi mədəniyyət abidələri, illüstrasiya və yaxud muzey eksponatları əsasında tədqiqatlar aparır;
- insanların birgə yaşayış formalarını fərqləndirir;
- qədim insanların həyat tərzini Azərbaycan ərazisinin təbii- coğrafi şəraiti ilə əlaqələndirir və ilk insan məskənlərini, dövlət qurumlarını, qədim dövlətləri xəritədə müəyyənləşdirir;
- Azərbaycanda qədim dövlətlərin yaranmasını, daxili və xarici siyasətini izah edir;
- qədim dövlətlərin yaranması və inkişafında tarixi şəxsiyyətlərin rolunu dəyərləndirir;
- Azərbaycan mədəniyyətinin inkişafını, müxtəlif xalqların mədəniyyətləri ilə qarşılıqlı əlaqələrini izah edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1.Tarixi zaman**

**Şagird:**

***1.1. Xronologiya ilə bağlı tarixi anlayışları mənimsədiyini nümayiş etdirir.***

1.1.1. Mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müəyyənləşdirir.

1.1.2. Mühüm hadisə, proses və təzahürləri zaman oxunda təsvir edir.

***1.2. Mənbələr üzərində tədqiqat bacarıqları nümayiş etdirir.***

1.2.1. Dövrün öyrənilməsində maddi və yazılı mənbələrin rolunu izah edir.

1.2.2. İllüstrasiya və yaxud muzey eksponatları əsasında sadə tədqiqatlar aparır.

***1.3. İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.***

1.3.1. İnsanların birgə yaşayışının müxtəlif formalarını fərqləndirir.

**2. Tarixi məkan**

**Şagird:**

***2.1. Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.***

2.1.1. Qədim insanların həyat tərzini və məşğuliyyətlərini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir.

2.1.2. Xəritələrdə Azərbaycan ərazisində ilk insan məskənlərini, dövlət qurumları və qədim dövlətlərin yerini müəyyənləşdirir.

**3. Dövlət**

**Şagird:**

***3.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.***

3.1.1. Azərbaycanda dövlət qurumları və qədim dövlətlərin yaranmasını, idarə olunmasını, sosial-iqtisadi münasibətləri təsvir edir.

3.1.2. Qədim dövlətlərin daxili və xarici siyasətini izah edir.

3.1.3. Qədim Azərbaycan dövlətləri haqqında mənbələr əsasında məlumatlar toplayır, təqdimat hazırlayır.

**4. Şəxsiyyət**

**Şagird:**

***4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.***

4.1.1. Dövlətlərin yaranmasında, inkişafında tarixi şəxsiyyətlərin (İranzu, Tomiris, Atropat, Oroys və b.) rolunu dəyərləndirir.

4.1.2. Tarixi şəxsiyyətlər haqqında kiçik hekayə qurur.

**5. Mədəniyyət**

**Şagird:**

***5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.***

5.1.1. Sivilizasiyayaqədərki və sivilizasiya dövrünün mədəniyyətlərini izah edir.

5.1.2. Azərbaycan mədəniyyətinin müxtəlif xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqələrini izah edir.

5.1.3. Mədəni əlaqələrə dair cədvəllər tərtib edir.

**VII sinif**

**VII sinfin sonunda şagird:**

- mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müqayisə edir, sxem və cədvəllər hazırlayır;
- Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrə aid yazılı və maddi mənbələr əsasında müəyyən edir;
- Azərbaycanda təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafını onun təbii-coğrafi şəraiti ilə əlaqələndirir;
- Azərbaycanda feodal dövlətlərinin yaranması, müstəqilliyini itirməsi və bərpası səbəblərini şərh edir, dövlətçilik ənənələrinin inkişafı xüsusiyyətlərini dəyərləndirir;
- tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətlərini qiymətləndirir;
- mədəniyyətin inkişaf mərhələlərini və milli-mənəvi dəyərlərin formalaşmasına dinlərin təsirini dəyərləndirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1.Tarixi zaman**

**Şagird:**

***1.1. Xronologiya ilə bağlı tarixi anlayışları mənimsədiyini nümayiş etdirir.***

1.1.1. Mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müqayisə edir.

1.1.2. Tarixi zaman və hadisələr arasında əlaqələrə dair müxtəlif sxem və cədvəllər tərtib edir.

***1.2. Mənbələr üzərində tədqiqat bacarıqları nümayiş etdirir.***

1.2.1. Dövrə aid yazılı və maddi mənbələri əlaqələndirir.

1.2.2. Öyrəndiyi dövrə aid yazılı mənbələr üzərində işləyir.

***1.3. İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.***

1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzi və məşğuliyyətlərində baş vermiş dəyişiklikləri müəyyənləşdirir.

**2. Tarixi məkan**

**Şagird:**

***2.1. Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.***

2.1.1. Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri izah edir.

2.1.2. Dövrə aid xəritə və xəritə sxemlərdəki müxtəlif tarixi hadisə, proses və təzahürlərə dair məlumatları izah edir.

**3. Dövlət**

**Şagird:**

***3.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.***

3.1.1. Azərbaycan feodal dövlətlərinin inkişafı, müstəqilliyini itirməsi və siyasi müstəqilliyinin bərpası səbəblərini şərh edir.

3.1.2. Azərbaycanda dövlətçilik ənənələrinin inkişafı xüsusiyyətlərini dəyərləndirir.

3.1.3.Azərbaycan feodal dövlətləri ilə bağlı cədvəllər hazırlayır.

**4. Şəxsiyyət**

**Şagird:**

***4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.***

4.1.1. Tarixi şəxsiyyətləri (Cavanşir, Babək, Yusif Əbu Sac, Şəmsəddin Eldəniz, I İbrahim Xəlilullah, Qara Yusif, Uzun Həsən və b.) oxşar və fərqli cəhətlərinə görə təhlil edir.

4.1.2. Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı sxem və cədvəllər hazırlayır.

**5. Mədəniyyət**

**Şagird:**

***5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.***

5.1.1. Mədəniyyətin inkişaf mərhələlərini dəyərləndirir.

5.1.2. Milli-mədəni dəyərlərin formalaşmasına dinlərin təsirini dəyərləndirir.

5.1.3. Mədəniyyətin inkişaf mərhələlərini əks etdirən təqdimatlar hazırlayır.

## VIII sinif

**VIII sinfin sonunda şagird:**

- Azərbaycan və dünya ölkələrində baş vermiş mühüm hadisə, proses və təzahürləri əlaqələndirir və tematik sinxron cədvəllər hazırlayır;
- Azərbaycanda insanların həyat tərzində baş vermiş dəyişikliklərin səbəblərini mənbələr əsasında araşdırır, nəticələri təqdim edir;
- Azərbaycanın coğrafi mövqeyi və təbii amillərini ölkənin ictimai, iqtisadi və siyasi vəziyyəti ilə əlaqələndirir;
- mərkəzləşmiş dövlətin inkişaf xüsusiyyətlərini, dövlətlərarası münasibətdə Azərbaycanın mövqeyini dəyərləndirir;
- Azərbaycan dövlətçiliyində mühüm rol oynamış tarixi şəxsiyyətlərin fəaliyyətini dəyərləndirir;
- yeni ictimai-iqtisadi münasibətlər şəraitində Azərbaycan mədəniyyətinin inkişafına təsir edən amilləri şərh edir, mədəni nailiyyətləri dəyərləndirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Tarixi zaman**

**Şagird:**

***1.1. Xronologiya ilə bağlı tarixi anlayışları mənimsədiyini nümayiş etdirir.***

1.1.1. Azərbaycan və dünya ölkələrində baş vermiş mühüm hadisə, proses və təzahürlərin sinxronluğunu izah edir.

1.1.2. Hadisə və proseslərin zamana görə əlqələndirilməsinə dair tematik-sinxron cədvəllər hazırlayır.

***1.2. Mənbələr üzərində tədqiqat bacarıqları nümayiş etdirir.***

1.2.1. Dövrə aid hadisə, proses və təzahürləri verilmiş yazılı mənbələrlə əlaqələndirir.

1.2.2 . Öyrəndiyi dövrə aid yazılı mənbələri təhlil edir, nəticələrini təqdim edir.

***1.3. İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.***

1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzi və məşğuliyyətlərində baş vermiş dəyişiklikləri izləyir və onların səbəblərini izah edir.

**2. Tarixi məkan**

**Şagird:**

***2.1. Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.***

2.1.1. Azərbaycanın coğrafi mövqeyi və təbii amillərini təsərrüfatın, ictimai münasibətlərin inkişafı və ölkənin siyasi vəziyyəti ilə əlaqələndirir.

2.1.2. Xəritələrdəki məlumatlara əsasən sxem və cədvəllər tərtib edir.

**3. Dövlət**

**Şagird:**

***3.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.***

3.1.1. Mərkəzləşmiş dövlətin yaranması və tənəzzülü, Azərbaycan torpaqlarının birləşdirilməsi uğrunda mübarizənin xüsusiyyətlərini şərh edir.

3.1.2. Dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini dəyərləndirir.

3.1.3. Dövrlə bağlı mənbələrdən əldə etdiyi məlumatlar əsasında sxem və cədvəllər qurur.

**4.Şəxsiyyət**

**Şagird:**

***4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.***

4.1.1. Azərbaycan dövlətçiliyində mühüm rol oynamış tarixi şəxsiyyətlərin (Şah I İsmayıl, Şah I Təhmasib, Şah I Abbas, Nadir şah, Qubalı Fətəli xan, Hacı Çələbi və b.) fəaliyyətini dəyərləndirir.

4.1.2. Tarixi şəxsiyyətlər haqqında müqayisəli sxem və cədvəllər hazırlayır.

**5. Mədəniyyət**

**Şagird:**

***5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.***

5.1.1 Yeni ictimai-iqtisadi münasibətlərin mədəniyyətə təsirini dəyərləndirir.

5.1.2. Azərbaycan mədəniyyətinin inkişafına təsir edən amilləri şərh edir.

5.1.3 Azərbaycanın mədəni nailiyyətlərini əks etdirən cədvəllər hazırlayır.

## IX sinif

**IX sinfin sonunda şagird:**

- tarixi inkişafı zaman baxımından qiymətləndirir və xronoloji cədvəllər hazırlayır;
- yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir, təqdimatlar hazırlayır;
- Azərbaycanda insanların həyat tərzində baş vermiş dəyişiklikləri dövr və sivilizasiyalarla əlaqələndirir;
- Azərbaycanın ictimai- iqtisadi, siyasi inkişafı ilə onun coğrafi mövqeyi və təbii şəraiti arasındakı əlaqələri dəyərləndirir;
- müstəmləkə rejimi və müstəqillik şəraitində Azərbaycanın daxili və xarici siyasətini dəyərləndirir;
- dövlətçiliyin möhkəmləndirilməsi və inkişafında tarixi şəxsiyyətlərin rolunu dövr baxımından dəyərləndirir;
- Azərbaycan və dünya mədəniyyətlərini xarakterik əlamətlərinə görə müqayisə edir, təqdimatlar hazırlayır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1.Tarixi zaman**

**Şagird:**

***1.1. Xronologiya ilə bağlı tarixi anlayışları mənimsədiyini nümayiş etdirir.***

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.

1.1.2. Mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.

***1.2. Mənbələr üzərində tədqiqat bacarıqları nümayiş etdirir.***

1.2.1. Eyni hadisəyə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir.

1.2.2. Müxtəlif mənbələr əsasında təqdimatlar hazırlayır.

***1.3. İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.***

1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.

**2. Tarixi məkan**

**Şagird:**

***2.1. Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.***

2.1.1. Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri dəyərləndirir.

2.1.2. Mühüm tarixi hadisə və prosesləri kontur xəritələrdə təsvir edir.

**3. Dövlət**

**Şagird:**

***3.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.***

3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.

3.1.3. Azərbaycan dövlətləri ilə bağlı müxtəlif mənbələrdən topladığı materialları təqdim edir.

**4. Şəxsiyyət**

**Şagird:**

***4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.***

4.1.1. Dövlətçiliyin möhkəmləndirilməsində və inkişafında tarixi şəxsiyyətlərin (Məmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu dəyərləndirir.

4.1.2. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir.

**5. Mədəniyyət**

**Şagird:**

***5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.***

5.1.1. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini şərh edir.

5.1.2. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini dünya sivilizasiyası və mədəniyyətlərinin xarakterik əlamətləri ilə müqayisə edir.

5.1.3. Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir.

## X sinif

**X sinfin sonunda şagird:**

- mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, xronoloji cədvəllər hazırlayır;
- yazılı mənbənin aid olduğu dövrü və müəllifin mövqeyini müəyyənləşdirir;
- insanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir;
- müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir, qrafik və diaqramlar tərtib edir;
- dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir, dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir;
- görkəmli tarixi şəxsiyyətlər haqqında referat və təqdimatlar hazırlayır;
- Azərbaycan mədəniyyətini Türk-İslam mədəniyyətinin tərkib hissəsi kimi dəyərləndirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Tarixi zaman**

**Şagird:**

***1.1. Xronologiya ilə bağlı tarixi anlayışları mənimsədiyini nümayiş etdirir.***

1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlayır.

1.1.2. Mənbələr əsasında Azərbaycanın keçmiş və müasir dövrünə dair xronoloji cədvəllər hazırlayır.

***1.2. Mənbələr üzərində tədqiqat bacarıqları nümayiş etdirir.***

1.2.1. Tarixi hadisəyə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.

1.2.2. Yazılı mənbələrin, yaxud tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.

***1.3. İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.***

1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir

**2. Tarixi məkan**

**Şagird:**

***2.1. Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.***

2.1.1. Müxtəlif tarix dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.

2.1.2. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.

**3. Dövlət**

**Şagird:**

***3.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.***

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

3.1.2. Müxtəlif dövrlərdə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.

3.1.3.Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.

**4. Şəxsiyyət**

**Şagird:**

***4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.***

4.1.1. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərini (I Axsitan, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Abbas,Nadir şah, Cavad xan, Ağa Məhəmməd şah Qacar və b.) dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.
4.1.2. Görkəmli tarixi şəxsiyyətlər haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlayır.

**5. Mədəniyyət**

**Şagird:**

***5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.***

5.1.1. Mədəniyyətin inkişafını tarixi şərait və sosial iqtisadi vəziyyət baxımdan dəyərləndirir.
5.1.2. Azərbaycan mədəniyyətini Türk-İslam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.
5.1.3. Türk-İslam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatlar və təqdimatlar hazırlayır.

## XI sinif

**XI sinfin sonunda şagird:**

- mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü dəyərləndirir, təqdimatlar hazırlayır;
- tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir, müxtəlif baxışları dəyərləndirir;
- Azərbaycan xalqının formalaşmasını tarixi dövrlərlə əlaqələndirir;
- Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir, təqdimatlar hazırlayır;
- Azərbaycanda müxtəlif dövrlərdə mövcud olmuş dövlətlərin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir və proqnozlar verir;

- qlobal problemlərin həllində Azərbaycanın mövqeyini dəyərləndirir;
- tarixi inkişafda şəxsiyyətlərin fəaliyyətini dəyərləndirir və layihələr hazırlayır;
- dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir;
- Azərbaycan xalqının dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələrini təqdim edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1.Tarixi zaman**

**Şagird:**

***1.1. Xronologiya ilə bağlı tarixi anlayışları mənimsədiyini nümayiş etdirir.***

1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü dəyərləndirir, təqdimatlar hazırlayır.

1.1.2. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrlərinə aid müqayisəli sinxron cədvəllər hazırlayır.

***1.2. Mənbələr üzərində tədqiqat bacarıqları nümayiş etdirir.***

1.2.1. Mənbələrdəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışları dəyərləndirir.

1.2.2. Tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir.

***1.3. İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.***

1.3.1. Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini tarixi dövrlərlə əlaqələndirir.

**2. Tarixi məkan**

**Şagird:**

***2.1. Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.***

2.1.1. Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir.

2.1.2. Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır.

**3. Dövlət**

**Şagird:**

***3.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.***

3.1.1. Müxtəlif dövrlərdə Azərbaycanda yaranmış dövlətlərin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir.

3.1.2. Qlobal problemlərin həllində Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir.

3.1.3. Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.

**4. Şəxsiyyət**

**Şagird:**

***4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.***

4.1.1. Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin (Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Əbülfəz Elçibəy, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu və fəaliyyətini dəyərləndirir.

4.1.2. Görkəmli tarixi şəxsiyyətlər haqqında layihələr hazırlayır.

**5. Mədəniyyət**

**Şagird:**

***5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.***

5.1.1. Dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir.

5.1.2. Azərbaycanın milli-mənəvi dəyərlərini Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir.

5.1.3. Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələri təqdim edir.

## 1.6. Fəndaxili və fənlərarası inteqrasiya

"Ümumi təhsil pilləsində dövlət standartları və proqramları (kurikulumları)" sənədi və onun əsasında hazırlanmış Azərbaycan tarixi üzrə təhsil proqramı (kurikulumu) fəndaxili və fənlərarası əlaqələrin geniş tətbiqini nəzərdə tutur. Ənənəvi təlimdə şagirdlərə faktlar toplusu verilir və onları əzbərləmək tələb olunur. Nəticədə isə şagirdlər həyatda onlara lazım olmayan məsələləri öyrənməli olurlar. Onlar çox vaxt cəmiyyətdə və öz kollektivlərində baş verən proseslərlərdən baş çıxara bilmirlər. İnteqrativ kurrikulum isə fənn sahələrinin kombinasiyasını özündə əks etdirməklə şagirdi obyektə deyil, subyektə çevirir. Burada təhsilin məqsədinə hadisə və təzahürləri öyrənmək və bilmək deyil, həm də əldə olunmuş bilik, bacarıq və dəyərlərdən müxtəlif situasiyalarda istifadə etmək, araşdırmaları təkmilləşdirmək, anlama, birbaşa şəxsi iştirak daxildir. Belə kurikulum şagirdlərə öyrənmə zamanı müxtəlif fənlər arasında bilik və konsepsiya səviyəsində dəyərli əlaqələr yaratmaqda köməklik göstərir.

Digər fənn təhsil proqramları (kurikulumları) kimi Azərbaycan tarixi fənni üzrə təhsil proqramında (kurikulumuda) biliklərin fənlər vasitəsi ilə təşkil olunmuş konsepsiyasına əsaslanır. Bu yanaşmaya görə şagird məktəbdə tədris olunan fənlər vasitəsi ilə müxtəlif sahələr üzrə seçilmiş məzmunu öyrənməli və tətbiq etməyi bacarmalıdır. Azərbaycan tarixinin inteqrativ kurikulumu aşağıdakı səciyyəvi xüsusiyyətlərə malikdir:

-təlimin fəal cəlbedici və əyləncəli olması;

-çoxlu hissələrə bölünməməsi;

-məzmununun sadə, əhatəli və anlaşıqlı olması;

-fənlərinin sayının çox olmaması (iki, üç və dörd fənn);

-eyni konsepsiyanın iki müxtəlif fəndə öyrənilməsi;

-təlimin müxtəlif mərhələlərinin əlaqələndirilməsi (şaquli inteqrasiya);

-yüksək nailiyyət səviyyəsinin və intellektual bacarığın inkişafının situmullaşdırılması.

Nəzərə almaq lazımdır ki, Azərbaycan tarixinin məzmunu yüksək dərəcədə inteqrativdir. Çünki hər növbəti tarixi mərhələnin hadisə və təzahürləri müəyyən dərəcədə əvvəlki hadisələrlə bağlıdır və ondan asılıdır. Buna görə də şaquli inteqrasiya prinsipi gözlənilmədən tarixi gedişi anlamaq mümkün deyildir. Həmin prinsipin gözlənilməsi Azərbaycan tarixi fənninin əsas xüsusiyyətlərindən biridir. Digər tərəfdən, Azərbaycan tarixi ölkəmiz ərazisində yaşamış və yaşayan insanların həyatının bütün sahələrini və təzahürlərini əhatə etdiyi üçün onun başqa fənlərlə, başqa bilik sahələri ilə yüksək bağlılığı vardır. Buna görə də Azərbaycan tarixi fənninin hər mərhələsində üfiqi inteqrasiya gözlənilməlidir. Bu şagirdlər tərəfindən fənnin məzmununun mənimsənilməsinin zəruri şərtlərindəın biridir. Azərbaycan tarixinin tədrisində iki tip inteqrasiya tətbiq etmək məqsədəuyğundur. Birinci tipə fənn daxilində (şaquli və üfiqi) inteqrasiya, ikinci tipə isə fənlərarası (üfiqi) inteqrasiya daxildir. Birinci tip inteqrasiya özündə aşağıdakı modelləri birləşdirir:

-fraqmentləşdirilmiş (hissələrə bölünmüş) inteqrasiya;

-əlaqəli inteqrasiya;

-Sıxlaşdırılmış (iç-içə yerləşdirilmiş) inteqrasiya.

Təhsil proqramının (kurikulumun) ənənəvi planlaşdırma və təşkili modeli olan fraqmentləşmiş intiqrasiya digər fənnlərdə olduğu kimi, Azərbaycan tarixində də müstəqil tədris sahəsidir. Ümumi orta və tam orta təhsil səviyyələrində Azərbaycan tarixi ayrıca fənn kimi tədris olunur. Bu modeldə fraqmentlənmə olmasına baxmayaraq, Azərbaycan tarixi fənni daxilində tədris prioritetlərini sistemli təşkil etmək, üst-üstə düşmə və yüklənmə hallarını azaltmaq üçün inteqrasiya mövzularının, bacarıqların və konsepsiyaların sıra ilə qeyd olunması və dəyərləndirilməsi ilə başlana bilər. Məsələn, VII sinifdə “Albaniya Erkən orta əsrlərdə” və “Atropatena Erkən orta əsrlərdə” mövzuları bu qəbildəndir. Belə ki, Erkən orta əsrlərdə Albaniya və Atrpopatena Sasanilər imperiyasının tərkibində olduğundan onların hər ikisində baş vermiş hadisə və təzahürlərdə oxşarlıq çoxdur. Bu mövzuların inteqrasiyası şagirdlərə Azərbaycan tarixinin həmin dövrünü tam halda dəyərləndirməklə yanaşı, hadisə və təzahürlər arasında oxşar və fərqli

prosesləri müqayisə edərək səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək imkanı verir. Bu inteqrasiya modeli məzmun, konsepsiya və bacarıqların şaquli əlaqələndirilməsinin sadə forması da ola bilər. Məsələn, VII sinifdə Azərbaycan tarixindən “Ərəb xilafəti dövründə sosial-iqtisadi və siyasi vəziyyət” mövzusunda verilmiş məzmun, konsepsiya və bacarıqlar VIII-X siniflərdə iqtisadi məsələlərlə bağlı mövzuların tədrisi zamanı əlaqələndirilir. Əsas torpaq mülkiyyəti formaları kimi divan, iqta, mülk, vəqf və icma mülkiyyəti anlayışları bütün siniflərdə müvafiq mövzularda öyrənilir. Onlar haqqında əvvəllər əldə olunmuş bilik və bacarıqlara istinad etməklə şagirdlər daha ətraflı bilik və bacarıqlar əldə etmək, müqayisələr aparmaqla torpaq mülkiyyəti formalarında baş vermiş dəyişiklikləri izləmək və onların səbəb və nəticələrini müəyyənləşdirmək imkanı əldə edirlər.

Əlaqəli inteqrasiya modeli Azərbaycan tarixi fənni daxilində diqqəti mövzulara, bacarıqlara və konsepsiyalara yönəldir. Bu modeldə fənn daxilindəki mövzular, bacarıqlar və konsepsiyalar arasındakı əlaqələr aydın şəkildə qurulur. Məsələn, insanlar arasında bərabərsizliyin yaranmasının nəticəsi olaraq sosial qrup və təbəqələrin meydana çıxması ilk dövlət qurumlarının və dövlətlərin yaranması ilə, onlar da öz növbəsində xalqın fiziki və mənəvi varlığının qorunması üçün tariximizin bütün mərhələlərində müstəqil dövlətçiliyə malik olmaq, onu qorumaq və möhkəmləndirmək uğrunda mübarizə, son nəticədə isə dövlətçiliyin inkişafı, Şərqdə, bütün türk-islam dünyasında ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə əlaqələndirilir. Bu modelin üstünlüyü ondadır ki, hər bir sinifdə, hər bir təhsil mərhələsində dövlətçilik və onun qorunması konsepsiyası əlaqələndirilir, sistemləşdirilir və genişləndirilir. Bu da öz növbəsində fənn daxilində mövzuların və bacarıqların əvvəlkilərə istinad olunaraq yenidən nəzərdən keçirilməsinə və mənimsənilməsinə gətirib çıxarır.

Sıxlaşdırılmış (iç-içə yerləşdirilmiş) modelə çox vaxt “yuva” modeli də deyirlər. Azərbaycan tarixinin inteqrativ kurikulumunda bu modeli açıq şəkildə əlaqələndirmələrin və ya kombinasiyaların qurulması yolu ilə tətbiq etmək mümkündür. Bu modelin tətbiqi əsas diqqətin fənnin daxilində çoxşaxəli bacarıqlara (sosial bacarıq, düşünmə bacarığı və məqsədyönümlü bacarıq)

yönəldilməsinə şərait yaradır. Məsələn, müəllim sasanilərin, ərəblərin və monqolların Azərbaycan torpaqlarına köçürmə siyasətini şagirdlərin diqqətində saxlamaqla yanaşı, Rusiya hakim dairələrinin erməniləri Azərbaycanın şimal torpaqlarına köçürməsi siyasətinin doğurduğu demoqrafik siyasi və iqtisadi problemlərin onlar tərəfindən müəyyənləşdirilməsinə, o dövrə aid sənədlərin təhlili əsasında "Azərbaycan torpaqlarına köçürülmələr: nəticə və reallıqlar" mövzusunda esse yazılmasına nail ola bilər. Bu modelin tətbiqi eyni vaxtda müxtəlif sahələrə diqqətin yönəldilməsinə, əhatəli və məqsədyönümlü bilik əldə olunmasına şərait yaradır.

İnteqrasiyanın ikinci tipi fənnlər arasında tətbiq olunur. Bu zaman Azərbaycan tarixinin ümumi orta və tam orta təhsil pillələrində Ana dili, Oxu, Riyaziyyat, Ümumi tarix, Coğrafiya, Kimya, Biologiya, Həyat bilgisi, Musiqi və nəğmə, Təsviri incəsənət fənləri ilə inteqrasiyası mümkündür. Azərbaycan tarixinin inteqrativ kurikulumunda fənlər arasında inteqrasiyasının aşağıdakı modellərini tətbiq etmək mümkündür:

-ardıcıl (sıralanmış model);

-ümumi (ortaq model);

-zəncirvari (hörülmüş) model.

Azərbaycan tarixinin inteqrativ kurikulumunda Ümumi tarix ilə inteqrasiyası daha çox ardıcıl (sıralanmış) modelin tətbiqi nəticəsində mümkündür. Bu fənlərdə çoxlu oxşar bölmələr və mövzular vardır ki, onlar ayrı-ayrılıqda tədris olunur. Lakin onları elə planlaşdırmaq olar ki, (bunun üstün cəhəti həmin fənlərin eyni müəllim tərəfindən tədris olunmasıdır) əlaqəli konsepsiyalar, biliklər, bacarıqlar eyni çərçivədə yaranır və eyni vaxtda öyrənilir. Bu cür inteqrasiyasının həyata keçirilməsi üçün kurikuluma dair sənədlərdə məzmun hökmən balanslaşdırılmalıdır. Azərbaycan tarixi və Ümumi tarix fənləri üzrə oxşar mövzular əsasən aşağıdakılardır: "İbtidai dövr", "İlk dövlət qurumları", "Manna dövlətinin xarici siyasəti" ,"Urartu və Aşşur ilə münasibətlər", "Azərbaycan ərazisində İskit padşahlığı", "Azərbaycan torpaqları Midiya və Əhəməni imperiyalarının tərkibində", "Atropatena və Albaniyanın Roma işğallarına qarşı mübarizəsi",

“Albaniya və Atropatena Erkən Orta əsrlərdə”, “Azərbaycan Ərəb xilafətinin tərkibində”, “Azərbaycan Böyük Səlcuq, Monqol və Hülakü imperatorluqlarının tərkibində”, “Əmir Teymurun və Toxtamışın Azərbaycana yürüşləri”, “Azərbaycan Əfşar və Qacar imperatorluqlarının tərkibində”, “Azərbaycan Birinci və İkinci Dünya müharibələri illərində”, “Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-2006-cı illər)”, Azərbaycanın neft strategiyası” və s. Bu zaman fənlər ayrı olsa da, biliklər, konsepsiyalar və bacarıqlar əlaqəli şəkildə öyrənilir.

Ümumi model iki müxtəlif fənni vahid istiqamət üzrə bir araya gətirir. Bu modelin də Azərbaycan tarixindən inteqrativ kurikulumda tətbiqi imkanı genişdir. Ümumi model üzrə yanaşmaya əsasən inteqrasiya apara bilmək üçün fənn müəllimləri təlim prosesinə fənlərarası mövqedən yanaşaraq fənbirləşmə yığıncaqlarında əsas konsepsiyaları, bacarıq və dəyərləri müəyyənləşdirirlər. Bu daha çox Azərbaycan tarixi və ədəbiyyat fənlərinin tədrisində mümkündür. Məsələn, ədəbiyyat müəllimi “Kitabi-Dədə Qorqud” dastanının təhlilini bir konsepsiya kimi seçə bilər. Bu yolla ədəbiyyat və tarix müllimləri komanda formasında fəaliyyət göstərərək şagirdlərə ümumi cəhətləri göstərə və ümumi əlamətləri müəyyənləşdirmə prosesinə kömək edə bilərlər. Məsələn, VII sinifdə Azərbaycan tarixindən “Türk tayfalarının Azərbaycan xalqının təşəkkülündə rolu” mövzusunu tarix və ədəbiyyyat müəllimləri komanda şəklində tədris edə bilərlər. Azərbaycan xalqının təşəkkülündə mühüm rol oynamış ikinci və üçüncü etnik axınlar tarix müəllimi tərəfindən şərh olunduqdan sonra ədəbiyyat müəlliminin istiqamətvericiliyi ilə şagirdlər belə bir nəticəyə gəlirlər ki, ikinci etnik axın zamanı Azərbaycana gələn türk mənşəli hun tayfaları ilə yanaşı oğuz türkləri daha çox üstünlük təşkil etmişlər. Bu mühüm tarixi faktı təsdiq edən ən etibarlı yazılı mənbə isə “Kitabi-Dədə Qorqud” dastanıdır. Dastanın ayrı-ayrı boylarından məlum olur ki, xalqımızın soykökündə duran güclü və nüfuzlu Ağqoyunlu və Qaraqoyunlu tayfaları VI əsrin sonu-VII əsrin əvvəllərində Dərbənd keçidindən və Böyük Qafqaz sıra dağlarının ətəklərindən tutmuş Zəncanadək uzanan tarixi Azərbaycan torpaqlarının müxtəlif bölgələrində məskunlaşmışlar. “İslam dininin Azərbaycanda yayılması” mövzusunun tədrisi zamanı da ümumi

modeldən isitfadə etmək mümkündür. İnteqrasiya olunmuş model Azərbaycan tarixinin inteqrativ kurikulumunda fənlərarası mövzuların üst-üstə düşən konsepsiyaları və onların məlum olan xüsusiyyətləri əsasında tətbiq olunur. Bu model ortaq (ümumi) modellə oxşardır. Lakin model elm sahələri üzrə üst-üstə düşən bacarıqlar, konsepsiyalar və dəyərlər üzərində qurulur. Bu model fənn sahələrini sinergetik birləşdirir, yəni bir fənn üzrə biliklər digər fənndən ayrılmır, bölünmə yalnız fərqləndirilən məzmunun və ya anlayışın tədrisində baş verir. Bu model inteqrasiya fənlərinin məzmunundan əlaqəli fikirləri seçib ayırmaq nəticəsində yaranır. Azərbaycan tarixindən inteqrasiya olunmuş modelə uyğun gələn müəyyən dərs nümunələri vardır. Onlara "Azərbaycanın neft strategiyası" (Azərbaycan tarixi, kimya və biologiya müəllimləri tərəfindən aparılır) və "Xəzər dənizi və onun problemləri" (Azərbaycan tarixi, coğrafiya və biologiya müəllimləri tərəfindən aparılır) mövzularını misal göstərmək olar.

Söylənilən mülahizələri nəzərə alaraq müəllimlərə kömək məqsədi ilə Azərbaycan tarixi üzrə fəndaxili və fənlərarası inteqrasiya cədvəlini təqdim edirik.

1. **Tarixi zaman**

| № | V sinif | VI sinif | VII sinif | VIII sinif | IX sinif | X sinif | XI sinif |
|---|---|---|---|---|---|---|---|
| **1.** | **Tarixi zaman** | **Tarixi zaman** | **Tarixi zaman** | **Tarixi zaman** | **Tarixi zaman** | **Tarixi zaman** | **Tarixi zaman** |
| 1.1. | *Xronologiya ilə bağlı əsas anlayışları fərqləndirir.* | *Xronologiya ilə bağlı tarixi anlayışları mənimsədiyini nümayiş etdirir.* | *Xronologiya ilə bağlı tarixi anlayışları mənimsədiyini nümayiş etdirir.* | *Xronologiya ilə bağlı tarixi anlayışları mənimsədiyini nümayiş etdirir.* | *Xronologiya ilə bağlı tarixi anlayışları mənimsədiyini nümayiş etdirir.* | *Xronologiya ilə bağlı tarixi anlayışları mənimsədiyini nümayiş etdirir.* | *Xronologiya ilə bağlı tarixi anlayışları mənimsədiyini nümayiş etdirir.* |
| 1.1.1 | Tarixi zaman anlayışları arasındakı əlaqələri müəyyənləşdirir | Mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müəyyənləşdirir. *Ü-t. 1.1.3.* | Mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müqayisə edir. *Ü-t. 1.1.2.* | Azərbaycan və dünya ölkələrində baş vermiş mühüm hadisə, proses və təzahürlərin sinxronluğunu izah edir. *Ü-t. 1.1.2.* | Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir. *Ü-t. 1.1.3* | Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlayır. *Ü-t. 1.1.2.* *Az-d. 1.2.4 .* | Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrlərini dəyərləndirir, təqdimatlar hazırlayır. *Ü-t. 1.1.2.* *Az-d. 1.2.4.* |
| 1.1.2 | Sadə xronoloji məsələləri həll edir. *Riy. 1.2.1* | Mühüm hadisə, proses və təzahürləri zaman oxunda təsvir edir. *Ü-t. 1.1.1.* *Riy. 1.1.3* | Tarixi zaman və hadisələr arasında əlaqələrə dair müxtəlif sxem və cədvəllər tərtib edir. *Ü-t. 1.1.3.* | Hadisə və proseslərin zamana görə əlqələndirilməsinə dair tematik-sinxron cədvəllər hazırlayır. *Ü-t. 1.1.3.* | Mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır. *Ü-t. 1.1.3.* | Mənbələr əsasında Azərbaycanın keçmiş və müasir dövrünə dair xronoloji cədvəllər hazırlayır. *Ü-t. 1.1.3* | Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrlərinə aid müqayisəli sinxron cədvəllər hazırlayır. *Ü-t. 1.1.3* |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1.2. | *Tarixi mənbələri tanıdığını nümayiş etdirir.* | *Mənbələr üzərində tədqiqat bacarıqları nümayiş etdirir.* | *Mənbələr üzərində tədqiqat bacarıqları nümayiş etdirir.* | *Mənbələr üzərində tədqiqat bacarıqları nümayiş etdirir.* | *Mənbələr üzərində tədqiqat bacarıqları nümayiş etdirir.* | *Mənbələr üzərində tədqiqat bacarıqları nümayiş etdirir.* | *Mənbələr üzərində tədqiqat bacarıqları nümayiş etdirir.* |
| 1.2.1. | Maddi və yazılı mənbələri fərqləndirir.<br><br>*Ə. 1.1.4.* | Dövrün öyrənilməsində maddi və yazılı mənbələrin rolunu izah edir.<br>*Ü-t. 3.1.2* | Dövrə aid yazılı və maddi mənbələri əlaqələndirir.<br><br>*Ə. 1.2.3.*<br>*Ü-t. 2.1.2.;* | Dövrə aid hadisə, proses və təzahürləri verilmiş yazılı mənbələrlə əlaqələndirir.<br>*Ə.1.3.2;*<br>*Ut.2.1.2.* | Eyni hadisəyə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir.<br>*Ü-t. 1.1.2* | Tarixi hadisəyə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.<br>*Ü-t. 1.1.2*<br>*Az-.d. 1.2.4.* | Mənbələrdəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışları dəyərləndirir.<br>*Az.d. 1.2.4.*<br>*U-t.1.1.2* |
| 1.2.2 | İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır.<br>*Az-d. 3.1.2.*<br>*Ə. 1.1.4.*<br>*Riy.5.1.1.* | İllüstrasiya və yaxud muzey eksponatları əsasında sadə tədqiqatlar aparır.<br>*Ə. 1.1.4.*<br>*Az-d. 3.1.2.* | Öyrəndiyi dövrə aid yazılı mənbələr üzərində işləyir.<br><br>*Ə. 1.1.4*<br>*Az-d. 3.1.2.*<br>*İnf. 1.2.3.* | Öyrəndiyi dövrə aid yazılı mənbələri təhlil edir, nəticələrini təqdim edir.<br>*Ə. 1.1.4*<br>*Az-d. 3.1.3*<br>*İnf.3 3.2.* | Müxtəlif mənbələr əsasında təqdimatlar hazırlayır.<br><br>*Ə. 1.1.4*<br>*İnf. 3.3.2*<br>*Az-d. 1.2.4* | Yazılı mənbələrin, yaxud tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir<br><br>*İnf.1.1.3.*<br>*Ə. 1.1.4.* | Tarixi hadisə, proses və təzahürün öyrənilməsi üçün müvafiq mənbələri seçir.<br>*İnf. 3.3.2.*<br>*Ə. 1.1.4.* |
| **1.3.** | ***İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.*** | ***İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.*** | ***İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.*** | ***İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.*** | ***İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.*** | ***İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.*** | ***İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.*** |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1.3.1. | İnsanların həyat tərzindəki dəyişiklikləri öz ailəsi nümunəsində təsvir edir.<br><br>*Az-d. 1.2.4*<br>*H-b.2.1.1.* | İnsanların birgə yaşayışının müxtəlif formalarını fərqləndirir.<br><br>*Az-d. 1.2.4.*<br>*Ü-t. 2.1.1.* | Azərbaycan ərazisində yaşamış insanların həyat tərzi və məşğuliyyətində baş vermiş dəyişiklikləri müəyyənləşdirir.<br>*Az-d. 2.2.3.*<br>*Ü-t. 2.1.1.* | Azərbaycan ərazisində yaşamış insanların həyat tərzi və məşğuliyyətlərində baş vermiş dəyişiklikləri izləyir və onların səbəblərini izah edir.<br>*Ü-t. 2.1.1.*<br>*Az-d. 2.2.3.* | Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.<br>*Az-d. 2.2.3.*<br>*Ü-t. 2.1.1.* | İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.<br><br>*Ü-t. 2.1.1.*<br>*Az-d. 3.1.2.* | Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini tarixi dövrlərlə əlaqələndirir.<br><br>*Ü-t. 2.1.1.*<br>*Az-d. 1.2.4.* |

## 2. Tarixi məkan

| № | V sinif | VI sinif | VII sinif | VIII sinif | IX sinif | X sinif | XI sinif |
|---|---|---|---|---|---|---|---|
| 2. | **Tarixi məkan** | **Tarixi məkan** | **Tarixi məkan** | **Tarixi məkan** | **Tarixi məkan** | **Tarixi məkan** | **Tarixi məkan** |
| 2.1. | *Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.* | *Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.* | *Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.* | *Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.* | *Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.* | *Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.* | *Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.* |
| 2.1.1. | İnsan və cəmiyyətin həyatı üçün əlverişli təbii amilləri təsvir edi<br>*H-b. 1.2.1.* | Qədim insanların həyat tərzini və məşğuliyyətini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir. | Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri izah edir. | Azərbaycanın coğrafi mövqeyi və təbii amillərini təsərrüfatın, ictimai münasibətlərin inkişafı və ölkənin siyasi vəziyyəti ilə əlaqəlndirir. | Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri dəyərləndirir. | Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.<br>*K. 4.2.1.*<br>*Ü-t. 2.1.2.*<br>*C. 3.2.1.* | Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir.<br>*K. 4.2.1.*<br>*U-t. 2.1.1*<br>*C. 3.2.3* |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | *Ü-t. 2.1.2*<br>*C. 3.2.3*<br>*H-b.1.2.1;* | *Ü-t. 2.1.1.*<br>*C. 3.2.3.*<br>*H-b. 1.2.1.*<br>*K. 4.2.1.* | *Ü-t. 2.1.1.*<br>*C. 3.2.3*<br>*K. 4.2.1.*<br>*H-b. 1.2.1* | *K. 4.2.1.*<br>*Ü-t. 2.1.1*<br>*C. 3.2.3*<br>*H-b. 1.2.1* | | |
| 2.1.2. | Xəritələrdə Azərbaycan ərazisini və mühüm tarixi abidələri müəyyənləşdirir. | Xəritələrdə Azərbaycan ərazisində ilk insan məskənlərini, dövlət qurumları və qədim dövlətlərin yerini müəyyənləşdirir.<br>*Ü-t. 2.1.2*<br>*C. 3.1.2.* | Dövrə aid xəritə və xəritə-sxemlərdəki müxtəlif tarixi hadisə, proses və təzahürlərə dair məlumatları izah edir.<br>*Ü-t. 2.1.2*<br>*C. 3.1.2.* | Xəritələrdəki məlumatlara əsasən sxem və cədvəllər tərtib edir.<br>*Ü-t. 2.1.2.*<br>*C. 3.2.4.* | Mühum tarixi hadisə və prosesləri kontur xəritələrdə təsvir edir.<br>*U-t. 2.1.2.* | Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.<br>*C. 3.2.4*<br>*U-t. 2.1.2*<br>*F. 2.2.1.* | Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır.<br>*Ü-t. 2.1.2*<br>*C. 3.2.4*<br>*F. 2.2.1.* |

## 3. Dövlət

| № | V sinif | VI sinif | VII sinif | VIII sinif | IX sinif | X sinif | XI sinif |
|---|---|---|---|---|---|---|---|
| **3.** | **Dövlət** | **Dövlət** | **Dövlət** | **Dövlət** | **Dövlət** | **Dövlət** | **Dövlət** |
| 3.1. | *Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.* | *Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.* | *Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.* | *Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.* | *Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.* | *Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.* | *Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.* |
| 3.1.1. | Azərbaycan | Azərbaycanda | Azərbaycan feodal | Mərkəzləşmiş | Müstəmləkə | Dövlətlərin | Müxtəlif dövr- |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | dövlətləri haqqında sadə biliklər nümayiş etdirir.<br><br>*Ə. 1.1.2.*<br>*H-b. 2.1.2.* | dövlət qurumları və qədim dövlətlərin yaranmasını, idarə olunmasını, sosial-iqtisadi münasibətləri təsvir edir.<br>*Ü-t. 3.1.1.*<br>*C. 3.2.1*<br>*H-b. 2.1.2.* | dövlətlərinin inkişafı, müstəqilliyini itirməsi və siyasi müstəqilliyinin bərpası səbəblərini şərh edir.<br><br>*Ü-t. 3.1.1.*<br>*C. 3.2.1*<br>*H-b. 2.1.2.* | dövlətin yaranması və tənəzzülü, Azərbaycan torpaqlarının birləşdirilməsi uğrunda mübarizənin xüsusiyyətlərini şərh edir.<br>*Ü-t. 3.1.1.*<br>*C. 3.2.1*<br>*H-b. 2.1.2.* | rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.<br>*Ü-t. 3.1.1.*<br>*C. 3.2.1*<br>*H-b. 2.1.2.* | yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.<br><br>*Ü-t-3.1.1.*<br>*Coğ. 3.2.1* | lərdə Azərbaycanda yaranmış dövlətlərin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir.<br>*Ü-t. 3.1.1.*<br>*C. 3.2.1* |
| 3.1.2. | Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.<br><br>*Az-d. 2.2.3*<br>*H-b. 2.1.2.* | Qədim dövlətlərin daxili və xarici siyasətini izah edir.<br><br>*Ü-t. 3.1.1*<br>*Az-d. 2.2.3*<br>*H-b. 2.2.1.* | Azərbaycanda dövlətçilik ənənələrinin inkişafı xüsusiyyətlərini dəyərləndirir.<br>*Ü-t. 3.1.1*<br>*Az-d. 2.2.3*<br>*H-b. 2.1.2;2.2.1.* | Dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini dəyərləndirir.<br><br>*Az-d. 2.2.3*<br>*H-b. 2.1.2;2.2.1.* | Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.<br><br>*Ü-t. 3.1.1.*<br>*Az-d. 3.1.1.*<br>*H-b. 2.1.2.* | Müxtəlif dövrlərdə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.<br>*Ü-t. 3.1.1.*<br>*Az-d. 3.1.2.* | Qlobal problemlərin həllində Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir.<br>*Ü-t. 3.1.2.*<br>*Az-d. 1.1.1.* |
| 3.1.3. | Kiçik həcmli tarixi hekayə qurur.<br><br>*Az-d. 3.1.4*<br>*Ə. 3.1.3..* | Qədim Azərbaycan dövlətləri haqqında mənbələr əsasında məlumatlar toplayır, təqdimat hazırlayır.<br>*Ü-t. 3.1.2.*<br>*Az-d. 2.2.3.* | Feodal dövlətləri ilə bağlı cədvəllər hazırlayır.<br><br>*Ü-t. 3.1.2* | Dövrlə bağlı mənbələrdən əldə etdiyi məlumatlar əsasında sxem və cədvəllər qurur.<br><br>*Ü-t. 3.1.3.* | Azərbaycan dövlətləri ilə bağlı müxtəlif mənbələrdən topladığı materialları təqdim edir.<br>*Ü-t. 3.1.2.*<br>*Az-d. 1.2.4.* | Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.<br><br>*Ü-t. 3.1.3.*<br>*İnf. 4.1.2.* | Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.<br>*Ü-t. 3.1.3.*<br>*İnf. 4.1.2.* |

## 4. Şəxsiyyət

| № | V sinif | VI sinif | VII sinif | VIII sinif | IX sinif | X sinif | XI sinif |
|---|---|---|---|---|---|---|---|
| **4.** | **Şəxsiyyət** | **Şəxsiyyət** | **Şəxsiyyət** | **Şəxsiyyət** | **Şəxsiyyət** | **Şəxsiyyət** | **Şəxsiyyət** |
| 4.1. | *Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.* | *Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.* | *Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.* | *Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.* | *Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.* | *Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.* | *Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.* |
| 4.1.1. | Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri (İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Sara xatın, Şah I İsmayıl, Cavad xan, Məmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.) müəyyən edir.<br><br>*Az-d. 1.2.4.* | Dövlətlərin yaranmasında, inkişafında tarixi şəxsiyyətlərin (İranzu, Tomİris, Atropat, Oroys və b.) rolunu dəyərləndirir.<br><br>*Ü-t. 4.1.1.*<br>*Az-d . 1.2.2.* | Tarixi şəxsiyyətləri (Cavanşir, Babək, Yusif ibn Əbu Sac, Şəmsəddin Eldəniz, I İbrahim Xəlilullah, Qara Yusif, Uzun Həsən və b.) oxşar və fərqli cəhətlərinə görə təhlil edir.<br><br>*Ü-t. 4.1.1.*<br>*Az-d. 1.2.2.* | Azərbaycan dövlətçiliyində mühüm rol oynamış tarixi şəxsiyyətlərin (Şah I İsmayıl, Şah I Təhmasib, Şah I Abbas, Nadir şah, Qubalı Fətəli xan, Hacı Çələbi və b.) fəaliyyətini dəyərləndirir.<br><br>*U-t. 4.1.1.*<br>*Az-d . 2.2.3.* | Dövlətçiliyin möhkəmləndirilməsin-də və inkişafında tarixi şəxsiyyətlərin (Məmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu dəyərləndirir.<br><br>*Ü-t 4.1.1.*<br>*Az-d. 2.2.3* | Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərini (I Axsitan, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Abbas,Nadir şah, Cavad xan, Ağa Məhəmməd şah Qacar və b.) dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.<br><br>*Ü-t. 4.1.1.*<br>*Az-d. 1.2.4.* | Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin (Məmməd Əmin Rəsul-zadə, Fətəli xan Xoyski, Şeyx Məhəm-məd Xiyabani, Nəriman Nərimanov, Əbülfəz Elçi-bəy, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu və fəaliyyətini dəyərləndirir.<br><br>*Ü-t. 4.1.1.*<br>*A-d. 1.2.4.* |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 4.1.2. | Mənbələrə əsasən şəxsiyyətlər haqqında təqdimatlar hazırlayır.<br><br>*İnf. 4.1.1.*<br>*Az-d. 1.2.4*<br>*Riy. 5.1.1* | Tarixi şəxsiyyətlər haqqında kiçik hekayə qurur.<br><br>*Ü-t. 4.1.2*<br>*Az-d. 3.1.2*<br>*İnf. 3.2.2*<br>*Ə. 3.1.3* | Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı sxem və cədvəllər hazırlayır.<br>*Ü-t. 4.1.2*<br>*İnf. 2.1.3*<br>*K. 4.3.1.*<br>*Az-d. 3.1.2* | Tarixi şəxsiyyətlər haqqında müqayisəli sxem və cədvəllər hazırlayır.<br><br>*Ü-t. 4.1.2*<br>*İnf. 3.3.2*<br>*Az-d. 1.2.4*<br>*K. 4.3.1* | Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir.<br><br>*Ü-t. 4.1.2.*<br>*İnf. 3.3.2.*<br>*Az-d. 1.2.4.*<br>*K. 4.3.1.* | Görkəmli tarixi şəxsiyyətlər haqqında topladığı materiallara əsasən referat və təqdimatlar hazırlayır.<br>*Ü-t. 4.1.2.*<br>*İnf. 4.1.2.*<br>*Az-d. 3.1.2.*<br>*K. 4.3.1.*<br>*Ə. 3.1.2* | Görkəmli tarixi şəxsiyyətlər haqqında layihələr hazırlayır.<br><br>*Ü-t. 4.1.2*<br>*İnf. 4.1.2*<br>*Az-d. 3.1.2*<br>*K. 4.3.1*<br>*Ə. 3.1.2* |
| | | | | | | | |

## 5. Mədəniyyət

| № | V sinif | VI sinif | VII sinif | VIII sinif | IX sinif | X sinif | XI sinif |
|---|---|---|---|---|---|---|---|
| **5.** | **Mədəniyyət** | **Mədəniyyət** | **Mədəniyyət** | **Mədəniyyət** | **Mədəniyyət** | **Mədəniyyət** | **Mədəniyyət** |
| 5.1. | *Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.* | *Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.* | *Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.* | *Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.* | *Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.* | *Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.* | *Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.* |
| 5.1.1. | Mədəniyyət abidələrinin əhəmiyyətini izah edir.<br><br>*Az-d. 1.2.2.* | Sivilizasiyayaqə - dərki və sivilizasiya dövrünün mədəniyyətlərini izah edir.<br><br>*Ü-t. 5.1.1.*<br>*Az-d. 1.2.4.* | Mədəniyyətin inkişaf mərhələlərini dəyərləndirir.<br><br>*Ü-t. 5.1.1*<br>*F. 3.2.2*<br>*K. 4.3.1*<br>*Az-d.2.2.3.* | Yeni ictimai-iqtisadi münasibətlərin mədəniyyətə təsirini dəyərləndirir.<br>*Ü-t. 5.1.2.*<br>*K. 4.3.1.*<br>*Az.d. 2.2.3.* | Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini şərh edir.<br><br>*Ü-t. 5.1.1*<br>*Az-d. 3.1.2.* | Mədəniyyətin inkişafını tarixi şərait və sosial iqtisadi vəziyyət baxımından dəyərləndirir.<br>*Ü-t. 5.1.1.*<br>*Az-d. 3.1.2.*<br>*B. 1.1.1.* | Dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir.<br>*Ü-t . 5.1.1*<br>*Az-d. 3.1.2* |
| 5.1.2. | Milli-mənəvi dəyərləri | Azərbaycan mədəniyyətinin | Milli-mədəni dəyərlərin formalaşma- | Azərbaycan mədəniyyətinin inki- | Azərbaycan sivilizasiyası və | Azərbaycan mədəniyyətini | Azərbaycanın milli-mənəvi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | fərqləndirir<br><br>*H-b. 3.2.2;* | müxtəlif xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqələrini izah edir.<br><br>*Ü-t. 5.1.2*<br>*F. 3.2.2*<br>*B. 1.1.1* | sına dinlərin təsirini dəyərləndirir.<br><br>*B. 1.1.1*<br>*H-b. 3.3.1.* | şafına təsir edən amilləri şərh edir.<br><br>*Ü-t. 5.1.2*<br>*F. 3.2.2.*<br>*B. 4.2.1, 4.2.2* | mədəniyyətinin xarakterik əlamətlərini dün-ya sivilizasiyası və mədəniyyət-lərinin xarakterik əlamətləri ilə müqayisə edir.<br>*Ü-t. 5.1.2.*<br>*F. 3.2.2*<br>*B. 1.1.1* | Türk-İslam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.<br><br>*Ü-t. 5.1.2.*<br>*Az-d. 2.2.3*<br>*B. 1.1.1*<br>*K.4.3.1.* | dəyərlərini Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir.<br><br>*Ü-t. 5.1.2*<br>*K. 4.3.1*<br>*Az-d. 2.2.3*<br>*B. 1.1.1* |
| 5.1.3.<br>. | Azərbaycan mədəniyyəti ilə bağlı sadə təqdimatlar hazırlayır.<br><br>*Az-d. 3.1.2*<br>*Ə. 3.1.2*<br>*Mus.1.1.1.*<br>*T-i. 1.3.1.* | Mədəni əlaqələrə dair cədvəllər tərtib edir<br><br>*Ü-t. 5.1.3*<br>*B. 1.1.1.*<br>*İnf. 3.2.2.*<br>*Ə. 3.1.2.*<br>*Mus.1.1.1.*<br>*T-i.1.3.1.* | Mədəniyyətin inkişaf mərhələlərini əks etdirən təqdimatlar hazırlayır.<br><br>*Ü-t. 5.1.3.*<br>*B. 1.1.1.*<br>*Ə. 3.1.2.*<br>*Az-d. 2.2.2*<br>*Mus.1.1.1.*<br>*T-i.1.3.1.* | Azərbaycanın mədəni nailiyyətlərini əks etdirən cədvəllər hazırlayır.<br><br>*Ü-t. 5.1.3.*<br>*B. 1.1.1.*<br>*Ə. 3.1.2.*<br>*K. 4.1.1*<br>*Mus.1.1.1.*<br>*T-i.1.3.1..* | Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir.<br><br>*Ü-t. 5.1.3.*<br>*B. 1.1.1.*<br>*Ə. 3.1.2.*<br>*K. 4.3.1.*<br>*Mus.1.1.1.*<br>*T-i.1.3.1.* | Türk-İslam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatlar və təqdimatlar hazırlayır.<br>*Ü-t. 5.1.3*<br>*Ə. 3.1.2*<br>*K. 4.1.1*<br>*Ə. 3.1.2*<br>*Az-d. 1.1.2, 2.2.3.*<br>*İnf. 4.1.2.* | Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələri təqdim edir.<br><br>*Ü-t. 5.1.3.*<br>*Ə. 3.1.2.*<br>*K. 4.1.1.*<br>*F. 3.2.2*<br>*Az-d. 1.1.2, 2.2.3.*<br>*İnf. 4.1.2* |

*İxtisarlar.*

*Azərbaycan dili -A-d.*

*Ümumi taix -  Ü-t.*

*Biologiya - B.*

*Ədəbiyyat - Ə.*

*Kimya - K.*

*Musiq i- Mus.*

*Təsviri incəsənət-T-i.*

*İnformatika - İnf.*

*Fizika - F.*

*Riyaziyyat - Riy.*

*Coğrafiya - C.*

*Həyat bilgisi- H*

## II. Təlim strategiyaları

Yeni kurikulumlarda təlim strategiyaları anlayışının işlənilməsi və pedaqoji prosesin təşkilində ondan daha səmərəli şəkildə istifadə olunması ilk növbədə əsas pedaqoji anlayışlardan biri kimi onun müasir baxımdan izahını tələb edir. Başqa sözlə, təhsilə təkcə proses, yaxud sadəcə nəticə kimi deyil, daha geniş mənada yanaşılması lazım gəlir. Xüsusən, təhsilin xarakteri ona bir neçə mövqedən yanaşmağı tələb edir. Belə ki, təhsilə dəyər, sistemli proses, nəticə kimi yanaşılması günün tələbidir.

İlk növbədə təhsilə özündə dili,milli mentaliteti , bacarıqları, adət-ənənələri ehtiva edən dəyər kimi baxılır. Bu dəyərlərin formalaşmasında şəxsiyyətin istiqamətləndirilməsi və mədəniyyətlilik, kollektivçilik, sistemlilik, bütövlük əsas aparıcı prinsiplər kimi çıxış edir.

Özünəməxsus sistemə malik olan təhsil pillələri ilə mövcuddur. Gözlənilən nəticələri ilə fərqlənən bu pillələr bir-birini tamamlayır və ardıcıl sıralanmaqla təhsilin ümumi sistemini təşkil edir. Ona görə də təhsilə bir sistem kimi baxılır. Bu zaman demokratikləşmə, humanistləşdirmə, diferensasiya, fərdiləşmə, sosiallaşma, variativlik və inklüzivlik aparıcı prinsip kimi əsas rol oynayır.

Təhsil insanı sosiallaşma prosesində ümumbəşəri və milli dəyərlərə yiyələnmənin davamlı bir fəaliyyəti kimi əhatə etdiyindən ona həm də proses kimi yanaşılır. Təhsil bütövlükdə müəllim və şagird fəaliyyətinin yekunu olduğundan həm də ona nəticə kimi baxılır.

«Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən hazırlanmış, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli, 103 nömrəli qərarı ilə təsdiq edilmiş «Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)» sənədində qeyd edildiyi kimi «Ümumi təhsil pilləsində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsi ümumi təhsilin hər bir səviyyəsi üzrə təsdiq olunmuş təlim nəticələri və fənləri üzrə məzmun standartları ilə müəyyən edilir". Onlar aşağıdakı tələbləri ehtiva edir:

- fərdin, dövlətin, cəmiyyətin maraq və tələbatının ödənilməsi;

- təhsilin nəticəyönümlülük, şagirdyönümlülük, inteqrativlik prinsipləri əsasında qurulmasına didaktik zəmin yaradılması;

- təhsilalanların həyati bacarıqlara yiyələnməsinin prioritet hesab edilməsi;

- keyfiyyətli təhsil almaq üçün hamıya bərabər imkanların yaradılması;

- təhsil səviyyələri üzrə təhsil proqramlarında (kurikulumlarda) varisliyin təmin olunması;

- şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə müvafiq standartların müəyyən edilməsi üçün etibarlı əsas yaradılması;

- təhsilalanların sağlamlığının qorunması məqsədi ilə ağırlaşdırıcı tədris materiallarının təlim prosesinə gətirilməsinin qarşısının alınması.

Bu tələblər əsasında hazırlanmış fənnin məzmununu, fəndaxili və fənlərarası inteqrasiyanı, müəllim və şagird nailiyyətlərinə dair texnologiyaları, şagird nailiyyətlərinin qiymətləndirilməsi məsələlərini özündə ehtiva edən Azərbaycan tarixi kurikulumu respublikanın ümumtəhsil məktəblərində dərin biliyə, bacarıq və vərdişlərə, yüksək intellektə, geniş dünyagörüşünə malik olan, onu daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmağa xidmət edəcəkdir. Tarixin öyrənilməsinin əsas məqsədi cəmiyyətin siyasi və mədəni dəyərlərinin gələcək nəsillərə ötürülməsidir. Ölkədə hansı siyasi şəraitin mövcudluğundan asılı olmayaraq, tarixin , xüsusilə də Azərbaycan tarixinin tədrisi olduqca zəruridir. Çünki burada əhali uzun müddət öz doğma tarixini sərbəst öyrənmək, həmçinin dövlətin idarə olunmasında iştirak etmək imkanından məhrum olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan tarixinin tədrisi və təbliği məsələlərini diqqət mərkəzində saxlayaraq 2000-ci ilin sentyabr ayında Bakı şəhərinin Nərimanov rayonundakı 82 nömrəli məktəbdə kecirilən toplantıda demişdir:“Müstəqil Azərbaycanın hər bir gənci məktəbdə təhsil alaraq, öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin”. Həmin fikri inkşaf etdirərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Yevlax şəhərindəki 1 nömrəli tam orta ümumtəhsil məktəbinin yeni binasının açılışındakı çıxışında  uşaqlarımıza tariximizin daha dərindən öyrədilməsini tövsiyə etmişdir.

Tarixin öyrənilməsi məktəblilərə müxtəlif fikir, mövqe və konsepsiyaları sərbəst təhlil etmək, eləcə də sərbəst nəticə çıxarmaq və kollektivdə işləmək kimi bacarıq və vərdişlər aşılayır ki, bu da yeni demokratik cəmiyyətdə tam dolğun həyati səviyyəyə malik yeni şəxsiyyət yetişdirməyə imkan verir.

Beləliklə məktəbdə Azərbaycan tarixinin tədrisinin əsas məqsədi şagirdlərdə aşağıdakı bilik və bacarıqları formalaşdırmaqdan ibarətdir:

- şagirdlərin Azərbaycan və ümumdünya tarixinin hadisə və faktları, həmçinin cəmiyyətin inkişafının əsas prosesləri ilə tanış etmək;

- şagirdlərdə tarixi mənbə növləri, onların xüsusiyyətləri haqqında təsəvvür , təhlil vərdişləri formalaşdırmaq;

- şagirdlərdə keçmiş və müasir dövr hadisələrini sərbəst təhlil etmək, səbəb-nəticə əlaqələrinin açılması, faktların ümumiləşdirilməsi, məktəbdə tarixin öyrənilməsi zamanı əldə olunan biliklərdən cəmiyyətin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsində istifadə bacarığını inkişaf etdirmək;

- gənc Azərbaycan vətəndaşında Vətənə məhəbbət və onun gələcəyinə məsuliyyət hissləri tərbiyə etmək;

- məktəblilərdə fəal həyat mövqeyi, vətənpərvərlik, digər xalqlara, ümumbəşəri humanist dəyərlərə hörmət hissi formalaşdırmaq;

- məktəblilərdə bəşəri mənəvi və mədəni nailiyyətlərə əsaslanan dəyər və əqidə prinsipləri formalaşdırmaq;

- Azərbaycan və bütün dünya xalqlarının ənənələrinə, mədəniyyətinə qarşı humanizm və hörmət hissləri tərbiyə etmək

**Təlimin səmərəliliyi təmin olunmaqla:**

a) şagirdlər özünütəhsil və refleksiya təcrübəsi əldə etməli, sinifdə onların tətbiqi təmin edilməli;

b) məktəblilərin öz öyrənmə fəaliyyətinin nəticələrini təqdimat, esse, layihə, veb-sayt formasında təqdim etmək təcrübəsinin tətbiqinə nail olunmalı;

c) təlimin proqnozlaşdırılan nəticələrinin maksimum reallaşdırılmasına nail olunmalı;

- tarix təliminin müasir həyatla əlaqəsi təmin edilməli;

- tarix üzrə dərs və dərsdənkənar işin vəhdəti təmin olunmalı;

- dərsdə bütün didaktik prinsiplərin optimal nisbətdə həyata keçirilməsi təmin edilməli.

Bütün bu deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan tarixi üzrə fənn kurikulumlarında təlim strategiyaları aşağıdakı məsələləri əhatə etməlidir:

- təlim prosesi və onun təşkili prinsipləri;

- təlimin təşkilində istifadə olunan forma və metodlar;

- Azərbaycan tarixi fənni üzrə təlimin planlaşdırılması.

## 2.1. Azərbaycan tarixi təliminin təşkilinə verilən əsas tələblər

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu humanistlik, demokratiklik, bərabərlik, millilik və dünyəvilik, keyfiyyətlilik, səmərəlilik, fasiləsizlik, vəhdətlik, daimilik, varislik, liberallaşma və inteqrasiya prinsiplərinin təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri olduğunu bəyan etmiş, öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə və demokratik prinsiplərinə, insan hüquq və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməyin təhsilin əsas məqsədi olduğunu qərarlaşdırmışdır. Qanun həmçinin təhsilin məzmununa və təşkilinə dair ümumi tələbləri müəyyən etmişdir.

Azərbaycanda təlim prosesi daima ardıcıl olaraq inkişaf edir və müxtəlif zamanlarda özünəməxsus xarakter kəsb edir. Şəxsiyyətyönümlü təhsil sistemində pedaqoji prosesin mərkəzində duran müəllim və şagirdlərin funksiyaları dəyişir. Onların fəaliyyəti əvvəlcədən müəyyən olunmuş nəticələrə əsasən qurulur. Müəllim kurikulumlara uyğun inteqrasiya olunmuş planlarla yanaşı yeni texnologiyalar hazırlayır, yaxud mövcud olanların içərisindən ən münasiblərini seçir. Bu texnologiyaların müəyyən olunmasında müəllim və şagird şəxsiyyəti təlimin aparıcı subyekti kimi çıxış edir. Münasibətlər «subyekt + subyekt» formasına uyğun üfiqi istiqamətdə qurulur. Bu zaman şagirdlər öz təfəkkürünün,

düşüncəsinin, müəllimlər isə şagirdin inkişafı üçün şəraitin təşkilatçısı olur. Müəllimlərin rəhbərlik funksiyası dəyişir, informasiya vermək sahəsindəki fəaliyyətini məhdudlaşdırır. O, daha çox sinif şəraitində təlim fəaliyyətini əlaqələndirən, istiqamətləndirən məsləhətçi kimi şagirdlərin müstəqil idrak fəaliyyətini, fəal yaradıcılığını təşkil edən subyektə çevrilir. Pedaqoji prosesin düzgün qurulmasında mühüm didaktik prinsiplərə istinad olunur.

Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş «Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)» haqqında sənəddə ümumi təhsil sistemində pedaqoji prosesin təşkilində aşağıdakı prinsiplərin əsas götürülməsi nəzərə alınmışdır:

- pedaqoji prosesin tamlığı–pedaqoji prosesdə təlimin məqsədləri kompleks şəkildə (inkişafetdirici, öyrədici, tərbiyəedici) həyata keçirilir, real nəticələrlə yekunlaşan müəllim və şagird fəaliyyətini əhatə edir;

- təlimdə bərabər imkanların yaradılması – bütün şəgirdlərə eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir;

- şagirdyönümlülük – şagird pedaqoji prosesin mərkəzində dayanır. Bütün tədris və təlim işi şagirdlərin maraq və tələbatının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir;

- inkişafyönümlülük – şagirdlərin əqli fəallığı izlənilir, nailiyyətləri təhlil edilir, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsi tənzimlənir;

- fəaliyyətin stimullaşdırılması – pedaqoji prosesin səmərəli və effektiv qurulması, şagirdlərin təlimə marağının artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyərləndirilir, nəticə etibarı ilə şagirdlərin daha uğurlu təlim nəticələrinə istiqamətləndirilməsi təmin olunur;

- dəstəkləyici mühitin yaradılması – pedaqoji prosesin münasib maddi-texniki baza əsasında və sağlam mənəvi-psixoloji mühitdə təşkil edilməsi keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz təlim şəraiti yaradır.

Azərbaycan tarixi fənninin tədrisində bu prinsiplərlə yanaşı xüsusi metodik prinsiplərin də müəyyən olunması didaktik cəhətdən əhəmiyyətli hesab edilir.

Tarix təlimi şagirdlərə cəmiyyətin inkişafı , xalqların tarixi haqqında bol-bol informasiya verməkdən daha çox onları həmin informasiyalardan baş açmaq, zehni və əməli fəaliyyətlərini məntiqi-elmi əsaslarla təşkil etmək, cəmiyyətdə öz yerini tutmaq bacarığı ilə silahlandırmalıdır. Tarixin təlimi prosesində şagirdlər cəmiyyətin həyatında və ölkənin idarə olunmasında fəal iştirak etməyə hazırlanmalıdırlar. Tarix fənni məktəblilərə müxtəlif rəylər, baxışlar və konsepsiyaları təhlil etməyi öyrətməli, öz baxışına zidd olan rəylərə hörmətlə yanaşmağa qabil olan şəxsiyyət tərbiyə etməlidir. Bu cür vəzifələrin həll edilməsi tarix təlimi metodikasının üzərinə düşür.

Yeni vəzifələrin yerinə yetirilməsinə kömək edən vasitə və üsulların tapılması müasir dövrün tarix təlimi metodikasının ən mühüm problemlərindəndir. Hazırkı şəraitdə köhnə baxışlarla, ənənəvi təlim üsullarına əsaslanmaqla bu vəzifələri yerinə yetirmək mümkün deyil.

Müasir didaktikada şübhəsiz elə bir vahid metod yoxdur ki, onu həmişə və hər yerdə tətbiq etmək mümkün olsun. Buna görə də müxtəlif dərs formaları və üsullarının seçilməsi müəllimin təcrübəsi və arzusundan asılı olaraq məhz onun ixtiyarına buraxılır. Müəllim gələcək dərsin məntiqini özü müəyyən etməlidir. Tarixin təlimi yaradıcı işdir, müəllim şagirdlərin qəlbinə və şüuruna öz yolunu tapmalıdır.

Təlimin təşkili formaları və metodları təlim prosesinin qanunauyğunluqları əsasında müəyyən edilir. Bu qanunauyğunluqlar təlim prosesinin aşağıdakı komponentləri arasında – ümumi, sabit və təkrarlanan əlaqələrdə təzahür edir.

1. Təlimin məqsədləri.
2. Təlimin məzmunu.
3. Şagirdlərin dərketmə imkanları.
4. Müəllimin öyrətmə və şagirdlərin öyrənmə fəaliyyəti, onun təşkili formaları, üsulları və vasitələri.
5. Təlimin nəticələri.

Təlim prosesinin idarə edilməsi müəllimdən bu komponentlərin, amillərin mühüm əlamətlərini, onların hər birinin tərkib hissəsini və bir-biri ilə əlaqələrini bilməsini tələb edir.

Hər bir tarix dərsində şagirdlər tarix təhsilinə daxil olan biliklər sisteminin müəyyən elementlərini qavrayır, başa düşür, yadda saxlamaq üçün müəyyən təmrinlər edir və ya tətbiq edirlər. Tarix təliminin əsasında faktlar durur. Tarixi faktları öyrətmədən şagirdlərin təsəvvüründə keçmişin canlı mənzərəsini yaratmaq, keçmişin və ya müasir dövrün ictimai həyat hadisəlrinin elmi izahını vermək mümkün deyil. Tarixin elmi izahını verə bilmək üçün isə şagirdlər faktları, onların əlaqə və münasibətlərini təhlil etməli, materialdan mühüm cəhətlərini ayırmalı və ümumiləşdirməli, tarixi anlayışlar sistemi, ictimai inkişafın qanunları və dünyagörüşü ideyaları haqqında biliklərlə silahlanmalıdırlar. Hər bir tarix dərsinin məqsədi hansı tarixi təsəvvürlər, obrazlar yaradılmalı, hansı tarixi anlayışlar və ya onların əlamətlərini, hansı qanunlar və ya onların konkret təzahürünü, hansı dünyagörüşü ideyalarını öyrənilməli və mənimsənilməlidir kimi suallara konkret cavablardan ibarətdir.

Tarix təlimi prosesində şagirdlərdə öyrədilən hadisə və təzahürlərə müəyyən münasibətlər formalaşır, mənimsənilmiş biliklər vasitəsilə gerçək aləmi qiymətləndirmək bacarığı yaranır, elmi dünyagörüşünün əsasında duran yanaşmalar, qiymətlər, fərdi baxışlar sistemi əmələ gəlir və s.

Tarix təlimi prosesində müəyyən şəxsiyyətin formalaşması sahəsində tərbiyə işi biri-biri ilə sıx surətdə bağlı olan üç istiqamətdə aparılır: ümumbəşəri, milli və sosial dəyərlərə yiyələnmək. Odur ki, təlim məqsədlərində təhsil vəzifələri ilə yanaşı şəxsiyyətin formalaşması istiqamətində qarşıda duran vəzifələr də konkret göstərilməlidir.

Təlimin həm təhsil, həm də tərbiyə məqsədlərinin reallaşması inkişafetdirici məqsədin düzgün müəyyənləşdirilməsindən və dərsdə həyata keçirilməsindən asılıdır. Bu da şagirdlərin təlimi, tərbiyəsi və inkişafının vəhdətindən irəli gəlir.

İnkişafetdirici məqsəd dedikdə şagirdlərin inkişafı sahəsində dərsdə əldə ediləcək nəticənin konkret olaraq göstərilməsi başa düşülür.

Azərbaycan tarixinin təlimi prosesində şagirdin bir şəxsiyyət kimi aşağıdakı cəhətləri inkişaf etdirilməlidir:

1) tarix materialının öyrənilməsi üçün şagirdlərdə diqqətin inkişaf etdirilməsi;
2) tarixin təlimi prosesində şagirdlərin qavrayış, hafizə, təxəyyül, təfəkkür, məntiq və nitqinin inkişaf etdirilməsi;
3) şagirdlərin zehni fəaliyyət çevikliyinin, müxtəlif çətinlik səviyyəsində olan təlim məsələlərinin nəzəri bilikləri tətbiq etməklə həll etmək qabiliyyətinin inkişaf etdirilməsi, müxtəlif bacarıq və vərdişlərin formalaşdırılması.

Təlimin həm tərbiyə, həm də təhsil məqsədlərinin həyata keçirilməsi inkişafetdirici məqsədlərin nə dərəcədə düzgün qiymətləndirilməsindən və reallaşdırılmasından asılıdır. Təhsilsiz tərbiyə olmadığı kimi inkişafsız da nə təhsil, nə də tərbiyə mümkündür.

Təlimin məqsədi onun məzmunu ilə qırılmaz əlaqədədir. Təsadüfi deyil ki, cəmiyyətdə müəyyən dəyişikliklər baş verdikdə təlimin məzmununda müvafiq dəyişikliklər edilir. Hər bir müəllim dərsə hazırlaşarkən təlim məqsədlərini müəyyənləşdirdikdən sonra məzmunda müvafiq dəyişikliklər edir, məqsədəuyğun olaraq məzmunu müəyyən edir.

Hər bir dərsin  məqsədləri, onun məzmunu müəyyənləşdirilərkən sinifdəki şagirdlərin dərketmə imkanları nəzərə alınmalıdır. Dərsin məqsəd və məzmunu şagirdlərin dərketmə imkanlarına nə qədər uyğun olarsa, təlimin nəticəsi də bir o qədər uğurlu olacaq, qarşıya qoyulan məqsəd reallaşdırılacaq, sinfin zəif, orta və qüvvəli şagirdləri yeni materialın məzmununu asanlıqla dərk edəcəklər. Təlimin düzgün müəyyən edilmiş, məqsədəuyğun təşkil edildiyi şəraitdə fənnin məzmunu dərsdən-dərsə şagirdlərin dərketmə imkanlarını inkişaf etdirir.

Şagirdlərin dərketmə imkanları təkcə dərsin və məzmunun müəyyənləşməsinə təsir  göstərmir. Məlumdur  ki, növbəti dərsin məzmunu işlənib hazırlanarkən müəllim onun öyrədilmə və öyrədilməsi metodlarını da müəyyənləşdirir. Müəllimin öyrətmə, şagirdin öyrənmə üsulları məktəblilərin dərketmə imkanlarına müvafiq olaraq seçilir. Deməli, şagirdlərin dərketmə imkanları təlimin komponenti ilə sıx bağlıdır. Təlimin nəticəsi dərsin reallaşdırılmış məqsədləri kimi başa

düşülür. O, dərsin sonunda şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnməsi, habelə tərbiyə edilməsi sahəsində müəllimin nailiyyətlərini göstərir.

Hər bir dərsin məzmununun məqsədəuyğun istiqamətdə işlənilməsinə nail olmaq üçün müəllim məktəbdə tarix təhsilinin məzmununun ümumi mənzərəsi ilə tanış olmalıdır. Məktəb tarix kursunun məzmununu təşkil edən tarix materialları iki əsas qrupa bölünür:

1. Faktik material.
2. Nəzəri material.

Bunlar biri-biri ilə sıx, dialektik əlaqədədir: faktlar olmadan nəzəri materialın başa düşülməsi, mənimsənilməsi mümkün deyildir. Təkcə onu qeyd etmək kifayətdir ki, nəzəri material əsasında tarixi faktlar qruplaşdırılmasaydı, şagirdlərin tarixi bilikləri dərk olunmamış, emosionallığına, cazibədarlığına və s. cəhətlərinə görə yadda qalmış faktlar yığınından ibarət olardı.

Tarix təhsilinin məzmunundakı faktlar iki qrupa bölünür.

1. Əsas faktlar.
2. Qeyri-əsas faktlar.

Əsas tarixi faktlar məktəblinin tarixi biliklərinin bünövrəsini təşkil edir. Təlimdə əsas tarixi faktların yerini, bunlarla iş üsullarını düzgün müəyyənləşdirmək üçün onları da iki qrupa bölürlər.

1. Fakt- hadisə.
2. Fakt- təzahür.

Bu və ya digər xalqın, ölkənin tarixində konkret yerdə baş vermiş təkrar olunmayan faktlar metodik ədəbiyyatda hadisə adlandırılır. Məsələn, Babəkin başçılığı ilə xalqın azadlıq hərəkatı, Bakıda 1904-cü il dekabr tətili.

Tarix kurslarının məzmunundakı bəzi faktlar isə müxtəlif xalqların, ölkələrin tarixində təkrarlanırlar. Bunlar tipik faktlar hesab olunur və metodik ədəbiyyatda təzahürlər adlanırlar. Məsələn, ibtidai insanların od əldə etməsi, qul alveri, feodal malikanəsində və s.

Tarixi-coğrafiya, xronologiya, statistika və s. materiallar qeyri-əsas faktlar qrupuna aid edilir. Bu faktlar da təhsil-tərbiyə və inkişaf cəhətdən mühüm əhəmiyyətə malikdir.

**Tarix kurslarındakı nəzəri materiallar isə dörd qrupa bölünür:**

1) müxtəlif ümumiləşdirmə dərəcəsinə malik anlayışlar;
2) mühüm səbəb-nəticə əlaqələri;
3) ictimai inkişafın qanunauyğunluqları;
4) nəzəri nəticələr.

Nəzəri materialların bu elementləri, qrupları arasında sıx əlaqə vardır. Tarixi anlayışların formalaşmasına nail olmadan hər hansı tarixi prosesi təşkil edən hadisə və təzahürlər arasındakı səbəb-nəticə əlaqələrini aşkara çıxarmaq, aydınlaşdırmaq mümkün deyildir. Səbəb-nəticə əlaqələrinin başa düşülməsi hadisə, təzahür və proseslərin qanunauyğunluğunun mənimsənilməsinə kömək edir. Qanunauyğunluqların mənimsənilməsi ilə nəzəri nəticələrin başa düşülməsini, tarixi faktların qiymətləndirilməsində, mühüm əlaqələrin, səbəblərin, nəticələrin səciyyələndirilməsində şagirdlərin fəal iştirakını təmin edir.

Təlim məqsədlərinin kompleks şəkildə yerinə yetirilməsi üçün nəzəri material elə işlənilməlidir ki, müxtəlif inkişaf səviyyəsinə malik şagirdlər onu dəqiq, aydın tarixi anlayışlar, qanunlar və dünyagörüşü ideyaları şəklində mənimsəyə bilsinlər.

Bu zaman müəllim sinifdə şagirdlərin dərketmə imkanlarını nəzərə almalıdır. Şagirdlərin dərketmə imkanları təlim prosesinin mühüm komponentlərindən biridir. Hər hansı təlim materialının öyrədilməsi sahəsində müəllimin gördüyü işin nəticəsi şagirdlərin dərketmə imkanlarının nəzərə alınıb-alınmamasından asılıdır.

Şagirdlərin dərketmə imkanları bir tərəfdən məktəblinin yaş dövründən asılıdırsa, digər tərəfdən şagirdlərdə tarixi biliklərin, tarixi təfəkkürün, öyrənmə üsullarının və tarixi biliklərlə əməliyyat aparmaq bacarığının inkişaf səviyyəsi ilə müəyyən olunur. Şagirdlərin dərketmə imkanları nə qədər yüksəkdirsə, təlim bir o qədər səmərəli olur. Təlimin təşkili formaları, müəllimin öyrətmə, şagirdlərin isə öyrənmə üsul və vasitələri təlimin məqsədinə, məzmununa və şagirdlərin

dərketmə imkanlarına uyğun olaraq seçilir. Bu uyğunluq nə qədər çox olarsa, təlimin nəticəsi də bir o qədər uğurlu olar. Təlimin nəticəsi dərsin reallaşdırılmış məqsədləri kimi başa düşülür. O dərsin sonunda şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnmək sahəsində müəllimin nailiyyətlərini göstərir.

## 2.2. Azərbaycan tarixi təliminin təşkilində istifadə olunan forma və üsullar barədə

Müasir dövrdə müəllimin qarşısında duran əsas problemlərdən biri şagird marağı nəzərə alınmaqla təlim prosesinin təşkilidir. Dərsin məzmunu ilə onun metodikası arasındakı qarşılıqlı təsiri aydın başa düşmədən yüksək keyfiyyətli dərslər qurmaq mümkün deyildir. Metodik ədəbiyyatda bir müddət belə bir fikir də yayılmışdır ki, «dərsin məzmunu onun metodikasını müəyyən edir». Məsələyə belə bir yanaşma isə təlimdə şablonçuluğun yaranmasına gətirib çıxarır. Əgər metodika, həqiqətən də avtomatik olaraq dərsin məzmunu ilə müəyyən edilərsə, onda o, bütün məktəblərin bütün siniflərində eyni olmalıdır və bu da dərsin əsas məzmununun dəyişməsinə kimi dəyişməz qalır. Digər tərəfdən, belə bir yanaşma tarixin metodikasını pedaqoji elm kimi inkar edir, onu tarixin məzmunundan irəli gələn yekrəngliyə çevirir.

Düzdür, dərsin məzmunu onun metodikası üçün əsasdır. Məsələn, hərbi yürüşləri, döyüşləri öyrənərkən xəritə və sxemlərdən istifadə etmədən ötüşmək olmaz, qeyd edilən məsələlərin obrazlı, emosional təsviri üçün bədii əsərlərdən nümunələr gətirilməlidir və s. Lakin bu əsərlər, sxem və xəritələr, cədvəllər, eləcə də onlarla işin məqsədləri, müəllimin tətbiq etdiyi üsullar müxtəlif ola bilər.

Yuxarıda deyilənlərdən isə belə bir nəticəyə gəlmək olar ki, məzmun dərsin metodikasını heç də tam müəyyən etmir. Təlimdə bu və ya digər metodikadan istifadə edilməsinin müəyyənləşdirilməsi bir sıra amillərlə–dərsin məqsədləri, şagird və müəllimlərin təcrübə səviyyəsi, vaxt məsələsi, şagirdlərin imkanları, müəllimin şəxsiyyəti, metodikanın inkişaf səviyyəsi və s. ilə bağlıdır. Şagirdi tanımaqla, dərsin məqsədlərini aydın təsəvvür etməklə, digər faktların bütün

məzmununu nəzərə almaqla dərsin metodikasını məqsədəuyğun müəyyən etmək olar.

Təlim meydana gəldiyi ilk gündən müasir zamanadək formalaşmış, təsdiqini tapmış və geniş yayılmış işin ümumi forması kimi mövcuddur. Əyanilik üçün həmin formaları sxem şəklində veririk:




***Passiv metod***




***Fəal metod***




***İnteraktiv metod***

Müəllim üçün əhəmiyyətini nəzərə alaraq fəal və interaktiv təlim metodlarının məzmununun açıqlanmasını məqsədəmüvafiq hesab edirilir.

## 1. FƏAL METOD

Bu metod müəllim və şagirdlərin qarşılıqlı fəaliyyətinə əsaslanır. Dərsin gedişində müəllim və şagirdlər biri-birləri ilə qarşılıqlı əlaqədə birgə fəaliyyət göstərirlər. Burada şagird passiv dinləyici deyil, dərsin fəal iştirakçısıdır. Əgər passiv dərsdə aparıcı sima və dərsin meneceri müəllimdirsə, fəal dərsdə müəllim və şagirdlər bərabərhüquqlu tərəfdaşlardır. Passiv metod qarşılıqlı əlaqələrin avtoritar stilinə əsaslanırsa, fəal dərsdə demokratik əhval-ruhiyyə hökm sürür. Çoxları fəal və interaktiv təlim metodları arasında heç bir fərq görmür, onları eyni metod hesab edirlər. Lakin onlar arasında müəyyən fərq vardır. İnteraktiv metoda təlimin daha müasir metodu kimi yanaşmaq lazımdır.

## 2. İNTERAKTİV METOD

“İnteraktiv” latın sözü olub, «qarşılıqlı fəaliyyət», «qarşılıqlı əlaqəyə əsaslanan» mənasını verir. İnteraktiv metod fəal təlimdən fərqli olaraq, təlim prosesində təkcə müəllimlə şagird arasında deyil, habelə şagirdlərin özləri arasında dominant rolunu oynayır. İnteraktiv dərslərdə müəllimin rolu şagirdlərin fəaliyyətini dərsin məqsədlərinin həyata keçirilməsinə istiqamətləndirməkdən ibarətdir. Burada müəllim fasilitator, şagird tədqiqatşı rolunda olur. Problem-situasiyanın yaradılmasından sonra tədqiqata cəlb olunmuş şagirdlər mənbələri tənqidi cəhətdən qiymətləndirir, nəticələr çıxarmağı və onları əsaslandırmağı, müqayisələr aparmağı, mövqeyini müdafiə etməyi bacarır. Şagirdlərin yerinə yetirdiyi interaktiv tapşırıq və çalışmalar isə dərsin əsasını təşkil edir.

Dünya təcrübəsi göstərir ki, fəal (interaktiv) təlim metodu dərsin keyfiyyətini artırmağın güclü vasitəsi ola bilər. Bu metod dərsi şagirdlər üçün daha maraqlı və cəlbedici edir. Fəal təlim həm məzmunun öyrənilməsini, həm də

tətbiqin səmərəliliyini artırır və şagirdlərin dərketmə fəaliyyətini daha da fəallaşdırır.

Standartlar nəticəyönümlü və şagirdyönümlü olduğundan onların reallaşdırılmasında fəal təlim metodlarından istifadə edilməsi qaçılmazdır. Çünki fəal təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur.

Fəal təlim müasir şəraitdə pedaqoji prosesin qurulmasına yeni yanaşmadır. Belə yanaşma tərzində təlim şagirdlərin təkcə yaddaşının yeni elmi biliklərlə zənginləşməsinə deyil, həm də təfəkkürün inkişaf etdirilməsinə, ən mühüm bacarıq və vərdişlərin əldə olunmasına yönəldilir. Bu zaman şagirdlər açıq sual vermək, problemləri araşdırmaq, tədqiqat aparmaq və müzakirə etmək imkanı qazanırlar. Onlar təlim materiallarının mənimsənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, ümumləşdirmələr aparmağı öyrənirlər.

Beləliklə, şagirdlər həm tədris, həm də sosial xarakterli problemlərin müstəqil həllinə cəlb olunur, müxtəlif informasiya mənbələrindən istifadə edir, sistematik olaraq müstəqil şəkildə bilik ehtiyatını artırırlar.

**Fəal-interaktiv təlim metodlarının xarakterik xüsusiyyətləri:**

1. Diqqət, ilk növbədə, şagird şəxsiyyətinin formalaşdırılmasına yönəldilir.
2. Müəllim təlim fəaliyyətinin əlaqələndiricisi, şagirdlərin məsləhətçisi və köməkçisi kimi çıxış edir.
3. Problemin həlli prosesində şagirdlər fəal tədqiqatçı olur.
4. Bilik və bacarıqlar şagirdlər tərəfindən müstəqil əldə edilir.
5. Müəllim-şagird, şagird-şagid arasında əməkdaşlıq üçün şərait yaranır
6. Dərsin inteqrativ təşkilinə üstünlük verilir.
7. Qeyri-standart dərslərin təşkilinə geniş yer verilir.

**Fəal-interaktiv dərsin ümumi quruluşu:**

**Dərsin I mərhələsi: Motivasiya, problemin qoyulması.**

Hər bir tədqiqatı başlamaq üçün ilk növbədə problem müəyyənləşdirilməlidir. Əsl problem isə həmişə çoxsaylı fərziyyələr, ehtimallar doğurur və bunları yoxlamaq üçün ilk növbədə tədqiqat sualı formalaşdırılmalıdır. Məhz tədqiqat sualı yeni biliklərin kəşfinə aparır, bələdçi rolunu oynayır.

Nəzərə almaq lazımdır ki, psixoloji amil kimi motivasiya hər hansı fəaliyyət mexanizmini işə salan sövqedici qüvvədir. Motivasiya qismində ortaya gətirilmiş problem və onun həlli tələbatı fəal dərsdə təfəkkür prosesini işləməyə sövq edən və şagirdlərin idrak fəallığını artıran amil kimi çıxış edir.

- motivasiyanın uğurlu alınması;
- nması üçün aşağıdakı şərtlərə əməl olunması tövsiyə edilir;
- motivasiya üçün seçilən material maraqlı olmalı;
- fərziyyələri yoxlamaq, tədqiqat aparmaq və yaradıcılıq üçün imkan verməli;
- müəllim şagirdlərə yönəldici suallar verməli, fərziyyələri irəli sürərkən onları həvəsləndirməli;
- tədqiqat sualı təlim standartlarına əsasən müəyyənləşdirilməli və dərsin məqsədinə yönəldilməlidir.

**Dərsin II mərhələsi: Tədqiqatın aparılması:**

Problemin həlli üzrə irəli sürülən fərziyyələri təsdiq və ya təkzib edən, habelə qoyulan tədqiqat sualını cavab verməyə kömək edə biləcək faktları tapmaq zərurəti ortaya çıxır. İrəli sürülmüş problemin həllinə şagirdləri məqsədyönlü şəkildə aparan, özündə yeni informasiyanı və yeni sualları daşıyan müxtəlif çalışmalar buna kömək etməlidir. Məhz yeni faktların öyrənilməsi və bu suallara cavabların tapılması şagirdlərdə düşünmək və yeni bilikləri kəşf etmək üçün münasib şərait yaradır.

Tədqiqat müxtəlif formalarda: bütün siniflə birgə, kiçik qruplarda, cütlər şəklində və fərdi şəkildə aparıla bilər. Tədqiqatın nəticələri aşağıdakı təqdimat formasında ümumiləşdirilməlidir.

- esselər, sxemlər, cədvəllər, qrafiklər;
- illüstrasiyalar, xəritə və kontur xəritələr;
- maketlər, modellər, rəmzlər;
- layihələr, referatlar, krossvordlar və s.

**Dərsin III mərhələsi: Məlumatın mübadiləsi.**

Bu mərhələdə iştirakçılar tədqiqatın gedişində əldə etdikləri informasiyaların mübadiləsini aparırlar. Qoyulmuş suallara cavab tapmaq zərurəti tədqiqatın bütün iştiirakçılarını biri-birinin təqdimatını diqqətli dinləməyə sövq edir. Məhz bu mərhələdə yeni bir tələbat – yeni bilikləri qaydaya salmaq, sistemləşdirmək, müəyyən bir nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti yaranır.

**Dərsin IV mərhələsi: Məlumatın müzakirəsi və təşkili.**

Bu, ən mürəkkəb mərhələdir və bütün bilik, bacarıq və vərdişlərin, təfəkkürün müxtəlif növlərinin (məntiqi, tənqidi, yaradıcı) səfərbərliyini tələb edir. Milli fasilitasiya əsasında (yönəldici, köməkçi suallardan istifadə etməklə) əldə edilmiş faktların məqsədyönlü müzakirəsinə və onların təşkilinə kömək edir. İnformasiyaların təşkili bütün faktlar əsasında əlaqələrin aşkara çıxarılmasına və onların sistemləşdirilməsinə yönəldilir. Nəticədə mövcud tədqiqat sualına cavabın cizgiləri aydın seçilməyə başlayır. Məlumat sxem, qrafik, cədvəl, təsnifat formasında təşkil oluna bilər.

**Dərsin V mərhələsi: Nəticə, ümumiləşdirmə.**

Beləliklə, yeni bilginin kəşfi yolunda son addımı atmaq: konkret nəticəyə gəlmək və ümumiləşdirməni aparmaq işi qalır. Bunun üçün şagird  əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı ilə irəli sürülmüş fərziyylələrlə müstəqil olaraq tutuşdurmalıdır. Bu çox mühüm məqamdır. Dərsin

kulminasiyasını isə bilgiləri özləri kəşf etdikləri üçün şagirdlərin duyduqları bənzərsiz sevinc və məmnuniyyət hissi təşkil edir.

**Dərsin VI mərhələsi: Yaradıcı tətbiqetmə və ya ev tapşırığı**

Bilgilərin mənimsənilməsinin başlıca meyarı onun yaradıcı surətdə tətbiqidir. Yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir, onun praktiki əhəmiyyətini şagirdə açıb göstərir. Buna görə müəllim imkan daxilində şagirdlərə təklif edə bilər ki, onlar müəyyən məsələlərin həlli üçün, yaxud hansısa yeni suala cavab tapmaq üçün qazanılmış bilikləri tətbiq etməyə çalışsın. Son nəticədə yaxşı olar ki, şagirdlərə, onların kəşf etdikləri bilgilərin yaradıcı surətdə tətbiqinə dair çalışmalar versin ki, həmin bilgilər həmişəlik onların şüuruna həkk olunsun. Bu mərhələ vaxt etibarı ilə yalnız bir akademik dərslə məhdudlaşdırılmaya da bilər, onun həyata keçirilməsi sonrakı dərslərdə də mümkündür.

**Dərsin VII mərhələsi: Qiymətləndirmə və refleksiya.**

Qiymətləndirmə istənilən prosesin təkmilləşdirilməsini təmin edən bir prosesdir. Şagirdlərin təlim fəaliyyətini qiymətləndirmə və refleksiya prosesləri onların öz qüsurlarını və öz nailiyyətlərini aşkar etməyə, uğur qazanmalarına nələrin mane olduğunu və nələrin kömək etdiyini müəyyənləşdirməyə xidmət etməlidir.

Buna görə, dərs başa çatdıqdan sonra yerinə yetirilmiş prosedurlardan birini qiymətləndirmək və refleksiyanı həyata keçirmək məqsədəuyğun olardı. Bəzən qiymətləndirmə və refleksiyanı dərsin müxtəlif mərhələlərinə daxil etmək olar, bunun özü də təlim prosesinin daha uğurla keçməsinə kömək edər.

Şagirdlərin işinin səmərəlilik dərəcəsi həm kəmiyyət və həm də keyfiyyətcə qiymətləndirilə bilər. Bu, müxtəlif üsullarla və müxtəlif formada həyata keçirilir. Lakin müəllim yadda saxlamalıdır ki, qiymətləndirmə ilk növbədə şagird üçün özünüqiymətləndirmə və özününəzarət vasitəsi rolunu oynamalıdır.

## Azərbaycan tarixi fənn kurikulumun tədrisində iş formalarının tətbiqi:

İş formaları dedikdə kollektiv, qruplarla, cütlərlə və fərdi işlər nəzərdə tutulur. Fəal təlimdə ən çox cütlərlə və qruplarla işə yer ayrılmasına baxmayaraq kollektiv və fərdi işin reallaşdırılması da təlim prosesində zəruridir.

**Kollektiv iş:** bu forma şagirdlərin kolektivdə işləməsinə imkan yaradaraq onların düşüncə tərzinin formalaşmasına, kollektivlə birlikdə qərarlar qəbul edilməsinə, sinifin əməkdaşlığı nəticəsində yaranmış müxtəlif fərziyələrdən düzgün nəticə çıxarılmasına xidmət edir. Azərbaycan tarixi fənn kurikulumunun tədisində ən səmərəli formalardan biri də kollektivlə işdir ki, şagirdlər dərsin motivasiya mərhələsində problemin həlli üçün birgəfəaliyyət göstərir.

**Fərdi iş:** Bu iş forması şagirdlərin fərdi potensial imkanlarını üzə çıxarmaq üçün ən səmərəli iş formalarından biridir. Şagird fərdi olaraq tədqiqata cəlb olunur. O, öz imkanlarını göstərməkdən ötəri sərbəst düşünərək, sərbəst qərarlar verməyə çalışır. Bu iş formasının tətbiqi mütəmadi olaraq aparılarsa şagirdə fərdi keyfiyyətlər aşkarlanır və formalaşır.

**Qruplar və cütlərlə iş:** Təlim prosesinin səmərəliliyi şagirdlərin fərdi və kollektiv fəaliyyətinin üzvi şəkildə uyğunlaşdırılmasından əhəmiyyətli dərəcədə asılıdır. Bu mənada təlimin qrup forması daha geniş imkanlara malikdir. İlk dərslərdə qarşıya şagirdlərin təhlil, tarixi fakt və hadisələri müqayisə etmək və aydınlaşdırmaq bacarıqları sahəsindəki boşluğu doldurmaq vəzifəsi çıxır. Bu məqsədlə də şagirdlər dərsliyin mətni və müvafiq sənədlərlə müstəqil işləyir, abzaslara sərlövhələr verir, mətnə dair suallar hazırlayır, plan, cədvəl və sxem tərtib edir, bu və ya digər tarixi təzahürü müxtəlif mənbələr əsasında müqayisə edirlər.

Beləliklə, şagirdlər müxtəlif mənbələrlə işi cütlərlə daimi tərkibdə davam etdirərək birgə fəaliyyət vərdişləri əldə edirlər. Daimi cütlərlə iş dərsin müxtəlif mərhələlərində (sorğu, ev tapşırıqlarının yoxlanılması, yeni materialın öyrədilməsi və möhkəmləndirilməsi) bütün dərs boyu təşkil olunur. Məsələn, IX sinifdə «Qarabağ, Quba və Şəki xanlıqlarının siyasi quruluşu və daxili siyasəti»

mövzusunun tədrisi zamanı interaktiv təlimin bu iş formasını tətbiq etmək mümkündür. Dərsin başlanğıc hissəsində müəllim Qarabağ, Quba və Şəki xanlıqlarının siyasi quruluşu və daxili siyasətinin səciyyəvi cəhətlərini izah edir. Sonra isə hər bir cütlüyə müxtəlif variantlarda tapşırıqlar yazılmış vərəqlər paylanır.

Dərsliyin mətninə, Qarabağ, Quba və Şəki xanlıqlarına dair əlavə mənbələrə istinad edərək XVIII əsrin ikinci yarısında hər bir xanlığın siyasi quruluşunu və daxili siyasətinin səciyyəvi xüsusiyyətlərini aşağıdakı plan əsasında müəyyənləşdirin:

1. Dövlət quruluşu.
2. Hakimiyyətdə təmsil olunmuş sosial qrup və təbəqələrin nümayəndələri.
3. Sosial qrup və təbəqələr arasında münasibətlər.
4. Görkəmli dövlət xadimləri və onların fəaliyyətlərinin səciyyələndirilməsi.
5. Ən mühüm islahatlar (tədbilər), onların xarakteri və əhəmiyyəti.

Bu zaman sinif otağının quruluşuna uyğun olaraq müəllim birinci sırada əyləşmiş cütlərə Qarabağ, ikinci sıradakı cütlərə Quba, üçüncü sıradakı cütlərə isə Şəki xanlığı ilə bağlı tapşırıq variantları (A, B, C) paylayır və onlara həmin suallara cavab hazırlamağı tapşırır.

Şagirdlər cüt-cüt işləyərək verilmiş tapşırığın yerinə yetirilməsində biri-birlərinə kömək edir, öz işlərinin nəticələri barədə fikir mübadiləsi aparırlar. Sonra isə hər bir cərgədəki cütlər qarşılıqlı yoxlamalar keçirir, öz nöqteyi-nəzərlərini müqayisə edir və əlaqələndirirlər. Nəticədə müəllim kollektiv işin bu formasından istifadə edərək sinfin bütün şagirdlərinin dərsin başlıca məqsədinin həyata keçirilməsində fəal iştiraklarını təmin etmiş olur.

Azərbaycan tarixi dərslərində cütlərlə iş birtərəfli və ikitərəfli xarakter daşıya bilər. Birtərəfli iş onunla səciyyəvidir ki, bir tərəf rəhbərlik edir, kömək göstərir, digər tərəf icraçı rolunu oynayır, köməyi qəbul edir. İkitərəfli iş prosesində vəzifələr bərabər əsaslarla bölünür. Fəaliyyətin müxtəlif növlərində

rəhbərlik və tabeçilik funksiyaları növbələşir. Cütdə birləşən uşaqların inkişaf səviyyəsi təxminən bərabər olmalıdır ki, fəaliyyətinin məqsədinin yerinə yetirilməsində bir-birini başa düşsünlər, əməkdaşlığa nail olsunlar, qarşılıqlı olaraq öz məsuliyyətlərini dərk etsinlər.

Cütlərlə iş zamanı kollektiv əməkdaşlıq vərdişlərinə yiyələnmiş şagirdlərlə interaktiv təlimin nisbətən daha mürəkkəb forması olan qruplarla işə keçmək olar. Qrup işinin müvəffəqiyyəti hər şeydən əvvəl, qrupun tərkibi ilə bağlıdır. Qrup öz tərkibinə görə güclü və ya zəif şagirdlərdən ibarət ola bilər. Bu zaman müəllim tapşırığı səviyyəyə əsasən verir. Təcrübə göstərir ki, qrup həm güclü, həm də orta səviyyəli, həm də zəif şagirdlərdən ibarət olduqda daha yaxşı nəticə verir.

Tədris olunan mövzunun xarakterindən asılı olaraq sinif qruplara bölünür. Məqsəddən asılı olaraq hər qrupda 3 nəfər, ən çoxu 6 nəfər ola bilər. Təsadüfi qruplaşmalardan da istifadə mümkündür. Birdən beşədək hər bir rəqəm 6 kartoçkaya yazılır, kartoçkalar qarışdırılıb üzü aşağı stolun üstünə qoyulur. Şagirdlərin hərəsi bir kartoçka götürür. Kartoçka nömrələri eyni olan şagirdlər bir qrupda birləşirlər. Hər qrup dəyirmi stol arxasında əyləşir və özü lider seçir.

VI sinifdə Azərbaycan tarixi dərsində «Azərbaycan ərazisində ən qədim insan məskənləri» mövzusunu tədris edərkən qruplara aşağıdakı tapşırıq verilir: qruplardan biri dünyanın və Azərbaycanın siyasi xəritəsində ən qədim insanların yaşadıqları yerləri müəyyənləşdirməklə məşğul olur. İkinci qrup onlara təqdim olunmuş insan tiplərini, ən qədim insanların maddi qalıqlarını əks etdirən şəkilləri fərqləndirir və təsnif edir. Üçüncü qrup Azərbaycan ərazisində yaşamış ən qədim insanların yaşadıqları məskənlərdən birinin (Azıx, Tağlar, Damcılı) təsvirini hazırlayır. Dördüncü qrup dərsliyin mətnindən çətin anlaşılan sözləri seçir və onların izahını verir, zaman oxunda ən mühüm hadisələri yerləşdirir. Beşinci qrupun tapşırığı isə daha qeyri-adidir: plastilindən ən qədim insanların obrazlarını və kollektiv yaşayış səhnəsini əks etdirən illüstrasiya hazırlayır. Altıncı qrup «Qədim ovçuların bir günü» mövzusunda kiçik həcmli esse yazır.

Qruplarda iş zamanı şagirdlər yarışdıqları üçün hər biri ən zəifi, ən utancağı da fəallıq göstərir. Qrupun hər bir üzvü bacarığını meydana çıxarmağa, qrupunun qələbəsini təmin etməyə çalışır.

Cütlərlə iş zamanı şagirdlər dərs prosesində iki-iki işləyib, təlim tapşırıqlarının yerinə yetirilməsində birgə fəaliyyət göstərirlər. Bu onlara bir-birini daha yaxşi başa düşməyə, əməkdaşlıq etməyə, məsuliyyətlərini dərk etməyə imkan yaradır.

Bir sıra hallarda şagirdlər kiçik qruplarda birləşir və hər hansı problemi həll etmək üçün birgə fəaliyyətə cəlb olunurlar. Qrup işi şagirdlərə öz fikirlərini qiymətləndirməyə imkan yaradır. Bundan əlavə eyni bir məsələ ilə bağlı müxtəlif baxış və yanaşmalarin olması barədə təsəvvürə yiyələnirlər.

Fəal təlim zamanı istifadə olunan üsullar təlim strategiyalarının qurulmasında və təhsilin həyata keçirilməsində əhəmiyyətli yer tutur. Pedoqoji ədəbiyyatda onların müxtəlif növlərinin olduğu göstərilir. Məsələn, beyin həmləsi, öz mövqeyində dayan, diskussiya, oyun fəaliyyətli dərslər, layihə hazırlığı, anket sorğusu vərəqələri və müşahidə, mühazirə, müzakirə və s.

Tarix dərslərində interaktiv metoddan istifadə edilməsi prosesində müəllimlərə kömək məqsədilə bir sıra nümunələrin verilməsini müvafiq hesab edirik.

**Azərbaycan tarixi fənn kurikulumunun tətbiqində istifadə olunan üsullar:**

**1. Xəritələrlə iş**

Tarixi məlumatın şagirdlərin yaddaşında möhkəmləndirilməsində mühüm vasitələrdən biri də xəritələrlə işdir. Xəritələrlə iş mühüm hadisələri məkanla (hadisə yeri ilə), həmçinin müasir dövrlə əlaqələndirməyə imkan verir.

Şagirdlərə müxtəlif mürəkkəblik səviyyəsi olan tapşırıqlar verilir:

1. Xəritədə dünyanın hansı hissəsi təsvir olunur?
2. Öyrənilən ölkənin ən şimal, cənub, şərq və qərb nöqtələrini

müəyyənləşdirin.

3. Xəritə üzrə öyrənilən ölkənin və ya yerin təbii şəraitini təsvir edin.
4. Ərazinin təbii şəraitinə əsasən buranın yerli əhalisi üçün hansı fəaliyyət növü daha sərfəli olardı?
5. Mühüm ticarət yollarının, hərbi yürüşlərin, dəniz ekspedisiyalarının və s. marşrutların hansı ölkələrdən keçdiyini xəritədə müəyyən edin.
6. Problemin həlli üçün xəritələrin müqayisəli təhlilindən istifadə edin.
7. Müqayisədə öz mövqeyinizi xəritənin köməyi ilə əsaslandırın.
8. Göstərilən ərazidə hansı müasir ölkələrin yerləşdiyini müəyyənləşdirin.

Bu prosesdə fəallıq növləri: qruplarda xəritə üzrə fikir mübadiləsi, xəritə haqqında rəy, kontur xəritələrlə iş, xəritənin yaradılması (əgər proqramda xəritə yoxdursa) və s. ibarətdir.

**2. «Zaman oxu» ilə iş**

«Zaman oxu» ilə işin təşkili tarix fənninin şagirdlərə öyrədilməsində ən əhəmiyyətli məsələlərdən biridir. Şagirdlərə müxtəlif mürəkkəblik səviyyəsi olan tapşırıqlar verilir:

1. «Zaman oxu»nda hansı tarixlər qeyd olunub?
2. Niyə görə orada məhz bu tarixlər göstərilib?
3. Bu tarixlərdən hansı ən ilkindir (sonuncudur)?
4. Ən ilkin (son) tarixdən bu günə kimi neçə il keçib?
5. Zaman oxunda göstərilən bir hadisə ilə digəri arasında neçə il ötüb?
6. «Zaman oxu»nda bir neçə hadisədən hansı ən tez (və ya gec) baş verib.

Dərslikdə yoxdursa «Zaman oxu»nun ilk mənbələr, ədəbiyyat, xəritələr və digər sənədlərdən götürülmüş tarixlər hesabına tərtib edilməsi və onunla işin təşkili vacib məsələlərdən biridir.

**«İşgüzar hay-küy» nə üçün lazımdır**

Müəllimin uzunmüddətli çıxışından sonra dərsin tempini dəyişmək üçün «ümumi hay-küy» məsləhət görülür. Bu üsül şagirdlərə iki-üç nəfərlik qruplarda söhbət aparmaq imkanı verir.

Şagirdlərə bildirilir ki, onların indicə eşitdikləri və ya gördükləri haqda fikirlərini söyləmək üçün beş dəqiqə vaxtları var. Onlar hansı hisslər keçirdiklərini, nə düşündüklərini söyləyə, başa düşmədiklərini isə biri-birindən soruşa bilirlər. Bundan sonra qrup və ya cütlüklərdən fikirlərini bütün siniflə bölüşməyi və ya suallar verməyi xahiş etmək olar. Bu fəaliyyət iştirakçıları eyni zamanda fəal işə qoşmağın ən səmərəli modelidir.

İştirakçılar üçün stullar iki dairəvi cərgədə düzülür. Daxili cərgədə - şagirdlər arxaları dairənin mərkəzinə doğru otururlar. Kənar cərgədə - şagirdlər üzləri dairənin mərkəzinə doğru yerləşir. Müəllimin işarəsi ilə kənar cərgənin bütün şagirdləri sağdakı stula keçir və qarşılarında yeni rəqib olur. Şagirdlər cütlüklərdə eyni zamanda diskussiya aparırlar. Onlar yeni rəqiblə qarşılaşmaqla yeni-yeni dəlillər eşidirlər, deməli yeni cavablar axtarmalı olurlar. Dövrə sona çatana kimi şagirdlərin dəlillər sistemi, bir qayda olaraq «itilənir», eləcə də onlar müxtəlif tərəfdaşlarla ünsiyyət təcrübəsi qazanmış olurlar.

### 3. Debat "Müzakirə" dərs modeli

İki rəqib komanda iştirak edir-dəqiq müəyyənləşdirilmiş tezis, məsələn: "Gələcəkdə Azərbaycanın çiçəklənməsi labüddür" və ya "Azərbaycan neftin çıxarılmasından zərər görmüş və gələcəkdə də yalnız zərər görəcəkdir" tezislərindən birini təsdiq edən və inkar edən tərəflər.

Hər komandadan üç spiker çıxış edir: təsdiq edən tərəfdən T1, T2, T3 spikerlərin hər biri öz tezisinin müddəalarını müdafiə və təsdiq etməlidir; inkar edən tərəfdən isə İ1, İ2, İ3 spikerləri həmin tezisi inkar etməlidir.

Debatda çıxışların ardıcıllığı və vaxt cədvəli:0000

| **Spiker** | **Vaxt** | **Rol** |
|---|---|---|
| T1 | 3 dəq | Tezisi izah edir, təsdiq edən tərəfin dəlillərini təqdim edir |
| İ3-T1-ə | 2 dəq | İ3 dəlillərin əhəmiyyətini azaltmaq üçün T1-ə sual verir. T1 cavab verir. |
| İ1 | 3 dəq | Bütün mümkün dəlilləri irəli sürür. |
| T3-İ1-ə | 2 dəq | T3 İ1-ə onun dəlillərinin əhəmiyyətini azaldan suallar verir. İ1 cavab verir. |

| | | |
|---|---|---|
| T2 | 2 dəq | İ1-in dəlillərini rədd edir, sübutlar gətirir, təsdiqedici xətti gücləndirir. |
| İ1-T2-yə | 2 dəq | İ1-T2-yə çarpaz suallar verir, T2 cavab verir |
| İ2 | 2 dəq | T1 və T2-nin dəlillərini inkar edir, inkar edən xətti gücləndirir. |
| T1-İ2-yə | 2 dəq | T1 İ2-yə sual verir. İ2 cavab verir. |
| T3 | 3 dəq | Rəqiblərinə son cavabını təqdim edir: onların dəlillərini inkar edir və təsdiqedici xəttin sübutlarını gücləndirir. |
| İ3 | 3 dəq | Rəqiblərinə son cavabını təqdim edir: onların dəlillərini inkar edir və təsdiqedici xəttin sübutlarını gücləndirir. |

Debatlarda şagirdlərdən bir nəfər taym-kiper(vaxt ölçən) rolunu ifa edir. O, vaxta nəzarət edir və vaxtın sonuna yarım dəqiqə qalmış, üstündə “30 saniyə” yazılmış vərəqə və ya lövhəni qaldırır. Sinfin qalan şagirdləri debatlarin gedişini müşahidə edir və tərəflərin dəlillərini aşağıdakı cədvəldə qeyd edir:

| **Təsdiqedici tərəfin dəlilləri** | **İnkaredici tərəfin dəlilləri** |
|---|---|
| | |

Debatların sonunda dəlillərin inandırıcılığı, spikerlərin mübahisə aparmaq qabiliyyətləri müzakirə edilir və nəticədə qələbə tərəflərdən birinə verilir. Debat formasında dərs üçün münsiflər heyətinin əvvəlcədən seçilməsi məqsədəuyğundur. Münsiflər heyəti komandaların iştirakçılarını qiymətləndirir və debatların nəticələrini yekunlaşdırır.

**4. Mənbələrin öyrənilməsi üzrə dərslər**

Mənbələrin öyrənilməsi və onlar əsasında tarixi hadisənin müəyyənləşdirilməsi olduqca vacib əhəmiyyətə malikdir. Mənbələrin öyrənilməsi üzrə dərs müxtəlif bilik mənbələri ilə işi təşkil etməyə, şagirdlərə tarixi faktların təhlili, təsnifatı və sistemləşdirilməsi üsullarını, onların ümumiləşdirilməsini və öz mövqeyinin əsaslandırılmasını öyrənməyə təkan verir. Belə dərslər şagirdlərin tədqiqat fəaliyyətini stimullaşdırır.

Bunun bir modelini – «Biz tarix dərsliyi yazırıq» formasında göstərək.

Şagirdlərə müəyyən mövzu üzrə mənbələr kompleksinin öyrənilməsi əsasında müstəqil şəkildə dərsliyin bir paraqrafını və ya kiçik bir hissəsini yazmaq təklif olunur:.

1. Müəllim dərsin mövzusunu, problemi söyləyir və tapşırığı izah edir.
2. Şagirdlər kiçik təlim quruplarına bölünürlər və ilkin məlumatların tədqiqi əsasında "tarix dərsliyi" üçün material seçirlər.

Qrupların iş qaydası aşağıdakı kimi ola bilər:

a) paraqrafın başlığını və ya planını dürüst ifadə etmək, mövzunun açılması üçün hansı yarımbəndlər nəzərdən keçirilməlidir?
b) qisa müəllif mətni yazmaq;
c) xronoloji-hadisə sırasını açmaq;
d) məqsədəuyğun sayılsa, mənbələrdən parçalar götürmək;
e) xəritə, illüstrasiyalar tapmaq;
ə) «zaman oxu»nu tərtib etmək;
3) Hər bir qrup işin yekunlarını sinfə təqdim edir.

**5) İllüstrasiyalarla iş**

İllüstrasiyalar dərslik və ya dərs üçün yaraşıq deyil, həm də şagirdlər üçün əlavə məlumat mənbəyi olmalıdır. Buna görə də illüstrasiyalarla iş üçün suallar və tapşırıqlar təklif edilməlidir.

6) İllüstrasiyanın təsviri və ondan məlumat alınması

Müxtəlif mürəkkəblik səviyyəsi olan tapşırıqlar:

1. İllüstrasiyaya əsasən tarixi dövrü və məkanı (hadisə yerini) müəyyən et.
2. Göstərilmiş tarixi hadisələri və onların iştirakçılarını, şəraiti, mühiti təsvir et.
3. İllüstrasiyada əks olunan tarixi dövrün tipik nümayəndələrini müəyyənləşdir (geyim, davranış xüsusiyyətləri).
4. Süjet və detallara görə əsər müəllifinin əsas fikrini aydınlaşdır.
5. İlllüstrasiya materiallarıninn növünü və onun müəllifinin əsas ideyasına müvafiqliyini müəyyənləşdir.
6. Şəkilaltı mətni (əgər varsa) illüstrasiyanın məzmunu ilə tutuşdur.

7. İllüstrasiya üzrə hekayə hazırla.

**İllüstrasiyalarla iş zamanı şagirdlərin fəallıq növləri:**

1. İllüstrasiya üzrə ümumi söhbət.
2. İllüstrasiyaya imza toplamaq.
3. «Bərpaçının» vərəqəsinin tərtib olunması.
4. Cütlərdə «rəssamla» müsahibə.
5. Cütlərdə sualların qoyuluşu.

b) İllüstrasiyaların dərk olunması və tətbiqi.

**Müxtəlif mürəkkəblik səviyyəsi olan tapşırıqlar:**

1. Sizcə illüstrasiya naturadan çəkilib, yoxsa sonradan yaradılıb?
2. Əgər o sonradan yaradılıbsa, onun mənbəyi nə olub?
3. İki və daha artıq eyni planlı illüstrasiyaları müqayisə et.
4. Müxtəlif tip illüstrasiyalarda hadisələrin obrazlı əksini müqayisə et.
5. Müxtəlif illüstrasiyalarda məzmunu və dəyərləndirici əlaqələri təyin et.
6. İllüstrasiyanın dəyərlər sistemini və subyektivlik səviyyəsini müəyyən et.
7. Müxtəlif planlı illüstrativ materialları qiymətləndir və nəticə çıxar
8. Problemin həlli üçün illüstrasiya və mənbələrin müqayisəli təhlilindən istifadə et.

9 Öz mövqeyini illüstrasiyanın köməyi ilə əsaslandır.

Fəallıq növləri:

1. Qruplarda illüstrasiyalar üzrə fikir mübadiləsi aparmaq.
2. Cütlüklərdə mübahisə etmək.
3. Şəklin yaranması haqqında hekayə tərtib etmək.
4. İllüstrasiyalar haqqında rəy yazmaq.

### 6. «Beyin həmləsi»

Bu, kollektiv müzakirənin əhəmiyyətli üsuludur. Onu pedaqoji ədəbiyyatda bəzən «Əqli hücum», «Beyin fırtınası» üsulu da adlandırırlar. Problemin həlli bütün iştirakçıların öz rəylərini bildirməsi yolu ilə tapılır.

«Beyin həmləsi» hər hansı problemə aid ideyaların birgə axtarışıdır. Şəxsiyyətin inkişafı üçün bu üsul ən əhəmiyyətli üsullardan biridir. Bu üsuldan

Azərbaycan tarixi dərslərində düzgün istifadə olunduqda, şagirdlərin yaradıcı təfəkkürünün inkişafına gətirib çıxarır.

«Beyin həmləsi»nin əsas prinsipi çox sadədir. Müəllim sinfin qarşısında məsələ qoyur və bütün iştirakçılara bu məsələ barədə öz fikirlərini bildirməyi təklif edir. Bu mərhələdə heç kimin başqasının ideya və ya fikirlərini tənqid etməyə, yaxud da onları qiymətləndirməyə hüququ yoxdur.

Təcrübə göstərir ki, «Beyin həmləsi»nin köməyi ilə bir neçə dəqiqə müddətində onlarla yeni ideyalar əldə etmək olar. İdeyaların çoxluğu bu üsul üçün əsas məqsəd deyil, lakin bu problemin ən optimal həllinin tapılması, yaxud sadəcə olaraq ən səmərəli qərarın çıxarılması üçün şərait yaradır.

Bu üsulun tətbiqi zamanı şagirdlər bəzən müəllimin ağlına belə gəlməyən orijinal ideyalar irəli sürə bilərlər. «Beyin həmləsi»nin keçirilməsi üçün bir sıra qaydalara əməl etmək lazımdır:

- irəli sürülən ideyalar qiymətləndirilmir və tənqid olunmur;
- məqsəd keyfiyyət deyil, kəmiyyətdir: nə qədər çox ideya olsa, o qədər yaxşıdır;
- istənilən ideyanı inkişaf etdirmək olar;
- ən orijinal, qeyri adi ideyalar xüsusilə dəstəklənir;
- bütün ideyalar lövhədə və ya vatman kağızında müəllim tərəfindən qeyd olunur.

«Beyin həmləsi» qoyulmuş problemin çıxılmaz həllini tapmağa imkan verir. Bu üsul öz qüvvələrinə əmin olmayan şagirdlərin stimullaşdırılması üçün əhəmiyyətli vasitədir.

### 7. Diskussiya

Diskussiya müsahibənin spesifik forması olub kollektiv müzakirə deməkdir. Müəllim və şagirdlər üçün əlverişli olan bu üsul onların tarixi hadisə, təzahür və proseslərə münasibətlərinin necə olduğunu öyrənməyə imkan verir. Bu zaman şagirdlərin diskussiya mədəniyyəti (danışanı dinləmək, sözünü kəsməmək, çıxış etmək istədikdə icazə istəmək və s.) aşkara çıxır. Qrup formasında keçirilən diskussiyalar zamanı aşağıdakı vəzifələr həyata keçirilir:

1.diskussiya iştirakçıları tərəfəindən real şərait təhlil edilir;

2. qoyulmuş problem ətrafında bacarıqlar formalaşdırılır;

3. digər iştirakçılarla əlaqəli fəaliyyət vərdişləri inkişaf etdirilir;

4. müxtəlif problemlərin həllinə dair çoxvariantlı qərarlar qəbulu nümayiş etdirilir.

Azərbaycan tarixinin tədrisində diskussiya üsulunu müxtəlif formalarda tətbiq etmək olar:

- dəyirmi masa ( mövqelər öz fikirlərini sərbəst söyləyirlər);
- ekspertlər qrupu (mikroqruplarda müzakirələrdən sonra nəticələrin qrupların müzakirəsinə verilməsi);
- forum (qrup auditoriya ilə fikir mübadiləsi aparır);
- debat;
- mühakimə-dərs;

Diskussiya zamanı şagirdlərin riayət etməli olduqları qaydalar:

- danışanı dinləmək;

- eyni zamanda bir nəfər danışa bilər;

- çıxış etmək istədikdə əlini qaldırmaq;

- danışanın sözünü kəsməmək;

- bir kəslə razılaşmadıqda fikir söyləmək deyil, fikri tənqid etmək;

- hamını diskussiyada iştiraka həvəsləndirmək.

## 8. Layihə hazırlığı

Layihə-şagirdlərin müxtəlif mövzularla bağlı məyyən müddət ərzində hazirladığları və sonra təqdim etdikləri müstəqil tədqiqatlarıdır. Azərbaycan tarixinin tədrisində layihələr çox faydalıdır, çünki:

- ayrı-ayrı tarixi faktlar və hadisələrin digər məktəb fənləri və ətraf aləmlə əlaqəsini göstərməkdə şagirdlərə yardımçı olur;

- hər hansı bir fəaliyyətin həyata keçirilməsində, vaxtların və işlərinin qrafik üzrə müəyyənləşdirilməsi şagirdlərin daxilən təşkilatlanmasına şərait yaradır;

- müəllimin rəhbərliyi altında təlim prosesini idarə etməyə şagirdlərə imkan verir;

- şagirdlərin həm biri-biriləri, həm də başqaları ilə məktəbdənkənar qarşılıqlı fəaliyyətinə imkan yaradır;

- tarixi hadisə və təzahürlərin hər hansı bir məqamını dahada dərindən öyrənməyə şərait yaradır, əlavə ədəbiyyatdan istifadə etməyi öyrədir, sosial və yaradıcı tədqiqat vərdişləri aşılayır;

- şagirdlərə geniş mənada vərdişlər qazanmağa, tədqiqatlarını və öz fikirlərinin nəticələrini müzakirə etməyə yardımçı olur ki, bu da müstəqil düşüncəli şəxs üçün mühüm keyfiyyətdir.

**9. Mühazirə**

Tarix dərslərində geniş istifadə olunan üsullardan biri də mühazirə dərslərdir. Mühazirə məlumatın şagirdə ötürülmə üsuludur. Bu üsuldan mövzu ilə bağlı məzmunun zənginləşdirilməsi, tamamlanması üçün istifadə etmək məqsədəuyğundur. Belə qısa mühazirələr 10-15 dəqiqə ərzində aparılır.

Mühazirə ilə bağlı aşağıdakı məsələlərə nəzər yetirmək məqsədə müvafiqdir:

- mühazirənin məqsəd və vəzifələrinin dəqiq müəyyənləşdirməsi;
- plan tərtib edilməsi və onu şagirdlərə paylanması (və ya lövhədə yazılması);
- əyani və texniki vasitələrdən istifadə edilməsi;
- mühüm mühazirə prosesini verbal (suallar vermək) və vizual (şagirdlərin sifətlərinin ifadəsini və jestlərini müşahidə etmək) tənzimlənməsi.

**Sorğu vərəqləri və müsahibə**

- bu üsüllar araşdırılan məsələ ilə bağlı fakt və hadisələr haqqında müəyyən qrupların ictimai rəyini öyrənmək məqsədi ilə aparılır,
- sorğu vərəqi araşdırılan məsələ ilə bağlı tərtib edilir və burada suallar qoyulur. Sorğuda iştirak edənlər bu vərəqi müstəqil doldurur,
- müsahibə isə araşdırılan məsələ ilə bağlı məlumat almaq üçün aparılır,

- bu üsullardan istifadə edərkən aşağıdakı mərhələlərin gözlənilməsi məqsədəmüvafiq hesab edilir:
- problemi müəyyən etmək;
- işi təşkil etmək (Sorğu və ya müsahibə keçirmək üçün suallar hazırlamaq);
- məlumatları toplamaq (Sualların cavablarını toplamaq);
- əldə edilmiş məlumatları təhlil etmək və ümumiləşdirmək.

Müəllimlər təklif olunan metodik üsullara və dərs modellərinə istinad edərək, onları tədrisdə tətbiq edə və ya tarix dərsi üzrə öz dərs modellərini hazırlaya bilərlər. Qeyd etmək lazımdır ki, müasir didaktikada digərlərinin zərərinə hər zaman və hər yerdə tətbiq edilə biləcək yeganə üsul və tədris modeli yoxdur. Buna görə də dərs aparılmasında üsul və model seçimi müəllimin öz öhdəsinə düşür, onun istək və təcrübəsindən asılı olur. Buradan belə bir nəticə çıxır ki, verilən tövsiyyələrə bir qədər yaradıcı yanaşılmalıdır.

## 2.3. Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair nümunələr

İllik planlaşmanın aparılması müəllimin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Planlaşdırma əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün müəllimin fəaliyyətini istiqamətləndirir. İllik planlaşmada tədris vahidlərinin nə zaman və hansı ardıcıllıqla tədris ediləcəyi göstərilir. Eyni zamanda hər fəsilə ayrılacaq vaxt əks etdirilir.

Fənnin planlaşması aşağıdakı ardıcıllıqla aparılmalıdır:

1. Tədris ediləcək tədis vahidlərini məzmun standartlarına əsasən müəyyən etmək.
2. Tədris vahidlərinin ardıcıllıq prinsiplərini müəyyənləşdirmək (məzmun ardıcıllığı, xronoloji ardıcıllıq, məntiqi ardıcıllıq nəzərə alınmaqla).
3. Hər tədris vahidi üçün tədris planına əsasən vaxt bölgüsü aparmaq (fənn üzrə illik dərs saatlarının ümumi sayı və əhəmiyyəti nəzərə alınmaqla).

**İllik planlaşma aparılarkən aşağıdakı sənədlərə istinad edilməlidir:**

1. Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş ümumi təhsil pilləsi üçün dövlət standartları.

2. Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qiymətləndirmə standartları.

3. Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş tədris planı.

4. Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş dərslik.

5. Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş müəllim üçün vəsait.

6. Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş ümumtəhsil məktəblərinin V-XI siniflər üçün tarix proqramları.

Təqvim planı tərtib edilərkən dərs ilinin həftələri, tədris ilində baş verəcək mühüm hadisələr (iş günü hesab edilməyən tarixi günlər), tədris vahidlərinin və onlara daxil olan mövzuların adı müəyyən edilir. Hər tədris vahidi və mövzu vasitəsi ilə reallaşdırılacaq dövlət standartları (alt standartlar) seçilir, istifadə olunacaq mənbələr (resurslar) müəyyən edilir, hər mövzu üçün ayrılmış vaxt qeyd olunur. Nəticədə belə bir cədvəl alınır:

| ***Standartlar*** | ***Tədris vahidi*** | ***Mövzu*** | ***Resurslar*** | ***Saat*** | ***Tarix*** |
|---|---|---|---|---|---|
| | | | | | |

**Ümumi orta təhsil pilləsi üçün illik planlaşdırma nümunəsi**

**VI sinif**

| **Tədris vahidi** | **Standartlar** | **Məzmun** | **Resurslar** | **Saat** |
|---|---|---|---|---|
| Atropatena dövləti<br><br>6 saat | 2.1.1., 3.1.1., 4.1.1. | 1. Atropatena dövlətinin yaranması | Dünyanın siyasi xəritəsi, Atropatenanın tematik xəritəsi, “Atropatena əhalisinin etnik tərkibi”cədvəli, VI sinif üçün iş dəftəri, Azərbaycan tarixinin qədim dövrünə aid audiovizual vəsait, cədvəl və sxemlər, dərslik. | 1 |
| | 2.1.1. | 2. Atropatenanın əhalisi və təsərrüfatı | Dünyanın siyasi və fiziki xəritəsi, Atropatena dövlətinin tematik xəritəsi, “Atropatenanın əhalisinin etnik tərkibi”cədvəli, iş dəftəri, kontur xəritə, audiovizual vəsait, sxemlər, dərslik və iş dəftəri. | 1 |
| | 1.1.2., 3.1.2. | 3. Atropatenanın qonşu dövlətlərlə münasibətləri | Dünyanın siyasi xəritəsi, Atropatenanın tematik xəritəsi, dünyanın inzibati xəritəsi, “Azərbaycan və ona qonşu olan dövlətlərin əhalisinin etnik tərkibi” sxemi, atlas və kontur xəritələr, audiovizual vəsait, sxemlər, dərslik və iş dəftəri. | 1 |
| | 2.1.2., 3.1.2., 4.1.1. | 4. Atropatenanın Azərbaycan tarixində yeri və rolu | Dünyanın siyasi xəritəsi, Atropatena dövlətinin tematik xəritəsi, audiovizual vəsait, atlas, iş dəftəri və vərəqləri, sxemi və cədvəllər. | 1 |
| | 5.1.1, 5.1.2. | 5. Atropatena mədəniyyəti | Atropatena dövlətinin tematik xəritəsi, Azərbaycan tarixinin qədim dövrünə aid audiovizual vəsait, dərsliklər, iş dəftəri, atlas, “Atropatena əhalisinin etnik tərkibi”cədvəli. | 1 |
| | | 6. Summativ qiymətləndirmə | Mövzu üzrə testlərin hazırlanması və tətbiqi | 1 |

**Tam orta təhsil pilləsi üçün illik planlaşdırma nümunəsi**
**XI sinif**

| Tədris vahidi | Standartlar | Məzmun | Resurslar | Saat |
|---|---|---|---|---|
| Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti.<br><br>8 saat | 3.1.1., 4.1.1. | 1. Azərbaycan Xalq Cümhuriyyətinin élan olunması və onun fəaliyyətinin Gəncə dövrü. | Dünyanın siyasi xəritəsi, Azərbaycan Respublikasının siyasi xəritəsi, Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq əlaqələri cədvəli, atlas və kontur xəritələr, iş dəftəri, dərsliklər, cədvəllər. | 1 |
| | 1.2.1, 3.1.3., 4.1.2. | 2. Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinin bütün Azərbaycan ərazisində bərqərar edilməsi. | Azərbaycan Respublikasının siyasi xəritəsi, Azərbaycan Xalq Cümhuriyyətinin tematik xəritəsi, Azərbaycan tarixi atlası və kontur xəritələr, iş dəftəri, cədvəl və sxemlər, dərsliklər, audio vizual vəsait, portretlər. | 1 |
| | 3.1.3., 5.1.1. | 3. Dövlət quruculuğu. Azərbaycan parlamenti. | Azərbaycan Xalq Cümhuriyyətinin tematik xəritəsi, Azərbaycan tarixi atlası və kontur xəritələr, audiovzual vəsait, iş dəftəri, cədvəl və sxemlər, şəkillər | 1 |
| | 2.1.1., 2.1.2. | 4. Azərbaycan Xalq Cümhuriyyətinin sosial-iqtisadi tədbirləri | Azərbaycan Xalq Cümhuriyyətinin tematik xəritəsi, Azərbaycan tarixi atlası və kontur xəritəsi, iş dəftəri, dərsliklər və sxemlər | 1 |
| | 2.1.2., 3.1.3., 1.2.2. | 5. Erməni təcavüzünə qarşı mübarizə | Azərbaycan Xalq Cümhuriyyətinin tematik xəritəsi, dünyanın siyasi xəritəsi, audio vizual vəsait, iş dəftəri, sxem, cədvəl və sənədlər. | 1 |
| | 2.1.1., 3.1.1. | 6. Beynəlxalq şərait və xarici siyasət | Dünyanın siyasi xəritəsi, Azərbaycan tarixi üzrə atlası və kontur xəritələr, Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq əlaqələri sxemi | 1 |
| | 2.1.1, 3.1.1. | 7. Azərbaycan Xalq Cümhruiyyətinin süqutu | Azərbaycan Respublikasının siyasi xəritəsi, Azərbaycan Xalq Cümhuriyyətinin tematik xəritəsi, atlas və kontur xəritələr. | 1 |
| | | 8.Summativ qiymətləndirmə | Mövzu üzrə testlərin hazırlanması və tətbiqi. | 1 |

## Gündəlik planlaşmanın aparılması qaydaları və nümunələri

Nümunəvi illik planlaşma əsasında müəllim fərdi olaraq gündəlik və ya həftəlik planlaşma tərtib edir. Dərs planlaşdırılarkən hansı dövlət standartının (standartlarının) reallaşdırılması müəyyənləşdirilməli, ona (onlara) uyğun təlim məqsədi (məqsədləri), müvafiq metodlar və vasitələr seçilməlidir.

Fəal-interaktiv dərsin planında aşağıdakıların nəzərə alınması didaktik cəhətdən əhəmiyyətli hesab edilir:

1) mövzunu müəyyənləşdirmək;

2) standartı konkretləşdirmək;

3) dərsin məqsədini (məqsədlərini) müəyyən etmək;

4) dərsin motivasiyasını işləyib hazırlamaq;

5) tədqiqat suallarını müəyyənləşdirmək

6) aparılacaq tədqiqatın mərhələlərini planlaşdırmaq və bu zaman aşağıdakıları dəqiqləşdirmək:

- tədqiqat üçün tapşırıqları;
- iş üsulları və formalarını;
- məlumat mənbələrini;
- müzakirə üçün hazırlanan sualları ;
- qısaca ifadə edilən ideyaları və alınacaq nəticələri ;
- dərsin hər mərhələsinə sərf olunacaq vaxtı;
- qiymətləndirmə standartlarına əsasən hazırlanacaq vasitələr;
- dərs üçün lazım olan resurslar (təchizat).

Fəal-interaktiv dərsi səmərəli təşkil etmək üçün müəllimin ilk növbədə planlaşma bacarığı olmalıdır. O, dərs dediyi Azərbaycan tarixi fənni üzrə bütün məsələləri aydın təsəvvür edə bilməli, onlara aid perspektiv və cari planlar hazırlamağı bacarmalıdır. Bu zaman aşağıdakı sualları konkretləşdirməlidir:

- Nə öyrəniləcək?
- Necə öyrəniləcək?
- Hansı şəraitdə öyrəniləcək?
- Nəticələr necə qiymətləndiriləcək?

## V sinif

| *"Uzunömürlü dövlət – Şirvanşahlar"* mövzusunda | | |
|---|---|---|
| ***Məzmun xətti*** | • Dövlət | |
| ***Standart*** | • 3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.<br>• 3.1.3. Kiçikhəcmli tarixi hekayə qurur | |
| ***Dərsin sonunda şagirdlərin əldə edəcəkləri nəticələr*** | • Azərbaycan Şirvanşahlar dövləti haqqında ümumi biliklərini nümayiş etdirir<br>• Xəritədə Azərbaycan Şirvanşahlar dövlətinin ərazisini və mühüm tarixi abidələri müəyyənləşdirir<br>• Şirvanşahlar dövlətində mədəniyyətin inkişafı ilə bağlı kiçik hekayə qurur | |
| ***İnteqrasiya*** | • 2.1.2. Həyat bilgisi<br>• 3..1.3. Ədəbiyyat<br>• 3.1.4. Ana dili | |
| ***Dərsin tipi*** | • İnduktiv | |
| ***İş forması*** | • Qruplarla iş<br>• Cütlərlə iş | |
| ***İş üsulları*** | • Beyin həmləsi<br>• Müzakirə<br>• Auksion | |
| ***Resurslar*** | • Dərslik<br>• Şəkillər<br>• Xəritə<br>• İş vərəqləri<br>• Kompüter<br>• Proyektor<br>• A-3 vərəqləri<br>• Markerlər | |
| ***Dərsin gedişi*** | | |
| ***Motivasiya*** | Müəllim ardıcıllıqla 3 şəkil nümayiş edərək yönəldici suallar verir.<br>***1-ci şəkil – Şir***<br>1) Uşaqlar bu hansı heyvandır?<br>2) Belə heyvanlara harada rast gəlinir?<br>***2-ci şəkil – Türkiyənin Van gölü***<br>1) Xəritədə hansı qardaş ölkənin ərazisi təsvir edilmişdir?<br>2) Türkiyədə yerləşən üç hərfli bu göl necə adlanır?<br>***3-cü şəkil – Tac***<br>1) Sizin fikrinizcə bu nədir?<br>2) Belə tacları kimlər gəzdirirdi?<br>*Qısa cavablardan sonra müəllim 3 şəkli yan-yana lövhədə* | ***7 dəqiqə*** |

| | | |
|---|---|---|
| | *asır və şagirdlərə müraciər edir: İndi uşaqlar diqqətlə baxın və bu 3 şəkil birləşməsində Azərbaycana aid hansı mühüm ifadəni səsləndirə bilərsiniz?*<br>Şagirdlərdən "Şirvanşah" cavabı alınır.<br>**<u>Tətqiqat sualı verilir:</u>**<br>***Nə üçün Şirvanşahlar Azərbaycan tarixində uzunömürlü dövlət kimi mövcud ola bilmişdir?***<br>Fərziyyələr irəli sürülür və müəllim tərəfindən lövhədə qeyd olunur. | |
| ***Tətqiqat aparılması və informasiya mübadiləsi*** | • Müəllim Şirvanşahlar dövləti haqqında kiçik həcmli slaydları təqdim edir. Şagirdlər cütlərə bölünərək slaydlara münasibətini bildirir və öyrəndikləri yeni bir məlumatı elan edirlər.<br>• Müəllim şagirdləri 3 qrupa bölür və qruplara ad verilir.<br>• Hər bir qrupa tapşırıqlar yazılmış iş vərəqləri verilir (*Qruplar tapşırığı cavablandırarlən sxemlərdən istifadə etməsi məqsədəuyğundur*).<br>1) *<u>Birinci qrupa</u>:* Şirvanşahlar dövləti necə yaranmışdır və dövləti möhkəmləndirmək üçün onun hökmdarları hansı tədbirlər həyata keçirmişdilər? (*Sualın cavablandırılmasına kömək etmək məqsədilə qrup üzvlərinə dərsliklər paylanılır, mətn oxunur və müzakirə edilir*)<br>*2) <u>İkinci qrupa:</u>* Nə üçün Şirvanşahlar dövləti iqtisadi cəhətdən güclü inkişaf etmişdir və yadelilərin bu ölkəyə yürüşlər etməsinin səbəbləri nə idi? (*Sualın cavablandırılmasına kömək etmək məqsədilə qrup üzvlərinə dərsliklər paylanılır, xəritə verilir, mətn oxunur və müzakirə edilir*)<br>*3) <u>Üçüncü qrupa:</u>* Azərbaycan mədəniyyətinin inkişaf etməsində Şirvanşahlar dövlətinin rolu nədən ibarət olmuşdur? (*Sualın cavablandırılmasına kömək etmək məqsədilə qrup üzvlərinə dərsliklər paylanılır, İntibah dövrünün Şirvan abidələri haqqında şəkilli məlumatlar vərəqləri verilir, mətn oxunur və müzakirə edilir*) | ***12 dəqiqə*** |
| ***İnformasiyanın müzakirəsi və təşkili*** | • Qruplar təqdimat aparırlar (*qrup iştirakçıları birgə aparması məqsədə uyğundur*)<br>• Digər qruplar müzakirə edilən məsələ ilə bağlı olaraq, suallar yaranarsa onu da səsləndirməyə və şagirdlərin onu cavablandırmasına imkan verilir<br>• Müəllim şagirdlərə suallar (*2-3 sayda*) təqdim edir. Birlikdə müzakirə vasitəsilə suallar cavablandırılır. Auksion keçirilir. | ***15 dəqiqə*** |

<table>
<tr><td>Ümumiləşdirmə və nəticə</td><td><ul><li>Şirvanşahlar dövlətinin xəritəsi əsasında müəllimin bələdçili ilə şagirdlər Şirvanşahlar dövlətinin Azərbaycan tarixində çox mühüm yer tutduğu nəticəsinə gəlirlər. Tətqiqat sualına cavab tapılmış olur.</li></ul></td><td>5 dəqiqə</td></tr>
<tr><td>Yaradıcı tətbiqetmə və ya ev tapşırığı</td><td><ul><li><u>Müəllim şagirdlərə ev tapşırığı verir:</u><br>Xəqani Şirvaniyə təşəkkür məktubu hazırlayın.</li></ul></td><td>1 dəqiqə</td></tr>
<tr><td>Refleksiya və qiymətləndirmə</td><td><table>
<tr><th>Qiymətləndirmə meyarları</th><th>5</th><th>4</th><th>3</th><th>2</th><th>1</th></tr>
<tr><td>Azərbaycan Şirvanşahlar dövləti haqqında ümumi biliklərini nümayiş etdirir</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>Şirvanşahlar dövlətinin ərazisinin əlverişli təbii amillərini təsvir edir</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>Xəritədə Azərbaycan Şirvanşahlar dövlətinin ərazisini və mühüm tarixi abidələri müəyyənləşdirir</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>Şirvanşahlar dövlətində mədəniyyətin inkişafı ilə bağlı kiçik hekayə qurur</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
</table></td><td>5 dəqiqə</td></tr>
</table>

## *VI sinif*

***Mövzu:*** Atropatena mədəniyyəti.

***Standart:*** 2.1.1 Qədim insanların həyat tərzini və məşğuliyyətini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir.

3.1.3 Qədim Azərbaycan dövlətləri haqqında mənbələr əsasında məlumatlar toplayır, təqdim edir.

5.1.2. Azərbaycan mədəniyyətinin müxtəlif xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqələrini izah edir.

Məqsəd: 1.Qədim insanların həyat tərzini və məşğuliyyətini Atropatena ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir.

2. Atropatena dövləti haqqında mənbələr əsasında məlumatlar toplayır, təqdim edir.

3. Atropatena mədəniyyətinin müxtəlif xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqələrini izah edir.

***İnteqrasiya:*** Ü.t 2.1.2 A.d 3.1.2. Coğ 3.2.3

***İş forması:*** Böyük qruplarla iş.

***Üsullar:*** Əqli hücum, müzakirə, Venn dioqramı

***Resurslar***: dərslik, iş vərəqləri,xəritə ,video-çarx , «Azərbaycan tarixi» multimedia dərs vəsaiti-I hissə,

**Motivasiya:**

Sinfi təşkil etdikdən sonra cari dərsin adının şagirdlər tərəfindən müəyyənləşdirilməsini təşkil etmək üçün ekranda yazıçı İsa Hüseyinovun əsəri əsasında çəkilmiş “Tütək səsi ” filmindən sujet göstərilir. Filmin qəhrəmanı, ağsaqqal İsfəndiyar kişi deyir: “Mən bu zamanədə bir iblis tanıyıram. O, da müharıbədir.” yerləşdirildiyi təqdimatı proyektor vasitəsilə təqdim edirəm. Sinfə aşağıdakı sullarla müraciət edirəm.

- Sizcə müharibədə insanların həyatı necə dəyişə bilər?
- Sual klaster üsulu ilə cavablandırılır.




Yuxarıda göstərilmiş klaster əsasında şagirdlərlə **5** dəqiqəyə kimi kiçik sual-cavab aparıram. Nəticədə verilmiş cavabları ümumiləşdirirəm və onlardan cari dərsimizin adı olan “Atropatena mədəniyyətinin cavabını alıram.

**Tədqiqatın aparılması:**

Dərsin adı müəyyənləşdirildikdən sonra sinfə aşağıdakı tədqiqat sualı ilə müraciət edirəm:

**Tədqiqat sualı:** Atropatena mədəniyyətinin Azərbaycan tarixində yeri və rolu nədən ibarətdir?

**Tapşırıq: 1 Verilən mətni oxuyun və aşağıdakı cədvəli doldurun.**

| | |
|---|---|
| Atropatena mədəniyyəti hansı mənbələr əsasında öyrənilmişdi? | |
| Atropatenada sənətkarlığın hansı sahələri inkişaf etmişdir? | |
| Ellin mədəniyyətinin Atropatena mədəniyyətinə nə kimi təsiri olmuşdur? | |

**İş vərəqi 2.**

Tapşırıq 2. Verilmiş ifadələr əsasında Atropatena mədəniyyəti haqqında qısa məlimat verin.

Arxeoloji qazıntılar, Strobon, Plutarx, Ptolemey, Qazaka, memarlıq abidələri, şəhər əhalisi, müdafiə divarları, tikinti materialları, Makedoniyalı İskəndər, Kerifto, “Avesta”, Perespol, Əhəmənilər sarayı, 1771-ci il, Atəşpərəst məbədi.

İş vərəqi 3.

Tapşırıq. Manna mədəniyyəti və Atropatena mədəniyyəti arasında oxşar və fərqli xüsusiyyətləri qeyd edin.




Qruplara verilmiş tapşırıqların icrası üçün 15 dəqiqə vaxt ayrılır.

**Məlumatın mübadiləsi:**

Qruplar verilmiş iş vərəqləri ilə işləri yekunlaşdırdıqdan sonra hər qrup 3 dəqiqə müddətində hazırladıqları işlərin təqdimatını keçirir.

**Məlumatın müzakirəsi və təşkili:**

Təqdimatlardan alınan cavablara əsasən şagirdlərə suallarla müraciət edərək ,onları öz mülahizələrini əsaslandırmağa sövq edirəm.

**Nəticələrin çıxarılması**

Müzakirədən sonra şagirdlərin yekun nəticəyə gəlməsi üçün ümumiləşdirici proses həyata keçirirəm.

**Ev tapşırığı.** Müasir Azərbaycan mədəniyyəti və onun inkişafı haqqında hekayə yazın.

**Qiymətləndirmə və ya refleksiya**

Sonda 3 dəqiqə müddətində aşağıdakı meyarlara əsasən qruplara özünüqiymətləndirmə şkalaları paylayıram. Qruplar öz fəaliyyətlərini 5 ballıq şkalada qiymətləndirirlər.

| Qiymətləndirmə meyarları | QRUPLAR | | |
|---|---|---|---|
| | I qrup | II qrup | III qrup |
| ***Mətn qurmaq bacarığı*** | | | |
| ***Tarixi mədəniyyəti bir biri ilə müqaisə edir, fərqli və oxşar cəhətləri müəyyən edir.*** | | | |
| ***Kiçik həcimli tarixi hekayə qurur.*** | | | |
| ***Fakt və hadisə ilə bağlı fikir bildirir.*** | | | |
| ***Əməkdaşlıq edir.*** | | | |

**Ev tapşırığı.** Müasir Azərbaycan mədəniyyəti və onun inkişafı haqqında hekayə yazın.

## VI sinif

**Mövzu:** Atropatena – Azərbaycan.

**Standart:** 3.1.1.Azərbaycanda dövlət qurumları və qədim dövlətlərin yaranmasını, idarə olunmasını, sosial-iqtisadi münasibətləri təsvir edir.
4.1.1. Dövlətlərin yaranmasında, inkişafında tarixi şəxsiyyətlərin (İranzu, Tomiris, Atropat, Oroys və b.) rolunu dəyərləndirir.

**Məqsəd:** 1. Atropatena dövlətinin yarandığı dövrü bilir.

2.Atropatena dövlətinin sosial-iqtisadi vəziyyətini təsvir edir.

3. Atropatenanın tarixində Atropatın rolunu dəyərləndirir.

**İnteqrasiya :** H-b. 2.1.2.

**İş forması :** Kollektiv iş, qruplarla iş

**Təlim üsulları :** Beyin həmləsi, müzakirə

**Resurslar :** dərslik, flipçat vərəqlər, rəngli markerlər, kompüter, proektor, Atropatena dövlətinin tematik xəritəsi

**Dərsin mərhələləri:**

**Motivasiya: A**tropatın təsviri, **A**tropatın M.İsgəndərlə görüşünün təsviri, www. youtube.com saytından Atropatenaya dair video süjet göstərilir və mövzunun adı müəyyən olunur *-5 dəq.*

***Tədqiqat sualı:*** Atropatenanın Azərbaycan tarixində rolu və yeri nədən ibarətdir?

**Tədqiqat aparılması:** əvvəlcə, sinif 3 qrupa bölünür, mövzuya dair material şagirdlər tərəfindən oxunulur, sonra hər qrupa iş vərəqi verilir *-15 dəq.*

**İş vərəqləri:**

<u>I qrup</u> : Atropatena dövlətinin yaranmasına təsir göstərən təbii amilləri təsvir edin

____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
___________________________________________________________

<u>II qrup</u> : Atropatena dövlətinin yaranmasının əhəmiyyətini izah edin

____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
____________________________________________________________

<u>III qrup</u> : Atropatın tarixi şəxsiyyət kimi fəaliyyətini necə qiymətləndirirsiniz?

____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
____________________________________________________________

**Məlumat mübadiləsi** : Qruplar öz işini təqdim edir. ***10 dəq.***

**Məlumatın müzakirəsi** : Təqdim olunan işlər müzakirə olunur. ***10 dəq.***

**Nəticələrin çıxarılması**: Müzakirələrdən sonra şagirdlər Atropatena dövlətinin yarandığı dövrü bilir, dövlətinin sosial-iqtisadi vəziyyətini təsvir edir.Dövrün təssərrüfat həyatını şərh edir. Həmçinin Atropatın bu dövlətin yaranmasında və inkişındakı rolunu dəyərləndirir. ***3 dəq.***

**Ev tapşırığı :** 1. Atropatenaya aid əlavə məlumat toplayaraq esse yazın.– ***2 dəq.***

**Qiymətləndirmə:** Hər mərhələdə aparılır

| № | Meyar / qruplar | I qrup | II qrup | III qrup |
|---|---|---|---|---|
| 1. | əməkdaşlıq | | | |
| 2. | İş bölgüsü | | | |
| 3. | Təsviretmə | | | |
| 4. | İzahetmə | | | |
| 5. | Təqdimat | | | |

**VII sinif**

**Mövzu: Qazan xanın islahatları.**

**Standart : 4.1.1.** *Tarixi şəxsiyyətləri oxşar və fərqli cəhətlərinə görə təhlil edir.*

**Məqsəd: 1.** *Qazan xanı tarixi şəxsiyyət kimi müəyyən edir.*

*2.Qazan xanı digər hökmüdarlarlarla müqayisə edir.*

*3. Qazan xanı digər hökmüdarlardan fərqləndirərək onun gördüyü işləri təhlil edir.*

**İnteqrasiya:** *Ü-T. 4.1.1., Az-d. 1.2.2.*

**Forma:** *kollektiv və fərdi iş.*

**Üsul:** *beyin həmləsi, suallar.*

**Resurs:** *dərslik, metodik vəsait, Qazan xanın şəkili, iş vərəqləri, dövrün xəritəsi, elektron dərslik və s.*

## I. Motivasiya.

Şagirdlərin təfəkkürünü canlandırmaq üçün "əqli hücum" metodu ilə aşağıdakı suallar verilir:

*İslahat dedikdə nə başa düşürsünüz? Onu dəyişiklik hesab etmək olarmı? Hansı amillər islahatların keçirilməsini zəruri edə bilər? Siz yaşadığınız cəmiyyətin hansı sahələrində islahat keçirərdiniz? Yönləndirici sualların və açar sözlərin köməyi ilə şagirdlər araşdırılacaq problemin aydınlaşdırır.*

**Tədqiqat sualı:** *Qazan xanın Azərbaycan tarixində rolu nədən ibarətdir?*

**II.Tədqiqatın aparılması.**

Şagirdlərə fərdi olaraq aşağıda göstərilmiş cədvəllər verilərək doldurulması tələb olunur. Bunun üçün şagirdlər dərslikdə verilmiş "Qazan xanınislahatları" mövzusu ilə tanış olurlar.

| Həyata keçirilən islahatlar | İslahatların nəticələri |
|---|---|
| Torpaq islahatı | |
| Vergi islahatı | |
| Məhkəmə islahatı | |
| Rabitə ,pul, ölçü, çəki islahatları | |

| Həyata keçirilən islahatlar | **Islahatın daha cox təsir etdiyi əhali qrupları** | | |
|---|---|---|---|
| | feodallar | kəndlilər | sənətkarlar və tacirlər |
| Torpaq islahatı | | | |
| Vergi islahatı | | | |
| Məhkəmə islahatı | | | |
| Rabitə, pul, ölçü, çəki islahatları | | | |

**Məlumatın mübadiləsi:** *şagirdlərdən Qazan xanın islahatına dair fikirlər alınır.*
**Məlumatın müzakirəsi**: *Bütün islahatlar və şagirdlərin gəldiyi qənaətlər müzakirə olunur.*

**V. Nəticələrin çıxarılması.**

Şagirdlər Qazan xanı, eləcədə onu keçirdiyi islahatları müəyyənləşdirərək müqayisələr edir və təhlilər apara bilir.

VI. Refleksiya və qiymətləndirmə.

İslahatların keçirilməsində əsas məqsəd ölkəni iqtisadi və siyasi böhrandan xilas etmək, cəmiyyətin, insanların həyatını yaxşılığa doğru dəyişmək, qayda-qanun yaratmaq, güclü dövlət qurmaq olmuşdur.
Bəs biz bu nəticəyə necə gəlib çıxdıq?

**Qiymətləndirmə:** *Məqsədə uyğun olaraq meyarlar müəyyən edilərək şagirdlərə fərdi qiymət yazılır.*

**Ev tapşırığı:** Qazan xanın islahat aprmadığı sahələri aydınlaşdırın. Bu islahatı siz necə həyata keçirərdiz ? Fikirlərinizi yazın.

**VIII sinif**

**Mövzu:** Şah I Abbasın islahatları.
**Standart:** 4.1.1. - Azərbaycan dövlətçiliyində mühüm rol oynamış tarixi şəxsiyyətlərin (Şah I İsmayıl, Şah I Təhmasib, Şah I Abbas, Nadir şah, Qubalı Fətəli xan, Hacı Çələbi və b.) fəaliyyətini dəyərləndirir.
1.2.2. - Öyrəndiyi dövrə aid yazılı mənbələri təhlil edir, nəticələrini təqdim edir.
**İnteqrasiya:** Ü-t. 4.1.1.
A-d. 1.2.4
**Dərsin məqsədi:** Şah I Abbasın fəaliyyətini dəyərləndirir.
Şah I Abbasın islahat keçirməkdə məqsədini bilir.
Şah I Abbasın islahatlarını təhlil edir, nəticələrini təqdim edir.
**İş forması:** Kollektiv iş, qruplarla iş.
**Üsul:** Beyin həmləsi, Venn diaqramı, Klaster, sorğu vərəqləri.
**Resurs:** VIII sinif Azərbaycan tarixi dərsliyi, vatman, kompyuter, marker.




**Motivasiya:**

**Tədqiqat sualı:** I Şah Abbasın islahatlarının Səfəvi dövləti üçün nəticəsi necə oldu?

***I Qrup: I Şah Abbasın diplomatik əlaqə yaratmaq məqsədilə danışıqlara başladığı dövlətlərin adlarını sxemdə yazın:***

| ***Dövlətlər:*** | | | | |
|---|---|---|---|---|
| ***1.*** | ***2.*** | ***3.*** | ***4.*** | ***5.*** |

***II Qrup: - Şah Abbasın islahat keçirməkdə məqsədini yazın:***




***III Qrup: - Xronoloji ardıcıllığı müəyyən edin:***

**1.** Almaniya səfiri Georgi Tektanderin Təbrizə gəlməsi.
**2.** İstanbul sülhünün imzakanması.
**3.** Şah I Abbasın paytaxtı Qəzvindən İsfahana köçürməsi.
**4.** Şah I Abbasın hakimiyyətə gəlməsi.

***IV Qrup: - Sxemi doldurun:***




***V Qrup:  Venn diaqramında hökmdarların oxşar və fərqli cəhətlərini yazın:***




***VI Qrup: İstanbul sülhünə əsasən Səfəvilərin əlində hansı ərazilərin qaldığını yazın:***

***VII Qrup: Şah I Abbasın yaratdığı qoşun növlərini sxemdə yazın:***






***VIII Qrup:- Krossvordu elə doldurun ki, yuxarıdan aşağıya doğru Səfəvilərin***
***III paytaxtının adı alınsın:***

1. ***Səfəvilərin I payataxtı.***
2. ***Səfəvi dövlətinin banisi.***
3. ***1501- ci ildə yaranmış dövlət.***
4. ***I Şah Abbasın saldırdığı məhəllə.***
5. ***XVI əsrdə Səfəvilərin çıxmaq istədiyi okean.***
6. ***1590- cı ildə imzalanmış sülh.***
7. ***Səfəvilərin II paytaxtı.***






***IX qrup: XVI əsrin sonuna yaxın Səfəvi dövlətinin qarşısında duran 3 mühüm məsələni yazın:***




***X qrup: İstanbul sülhünün şərtlərinə əsasən Osmanlı imperatorluğunun tərkibində qalan əraziləri yazın:***

**Məlumatın mübadiləsi:** Hər cütdən 1 nəfər öz işini lövhədən asaraq təqdimat edir.

**Məlumatın müzakirəsi:** Söylənilən cavablar müzakirə edilir. Təqdimata əsasən cütlər qiymətləndirilir.

**Nəticənin çıxarılması:** Müəllim şagirdlərin diqqətini tədqiqat sualına yönəldərək özü hazırladığı slaydla cavabları ümumiləşdirir. I Şah Abbasın islahatları nəticəsində: 1. Ölkə daxilində siyasi sabitlik bərpa edildi.

2. Məhsuldar qüvvələr canlandı.

3. Səfəvi dövləti iqtisadi və hərbi- siyasi baxımdan mohkəmləndi.

**Qiymətləndirmə:** I Şah Abbasın islahat keçirməkdə məqsədini başa düşmə

I Şah Abbasın islahatlarının mahiyyətini bilmə meyarlarına əsasən aparılır.

**Ev tapşırığı:** Əlavə yazılı mənbələrdən istifadə etməklə Şah Abbas haqqında təqdimat hazırlamaq.

## VIII sinif

**Mövzu:** XV əsrdə Azərbaycanda ictimai-iqtisadi həyat

**Standart:** 1.3.1., 2.1.2., 3.1.3.

**Dərsin məqsədi:**

1. XV əsrdə Azərbaycanda baş vermiş dəyişiklikləri müəyyən edir.

2. Azərbaycanın XV əsr tarixi baş vermiş dəyişiklikləri xəritə əsasında izah edir.

3. XV əsr Azərbaycan feodal dövlətlərinin cədvəlini qurur.

**İnteqrasiya:** Ü-t. 2.1.2, C. 3.1.2., Riy. 5.1.3. İnf. 2.1.3.

**İş forması:** Cütlərlə iş.

**İş üsulu:** Venn diaqramı, Klaster.

**Resurs:** VIII sinif Azərbaycan tarixi dərsliyi, marker, vatman, İnternet saytları: silentwindly.wordpress.com, oxucu.az

**Dərsin mərhələləri:**

**Motivasiya:**

XV əsr Azərbaycanın xəritəsi, xalça, ipək parça, mis qab şəkili qoyaraq şagirdlərə “Bu şəkillər sizə nə deyir?” sualı ilə müraciət edilir. Müxtəlif fərziyələrdən sonra yönləndirici sualların köməyi ilə araşdırılacaq problemin mövzusu şagirdlər tərəfindən müəyyənləşdirilir. (5 dəqiqə)

**Tədqiqatın aparılması: (6 dəqiqə)**

**Tədqiqat sualı:** *Azərbaycan tarixində XV əsrin rolu və yeri nədən ibarətdir?*

Şagirdlər cütlərə bölünür. Hər cütə ayrı-ayrılıqda suallar verilir.  Cütlərə bildirilir ki, təqdimat zamanı informasiyanın düzgünlüyünə, vaxtında yerinə yetirilməsinə diqqət yetiriləcək.

**I cüt:**  XV əsrdə müsəlman Şərqinin ən güclü dövlətlərini xəritədə müəyyənləşdirin:




**II cüt:**  Qaraqoyunlu və Ağqoyunlu dövlətinin dövlət quruluş formasını sxemdə yazın:



**III cüt:** Klaster üsulu ilə XV əsrdə mövcud olmuş torpaq mülkiyyət formalarının adlarını yazın:




**IV cüt:** XV əsrdə Azərbaycanda mövcud olan vergilərin adlarını sxemdə yazın:



**V cüt:** XV əsrin 30- 80- ci illərində şəhər həyatının canlanmasına şərait yaradan hökmdarların adlarını şəkillərə uyğun olaraq yazın:





**VI cüt:** XV əsrdə Azərbaycanın sənətkarlıq və ticarət mərkəzləri kimi hansı şəhərlərini tanıyırsınız?

**VII cüt:** Aşağıda verilmiş XVəsrdə Azərbaycanda inkişaf etmiş sənətkarlıq sahələrinin hər birini cümlədə işlədin:

Metalişləmə, toxuculuq, xalçaçılıq, ipəkçilik.

**VIII cüt:**Kontur **x**əritədə Şamaxı ipəyinin əsas alıcısı olan Avropa dövlətini müəyyənləşdirin:



**IX cüt:** Venn diaqramında iqta və soyurqalın oxşar və fərqli cəhətlərini yazın:




**X cüt:** Klaster sxemində Azərbaycanın XV əsrdə ticarət əlaqəsi saxladığı Avropa dövlətlərinin adlarını yazın:




**Məlumatın mübadiləsi:** Cütlərin işi təqdim olunur. (18 dəqiqə)

**Məlumatın müzakirəsi:** Təqdim olunan işlər müzakirə edilir. (7 dəqiqə)

Müzakirədən sonra şagirdlərə belə bir sualla müraciət edilir ki, “ XV əsr Azərbaycnımızı necə təsəvvür edirsiniz?”

**Nəticənin çıxarılması:** Şagirdlərin məlumatları ümumuləşdirərək müəyyən edilir ki, XV əsrdə Azərbaycanın dövlət quruluşu, torpaq mülkiyyət formaları hansılardır. Bu dövrdə toplanan vergilər əvvəlki dövrdən fərqlənir, eləcədə sənətkarlıq və ticarət əlaqələrinin genişlənmişdir. Bu onunla əlaqədardır ki, o dövrdə mövcud olan Şirvanşahlar, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri müsəlman Şərqinin ən güclü dövlətləri olmuşdur. (3 dəqiqə)

**Qiymətləndirmə:** *Qiymətləndirmə zamanı cütlərin qiymətləndirmə meyarları lövhədə asılır və aşağıdakı meyarlar nəzərdə tutulur (5 dəqiqə)*

1. XV əsrdə dövlət quruluşunu bilmə
2. Torpaq mülkiyyəti və sənətkarlıq sahələrini bilmə
3. Avropa ölkələrini tanıma
4. Xəritəni bilmə
5. Əməkdaşlıq etmə

**Ev tapşırığı:** XV əsrdə Azərbaycanda mövcud olmuş dövlətlər haqqında sadə təqdimat hazırlayın. (1 dəqiqə).

**IX sinif**

**Mövzu:** ***XIX əsrin sonunda Azərbaycanda neft sənayesi və onunla baglı olan sahələr.***

**Standart:** *2.1.1; 3.1.2.*

**Məqsəd:** Azərbaycanın inkişafında neft amilinin əsas olduğunu dəyərləndirir.

*Neft amilinin Azərbaycana Xarici dövlətlərin marağı kimi qiymətləndirir.*

**İnteqrasiya:** *Ü-t: 2.1.1., C. 3.2.3., H-b. 1.2.1.*

***Forma:*** *kollektiv*

***Üsul:*** *Beyin həmləsi, akvarium*

***Resus:*** *dərslik, şəkillər,vidieo material, suallar vərəqi.*

**Qeyd:** *Bu mövzu şagirdlərə öncədən verilir. Şagirdlərə tapşırılır ki, mətinlə tanış olsunlar. Ümumiyyətl, akvarium üsulunun daha səmərəli alınması üçün mövzu şagirdlərə öncədən verilərsə məqsədəmüvafiq olar.*

**Motivasiya:**

XIX əsrə dair film nümayiş etdirilir. Açar sözlərdən istifadə etməklə araşdırıacaq problemi şagirdlər tərəfindən müəyyən edilir.

***Tədqiqat sualı:***

-XIX əsrin 60-70-çi illərində neft sənayesinin inkişafına təsir göstərən amillər hansılardir?

Tədqiqat sualı əsasında şagirdlərin fərziyələri dinlənilir və qeyd olunur.

**Tədqiqatın aparılması**.

Tədqiqatın aparılması akvarium üslu tətbiq edilməklə həyata keçrilir. Sinfin şagirdləri iki qrupa ayrılır .

***I qrupa verilən suallar***

-Bakı neft sənayesində xarici kapitalı kimlər təmsil edirdilər?

-70-80ci illərdə neft sənayesinin inkişafına hansı amillər təsir göstərirdi?

-Neft sənayesinin başqa təsərrüfat sahələri ilə əlaqələri nədən ibarətdir?

Şagirdlər bu suallar əsasında müzakirə aparır öz fikirlərini bildirir.

***II qrup*** kənarda əyləşərək I qrupun müzakirələrini dinləyir və toxunulmayan məsələləri qeyd edir. Verilən vaxt bitdikdən sonra II qrup müzakirəni davam etdirir.

***Akvarium üsulunun tətbiqi zamanı dərsin həm mübadilə həm də müzakirə mərhələsidə aparılmış olur.***

**Nəticənin cıxarılması:**

Beləliklə, neft sənayesi hesabına əldə edilmiş kapitalın məyyən hissəsinin Azərbaycan qəzalarında yeni sahələrə sərf edilməsi ölkənin sosial-iqtisadi ikişafına ciddi təsir göstərirdi.

**Ev tapşırığı:** *"XIXəsrin sonunda Azərbaycanda neft sənayesi və onunla baglı sahələr"mövzusu üzrə test qurun.*

## X sinif

**Dərsin mövzusu:** ***XX əsrin əvvəllərində Azərbaycanın görkəmli şəxsiyyətləri***

**Standartlar:** 4.1.2.

**Məqsəd: 1.** ***XX əsrin əvvəllərində fəaliyyət göstərmiş Azərbaycanın məhşur ziyallılarını müəyyən edir***

***2. Dövrün Ziyallılarına dair təqdimat hazırlayır.***

**İnteqrasiya:** *Ü-t. 4.12., Az-d. 3.1.2.*

**Forma:** Qruplarla iş.

**Üsul:** diskussiya, klaster, BİBÖ.

**Resurslar:** Kitablar, X sinif Azərbaycan tarixi üzrə test kitabcası, marker, Azərbaycan tarixi üzrə mövzu xəritəri, Azərbaycan Respublikasının siyası xəritəsi.

***Qeyd:*** *Bu tapşırıq öncədən şagirdlərə verilir. Tapşırılır ki dövrün şəxsiyyətləri olan M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, F.Xoyski və Ə.Topçubaşov barədə məlumatlar toplasınlar. Şagirdlər müxtəlif materiallarla dərsiə hazır şəkildə gəlirlər.*

**Dərsin mərhələləri:**

**Motivasiya:**

Milli birlik, milli özünüdərk, ideologiya – bunları birləşdirən nədir? *Şəxsiyyətlərin rəsimləri göstərilir. Alınan fərziyələrin nəticəsi olar araşdırılacaq problem müəyyən edilir.*

Motivasiya mərhələsindən sonra sinif qruoplara bölünür və şagirdlər veriləcək tapşırıq əsasında gətirdikləri materiallara istinad edərək təqdimat hazırlayırlar.

**Tədqiqat sualı:**

*M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, F.Xoyski və Ə.Topçubaşovun Azərbaycanın dövlətçilik tarixində rolu nədən ibarətdr?*

**Tədqiqatın aparılması:**

**I qrupun təqdimatı:**. M.Ə.Rəsulzadə

**II qrupun təqdimatı:** Ə.Hüseynzadə

**III qrupun təqdimatı:** F.Xoyski

**IV qrupun təqdimatı:** Ə.Topçubaşov

**Məlumatın mübadiləsi**: *Qruplar öz işini təqdim edir*

**Məlumatın müzakirəsi:** *Təqdimatlar müzakirə olunur*

**Nəticənin çıxarılması**: *Şagirdlər XX əsrin əvvəllərində Azərbaycan tarixində mühüm rol oynamış M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, F.Xoyski və Ə.Topçubaşov haqqında ətraflı araşdırmanın nəticəsini təqdim edir.*

**Ev tapşırığı:** Dörün başqa çəxsiyyətləri haqqında esse yazın.

**Qiymələndirmə:** *Məqsədə uyğun qiymətləndirmə meyarı müəyyən edilərək aparılır.*

**XI sinif**

**Mövzu:** XXI əsrin əvvəllərində xarici siyasətdə uğurlar

**Standartlar: 1.2.2. 3.1.2. 4.1.1.**

**Məqsəd:**

1. XXI əsrin əvvələrinə dair Azərbaycanın xarici siyasətinə dair araşdırma aparır.
2. Azərbaycanın xarici siyasətini qiymətləndirir.
3. İ.Əliyevin xarici siyasətdəki düzgüen addımını dəyərləndirir.

**İnteqrasiya:** Ü-T. 4.1.1. Az-d.1.2.4.

**Form:** kollektiv və fərdi

**Üsul:** *beyin həmləsi, suallar, müzakirə*

**Resurslar:** XI sinif Azərbaycan tarixi dəsliyi, qəzet materialları, Bakı-Ceyhan neft boru kəmərinin layihə xəritəsi, İ.Əliyevin xarici səfərinə dair video-çarxlar, paylayıcı materiallar və s.

*Qeyd: Bildiyimiz kimi, aşağı siniflərdən şagirdlər bu mövzu ilə yaxından tanışdılar. O baxımdan müzakirə olunacaq mövzu kollektiv şəkildə daha səmərəli aparılması üçün şagirdlərə XXI əsr Azərbaycan tarixinə dair araşdırma aparılması öncədən tapşırılır.*

**Motivasiya:**

*Azərbaycanın son dönəmdə əldə etdiyi naliyyətlərə dair video görüntü göstərilir. Sonra şagirdlərə müxtəlif yönləndirici suallar verilir və fərziyyələr alınaraq araşdırılacaq məsələ aydınlaşdırılır.*

**Tədqiqat sualı:** *XXI əsr Azərbaycanın xarici siyasətiki uğuru düzgün seçilmiş strategiyanın nəticəsidirmi?*

*Məlumatın mübadiləsi və müzakirəsi bir yerdə aparılır. Üsul olaraqdan suallar seçildiyinə görə müəllim müzakirəni suallar əsasında qurur. Fərdi olaraqdan bəzi şagirdlərin fikirləri geniş olaraq dinlənilir və qiymətləndirmə yerindəcə aparılır.*

**Nəticənin çıxarılması:** *Şagirdlər aparılan müzakirənin nəticəsi olaraq müəyyən edirlər ki. XXI əsrin əvvələrində Azərbaycanın xarici siyasəti düzgün aparılmışaraş. Bu düzgün siyasət H.Əliyevin siyasətinin davamşısı olan İ.Əliyevin fəaliyyəti kimi dəyərləndirilir.*

## 2.4. Azərbaycan tarixi fənni üzrə məzmun standartlarının şərhi[1]

## V SİNİF

| | I Tarixi zaman | |
|---|---|---|
| ***Standartlar*** | ***Məzmun*** | ***Açar sözlər*** |
| 1.1.1 Tarixi zaman anlayışları arasındakı əlaqələri müəyyənləşdirir. | Tarixi zaman anlayışlarının gün, ay, il, yüzillik, minillik olduğunu, ayın neçə gün, ilin neçə ay, yüzilliyin neçə il, bir minilliyin neçə yüzillik olduğunu bilir, bunlar arasında keçidin qaydalarını və zaman ölçüləri arasında əlaqələri müəyyənləşdirilməsi. | Zaman ölçüləri, zaman ölçüləri arasında keçidlər və onların əlaqəliliyi. |
| 1.1.2 Sadə xronoloji məsələləri həll edir. | Hər hansı bir hadisənin tarixinin müəyyən bir başlanğıc anından (era) hesablanmasını nəzərə alaraq zaman ölçülərindən istifadə etməklə sadə xronoloji məsələləri həll edir və onun xronoloji çərçivəsinin müəyyənləşdirilməsi. | Xronologiya,xronoloji çərçivə. |
| 1.2.1 Maddi və yazılı mənbələri fərqləndirir. | Tarixi mənbələr maddi və yazılı olmaqla iki əsas qrupa bölünür. Qədim yaşayış məskənləri, qəbir abidələri və qazıntılar zamanı əldə olunan, muzey və arxivlərdə saxlanılan müxtəlif əşyalardan ibarət maddi mənbələri, miniatür rəsmlər və salnamələri, ədəbi və tarixi əsərləri, qanun, sərəncam və məhkəmə qərarlarını əks etdirən yazılı mənbələri müəyənləşdirir və onların fərqləndirilməsi. | Mənbə,maddi mənbə- lər, yazılı mənbələr. |
| 1.2.2 İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır. | İnternetdən, muzeylərdən, dərsliklərdən və s. yerlərdən götürülmüş illüstrasiya, şəkil və sənədləri təhlil edir, etibarlı olanlarını seçir, onlardan istifadə edərək nəzərdə tutulan məsələni araşdırır. Beləliklə, şagird dərsdə keçmiş tarixi biliklərin mənbəyini göstərməklə yanaşı, özündə tarixi məlumatın təhlili vərdişlərini də inkişaf etdirilməsi. | Tarixi tədqiqat, illüstrasiya, sənəd, şəkil. |
| 1.3.1 İnsanın həyat tərzindəki dəyişiklikləri öz ailəsi nümunəsində təsvir edir. | Ailəsinin şəcərə tarixini tərtib edir, buradakı məlumatlara əsasən hansı nəslə mənsub olduğunu, həmin nəslin inkişaf mərhələlərini, öz ata və anasının həyat tarixcəsini, konkret olaraq onların həyat tərzindəki dəyişiklikləri, bu dəyişikliklərin müsbət və mənfi tərəflərini, problemləri və s. təsvir edilməsi. | Şəcərə tarixi,soy kökü, nəsil. |
| **2. Tarixi məkan** | | |
| 2.1.1 İnsan və cəmiyyətin həyatı üçün əlverişli təbii şəraiti | Əlverişli təbii şəraitin, səfalı yaylaqların, bağlı-bağatlı, min bir nemətli vadilərin, bərəkətli düzlərin, bol sulu çayların, göllərin, ovalıqların, sıx meşələrin, ucsuz-bucaqsız çöllərin, qışlaqların olmasının burada qədim insanların məskunlaş-masına, ilk | Təbii- coğrafi şərait, ticarət yolları,təbii sərvətlər, ilk insan. |

[1] **Məzmun standartalrının şərhinə aid verilmiş izahlar və aşar sözlər ancaq tövsiyə xarakteri daşıyır. Siniflər üzrə şagirdlərin inkişaf səviyyəsinə və marağına uyğun olaraq müvafiq dəyişikliklər və əlavələr etməklə onlara yaradıcı yanaşmaq məqsədəuyğun hesab edilir.**

| | | |
|---|---|---|
| təsvir edir. | cəmiyyətlərin yaranmasına səbəb olmasını , ölkənin qərbdən şərqə, cənubdan şimala gedən ticarət yollarının üstündə olmasının da bu işə müsbət təsirini təsvir edilməsi. | |
| 2.1.2 Xəritələrdə Azərbaycanın ərazisini və mühüm tarixi abidələri müəyyənləşdirir. | Tarixən Azərbaycanın şimaldan Dağıstan, cənubdan İran, qərbdən Gürcüstan, indiki Ermənistan ( Qərbi Azərbaycan) və Türkiyə, şərqdən isə Xəzər dənizi ilə sərhədlənməsini, onun ərazisində─Qarabağda Azıx mağarasının, Bakı şəhə-rindən təxminən 55 km cənubda Qobustan qaya təsvirlə-rinin, Araz çayı üzərində Xudafərin körpüsünün, Bakıda Qız qalasının, ölkənin şimalında Dərbənd səddinın, Naxçıvanda Mömünə Xatın türbəsinin, Təbrizdə "Həşt-behşt" sarayının, Şəkidə Xan sarayının və s. yerləşməsinin müəyyənləşdirilməsi. | Qədim və müasir Azərbaycan ərazisi, tarixi abidələri.<br>. |
| | **3.Dövlət** | |
| 3.1.1 Azərbaycan dövlətləri haqqında sadə bilikləri nümayiş etdirir. | Beş min il bundan əvvəldən başlayaraq Azərbaycan ərazisində yaranmış Manna dövləti, İskit (Skif) padşahlığı, Atropatena, Albaniya, Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Eldənizlər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi dövlətləri, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan Respublikası haqqında, onların xarici işğalçılara qarşı qəhrəmanlıq mübarizəsi, dünya mədəniyyətinə verdikləri töhvələr haqqında sadə biliklərin nümayiş etdirilməsi. | Azərbaycan dövlətləri,<br>dövlətlərin xronoloji çərçivələri,dövlət quruluşu formaları,<br>əhatə etdiyi ərazilər. |
| 3.1.2 Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir. | Cəmiyyətin sosial həyatının tənzimləməsində, ayrı-ayrı sosial qruplar arasında münaqişələrin qarşısının alınmasında, iqtisadi funksiyaların həyata keçirilməsində, insan hüquqlarının qorunmasında, ölkənin xarici təcavüzdən müdafiə olunmasında, təhsilin inkişafında və s. dövlətin rolunu dəyərləndirilməsi. | Sosial həyat,dövlətin rolu,münaqişələrin həll,<br>xarici təcavüzdən müdafiə, təhsilin inkişafı. |
| 3.1.3 Kiçik həcmli hekayə qurur. | Ölkənin xarici işğallardan qorunması ilə bağlı Azərbaycan tarixindən öyrəndiyi qəhrəmanlıq nümunələri (Tomiris, Cavanşir, Babək, Qaçaq Nəbi, Mehdi Hüseynzadə və b.) əsasında kiçik həcmli hekayə qurulması. | Tomiris, Cavanşir, Babək, Qaçaq Nəbi, Mehdi Hüseynzadə və b. |
| **4. Şəxsiyyət** | | |
| 4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri (İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Sara xatun, Şah I İsmayıl, | Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlə-rin (İranzu, Tomiris, Atropat, Cavanşir, Babək, Şəmsəddin Eldəniz, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Hacı Çələbi, Pənahəli xan, Cavad xan, Səttarxan, Ə. Şıxlinski, S. Mehmandarov, Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, N. Nərimanov, Mehdi Hüseynzadə, Heydər Əliyev, İlham Əliyev və b.) dövlətçiliyin qorunması və möhkəmləndirilməsində mövqeyini, cəmiyyətlə bağlılığını, xalq qarşısında xidmətlərini müəyyənləşdirilməsi. | Tarixi şəxsiyyətlər,<br>onlara məxsus səciyyəvi keyfiyyətlər,<br>dövlətçiliyin qorun-masında xidmətləri, cəmiyyətlə bağlılığı. |

| | | |
|---|---|---|
| Cavad xan, Məmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev) müəyyən edir. | | |
| 4.1.2 Mənbələrə əsasən şəxsiyyətlər haqqında təqdimatlar hazırlayır. | İnternetdən, ensklopediyalardan, tarixi əsərlərdən, elmi- kütləvi ədəbiyyat nümunələrindən istifadə etməklə Azərbaycan tarixində mühüm rol oynamış, öz dövründə cəmiyyətdə baş verən hadisələrdən düzgün nəticə çıxaran, onların inkişafı istiqamətlərini görə bilən, xalq kütlələrinin mübarizəsinə rəhbərlik etməyi bacaran tarixi şəxsiyyətlər haqqında təqdimatların hazırlanması. | Mənbələrin təsnifatı, onların dövrə uyğunluğu,etibarlığı |
| **5. Mədəniyyət** | | |
| 5.1.1 Mədəniyyət abidələrinin əhəmiyyətini izah edir. | Tarixin yadigarı olan mədəniyyət abidələrinin, memarlıq tikililərinin, arxeoloji qazıntılar nəticəsində əldə edilmiş əmək alətlərinin, ev əşyalarının və təsərrüfatda işlədilən müxtəlif əşyaların ulu babalarımızın min illər bundan əvvəl yüksək mədəniyyətə malik olduğunu göstərən inkaredilməz sübutlar olmasının əhəmiyyətinin izah edilməsi. | Mədəniyyət abidələri, .arxeoloji qazıntılar nəticəsində əldə edilmiş əşyalar,.əmək alətləri, memarlıq tikililəri. |
| 5.1.2 Milli mənəvi dəyərləri fərqləndirir. | Milli mənəvi dəyərləri, dini dünyagörüşləri, adət-ənənələri, bayramları fərqləndirir, onların insanın yaşayış tərzindəki yerinin müəyyənləşdirilməsi. | Milli mənəvi dəyərlər, adət-ənənələr, bayramlar. |
| 5.1.3 Azərbaycan mədəniyyəti ilə bağlı sadə təqdimatlar hazırlayır. | Dərsliyin mətni və əlavə ədəbiyyatlar əsasında Nəsrəddin Tusi, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Hacı Zeynalabdin Tağıyev, Cəlil Məmmədquluzadə və.b fəaliyyəti haqqında təqdimatların hazırlanılması. | “Marağa rəsədxanası”, .”Elm və müdriklər evi”, “ Ulduz qlobusu”, “Əkinçi” qəzeti, Böyük xeyriyyəçi, ”.Molla Nəsrəddin” məcmuəsi. |

## VI sinif

| **1. Tarixi zaman** | | |
|---|---|---|
| **Standartlar** | **Məzmun** | **Açar sözlər** |
| 1.1.1. Mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini | Şərti olaraq qəbul edilmişdir ki, İsanın yer üzündə dünyaya gəlməsi ilə tarixdə yeni era başlanmışdır. Bu hadisə müsəlman aləmində “Milad” (anadan olma) adlanır. Həmin ildən bu günə qədər olan dövr bizim era (b.e.), bundan əvvəl olan dövr isə – bizim eradan əvvəl | Miladi tarixi, hicri tarixi, bizim era, bizim eradan əvvəl, |

| | | |
|---|---|---|
| müəyyənləşdirir. | (b.e.ə.) kimi qəbul edilmişdir. Dünya ölkələinin əksəriyyətində, həmcinin hal-hazırda Azərbaycanda da bu təqvimdən istifadə edilir. Həmin təqvimlə hər hansı mühüm bir tarixi hadisə, proses və təzahürün başlanğıc və sonunu bilməklə onun xronoloji çərçivəsi müəyyənləşdirilir. Nəzərə almaq lazımdr ki, Azərbaycanda uzun müddət Hicri təqvimindən istifadə olunması. | təqvim. |
| 1.1.2. Mühüm hadisə, proses və təzahürləri zaman oxunda təsvir edir. | Eradan əvvəlki tarixlər milada yaxınlaşdıqca kiçilir, miladdan sonra bu günümüzə yaxınlaşdıqca çoxalır. Miladdan əvvəlki dövrdə böyük olan bir tarix (b.e.ə. V əsr), sayca kiçik olan tarixdən (e.ə. 3-dən) daha qədimdir, miladdan sonrakı xətdə olan hər bir kiçk rəqəmin böyük olan rəqəmdən daha qədim. olmasını təsvir edir.Belə ki,zaman oxunda bir qayda olaraq böyük rəqəmlər (1900, 2000, 2011) yaxın zamanların göstərilməsi. | .Zaman oxu,onun təsviri,istifadə qaydaları. |
| 1.2.1. Dövrün öyrənilməsində maddi və yazılı mənbələrin rolunu izah edir. | Azərbaycanın qədim tarixi arxeoloji, etnoqrafik, antropoloji və yazılı qaynaqlar əsasında öyrənilməsi. Belə ki,arxeoloji qazıntılar zamanı aşkar edilmiş əşyalar Azəbaycanın maddi-mədəniyyət tarixini, tarixi qaynaqlar və ekspedisiyalar zamanı toplanan etnoqrafik materiallar adət-ənənələri, maddi-mənəvi mədəniyyəti, keçmiş idarə formalarını, ailə münasibətlərini və s. öyrənməyə imkan verilməsi.<br>Bununla belə yazılı mənbələrin xüsusi elmi əhəmiyyətə malik olmasını, onların Azərbaycandakı siyasi hadisələri, dövlət quruluşlarını, təsərrüfatı, sənətkarlığı, peşələri, tarixi şəxsiyyətləri, hərb tarixini, xalq hərəkatlarını, dini təsəvvürləri öyrənməyə imkan verməsinin izah edilməsi. | Arxeologiya,<br>etnoqrafiya,<br>antropologiya,<br>maddi mənbələr,<br>yazılı mənbələr. |
| 1.2.2. İllustirasiya və yaxud muzey eksponatları əsasında sadə təqdimatlar aparır. | Azərbaycanın qədim tarixini, əhalinin milli və sosial tərkibini, yaşayış tərzini, idarəçilik formalarını, təsərüffat fəaliyyətini, mədəni inkişafını, adət və ənənələrini, dövlət quruluşlarını və s. öyrənmək üçün illustrasiya və muzey eksponatları əsasında tədqiqatlar aparırlaraq onların təqdim edilməsi. | Muzey.materialları,<br>illustirasiyalar, eksponatlar. |
| 1.3.1. İnsanların birgə | Birgəyaşayış forması olan ulu icmanın kortəbii şəkildə, təbiət hadisələri qarşısında aciz | Ulu icma, qəbilə icması, tayfa, tayfa |

| | | |
|---|---|---|
| yaşayışının müxtəlif formalarını fərqləndirir. | qalmamaq məcburiyyətindən yaranmasını, tez dağılmasını və yenidən bərpa edilməsini, onu qəbilə icmasının,<br>daha sonra , tayfa ittifaqlarının, dövlət qurumlarının, dövlətlərin yarannmasının əvəz etməsini əsaslandırır və onları fərqləndirilməsi. | ittifaqları,dövlət qurumu, dövlət. |
| **2. Tarixi məkan** | | |
| 2.1.1. Qədim insanların həyat tərzini və məşğuliyyətini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir. | Azərbaycan ərazisində əlverişli təbii-coğrafi şəraitin- çayların, göllərin, məhsuldar torpaqların, həmçinin zəngin faydalı filiz yataqlarının (dəmir, mis, qurğuşun, qızıl, gümüş, mərmər, duz və s.) olması, qərbdən şərqə, cənubdan şimala gedən, Avropa və Asiyanı əlaqələndirən ticarət yolları üzərində yerləşməsi və bu yollarla daim ticarət aparılması burada insanların həyat tərzinə və məşğuliyyətinə öz müsbət təsirini göstərdiyini müəyyənləşdirilməsi. | Təbii-coğrafi şərait,<br>faydalı qazıntılar,<br>ticarət yolları,yerli əhalinin əmək sevər olması. |
| 2.1.2. Xəritələrdə Azərbaycan ərazisində ilk insan məskənlərini, dövlət qurumları və qədim dövlətlərin yerini müəyyənləşdirir. | Azərbaycanda ilk insan dəstələrinin 1,5 milyon il bundan əvvəl meydana gəlməsini, qədim insanların yaşadığı düşərgələrin Qarabağ, Qazax, Naxçıvan, Kəlbəcər, Lerik, Yardımlı bölgələrində aşkar edilməsini, b.e.ə III minillikdən Aratta, Lullubi, Kuti dövlət qurumlarının, daha sonra Manna, İskit (Skif), Atropatena, Albaniya dövlətlərinin mövcud olmasını müəyyənləşdirilməsi. | İlk insan məskənləri,<br>dövlət qurumları,<br>ilk dövlətlər. |
| **Dövlət** | | |
| 3.1.1. Azərbaycanda dövlət qurumları və qədim dövlətlərin yaranmasını, idarə olunmasını, sosial-iqtisadi münasibətləri təsvir edir. | Qədim dövrdə Azərbaycanda Aratta, Lullubi, Kuti dövlət qurumları, Manna, İskit (Skif), Atropatena, Albaniya dövlətlərinin yaranması, inkişaf etməsi, hər birinin özünəməxsus dövlət quruluşu, idarəçilik formalarının olması və sosial – istisadi tədbirlər həyata keçirməsini, zaman keçdikcə bu dövlətlərin tənəzzülə uğraması səbəblərinin təsvir edilməsi. | Dövlət qurumları,<br>qədim dövlətlər,<br>İdarəçilik formaları, sosial-iqtisadi tədbirlər,dövlətlərin tənəzzülü səbəbləri. |
| 3.1.2.Qədim dövlətlərin daxili və xarici siyasətini izah | E.ə. IX-VIII əsrlərin hüdudlarında, xüsusilə İranzunun dövründə Mannanın müstəqil xarici və daxili siyasət yeritməsini, güclü bir dövlətə çevrilməsini, lakin onun ölümündən sonra ölkədə daxili çəkişmələrin artmasının onun siyasi müstəqilliyini itirməsinə səbəb | Manna dövləti,<br>Atropatena dövləti,<br>Albaniya dövləti, |

| | | |
|---|---|---|
| edir. | olmasını, Makedoniyalı İsgəndərin ölümündən sonra e.ə. IV əsrin 20-ci illərində Azərbaycanın cənubunda Atropatena və şimalında Albaniya dövlətinin yaranmasını, onların öz müstəqilliklərini qoruyub saxlamaq üçün xarici işğalçılara qarşı mübarizə aparmasını, bəzən daha güclü dövlətlərin təsirinə məruz qalmalarını, hər ikisinin əvvəl Sasani və daha sonra isə Ərəb xilafətinin tərkibinə qatılması səbəblərinin izah edilməsi. | daxili müstəqillik,<br>siyasi müstəqillik. |
| 3.1.3 Qədim Azərbaycan dövlətləri haqqında mənbələr əsasında məlumatlar toplayır, təqdimat hazırlayır. | İnternetdən, ensiklopediyalardan, qaynaqlardan, həmçinin Azərbaycan tarixi ilə bağlı ədəbiyyatdan qədim Azərbaycan dövlətləri haqqında toplanmış materialları təhlil edərək təqdim edilməsi. | İnternet materialları,<br>ensiklopediya,<br>tarixi ədəbiyyat. |
| | 4. Şəxsiyyət | |
| 4.1.1. Dövlətlərin yaranmasında, inkişafında tarixi şəxsiyyətlərin (İranzu, Tomiris, Atropat, Oroys) rolunu dəyərləndirir. | Dövlətin yaranmasında, inkişafında, ölkənin müstəqil-liyinin qorunmasında, sərhədlərinin toxunulmazlığının təmin edilməsində tarixi şəxsiyyətlərin (İranzu, Aza, Ullusunu, Ahşeri, Tomiris, Atropat, Oroys, Kozis və b.) rolunu, onların öz dövrlərində cəmiyyətdə baş verən hadisələrdən baş aça bilmələrini, ölkənin iqtisadi və siyasi cəhətdən inkişafını təmin etməyə cəhd göstərmələrinin dəyərləndirilməsi. | Şəxsiyyət anlayışı,<br>şəxsiyyət və cəmiyyət,şəxsiyyətin rolu. |
| 4.1.2. Tarixi şəxsiyyətlər haqqında kiçik hekayə qurur. | İnternetdən, ensiklopediyalardan, tarixi və bədii əsərlərdən məlumatlar toplayaraq təhlil edir və şəxsiyyətləri xarakterizə edən kiçik hekayələrin qurulması. | İranzu, Tomiris,<br>Atropat, Cavanşir. |
| **5.Mədəniyyət** | | |
| 5.1.1. Sivilizasiyaya qədərki və sivilizasiya dövrünün | Azərbaycan türkləriinn silivizasiyaya qədərki dövr mədəni inkişafını Quruçay, Qarabag, Naxçıvan, Kəlbəcər, Lerik, Qazax, Gəncə, Kür-Araz, Xocalı, Gədəbəy maddi-mədəni nümunələri, Qobustan rəsmləri əsasında öyrənir və təhlil edir, silivizasiya dövründə bu | Sivilizasiya,<br>sivilizasiyaya qədər,<br>Quruçay,Kür-Araz, |

| | | |
|---|---|---|
| mədəniyyətini izah edir. | prosesin davamını Manna, Atropatena, Albaniya dövlətlərinin timsalında əsaslandırır, həmin ərazilərdə memarlıq və incəsənətin, sənətkarlığın inkişaf etməsini, yazının yaranmasının izah edilməsi. | Xocalı-Gədəbəy, Talış-Muğan mədəniyyəti. |
| 5.1.2. Azərbaycanın mədəniyyətinin müxtəlif xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqələrini izah edir. | Azərbaycan mədəniyyətinin Yunan, Roma, Xilafət, Çin, Hindistan, Babilistan və s. ölkələrin mədəniyyətləri. ilə qarşılıqlı əlaqədə yaranıb inkişaf etməsinin izah edilməsi. | Yunan, Roma, Xilafət ölkələri, Çin, Hindistan və.s.ilə qarşılıqlı əlaqə |
| 5.1.3. Mədəni əlaqələrə dair cədvəllər tərtib edir. | İnternetdən, ensklopediyalardan, dərsliklərdən istifadə etməklə Azərbaycan dövlətlərinin (Manna, Atropatena, Albaniya) öz aralarında və qonşu dövlətlərlə mədəni əlaqələrinə dair cədvəllərin hazırlanması. | Roma, Assuriya, Mesopotamiya, Ərəb dövləti və Sasanilərlə mədəni əlaqələrə dair sinxron cədvəllər. |

## VII SİNİF

| Standartlar | Məzmun | Açar sözlər |
|---|---|---|
| **Tarixi zaman** | | |
| 1.1.1. Mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müqayisə edir. | Tarixdə mühüm hadisə, proses və təzahürlər müəyyən bir xronoloji çərçivə daxilində fəaliyyət göstərir,bir-birini izləyir və tamamlayır. Məsələn, Azərbaycanın III əsrdən VII əsrin ortalarınadək Sasani imperiyasının, VII əsrin ortalarından IX əsrin ortalarınadək Ərəb xilafətinin tərkibində olmuş, bundan sonra Azərbaycanda müstəqil feodal dövlətləri yaranmış, onların hər birinin xronoloji çərçivəsi olmuşdur. Həmin ölkələrin tarixində baş verən hadisələrin də hər birinin xronoloji çərçivəsi olsa da, onların ümumi çərçivədən kənara çıxmadığını müəyləşdiririlməsi və müqayisə ediiməsi. | Sasani-İran imperiyası, Ərəb xilafəti, Azərbaycan feodal dövlətləri, vahid xalq |
| 1.1.2.Tarixi zaman və hadisələr arasında əlaqələrə dair müxtəlif sxem və cədvəllər tərtib edir. | Azərbaycan III-VII əsrlərdə Sasani imperiyasının, VII-IX əsrlərdə Ərəb xilafətinin tərkibində olması, IX əsrin ikinci yarısından başlayaraq dövlətçiliyin bərpası və müstəqil dövlətlərin yaranması barədə müxtəlif sxem və cədvəllərin tərtib edilməsi. | İmperiya,Xilafət,feodal münasibətlərinin inkişafı,dövlətçiliyin bərpası və müstəqil dövlətlərin yaranması |
| 1.2.1. Dövrə aid yazılı və maddi | Dövrə aid yazılı və maddi mənbələrin əlaqələndirilməsinin tarixin öyrənilməsində böyük əhəmiyyət kəsb etməsini izah edir, Bəkr əl-Tehrani əl-İsfahaninin yazdığı “Kitabi- | Əl-İsfahaninin “Kitabi Diyarləkriyə”, Musa Kalankatlının “Alban |

| | | |
|---|---|---|
| mənbələri əlaqələndirir. | Diyarbəkriyyə" adlanan Oğuznamədə Dərbənd keçidi ilə bağlı faktları, oğuzların hansı ərazilərdə yaşadıqlarını, Mingəçevirdə qazıntılar zamanı aşkar edilmiş qısamətnli epiqrafiq yazılara əsasən albanların özünəməxsus yazılarının olması faktını, Musa Kalankatlının "Alban tarixi" əsərində Albaniyanın real tarixinin verilməsinin və.s. əlaqələndirilməsi. | tarixi"əsərləri,Dəvdəkin Cavanşirin ölmü ilə bağlı mərsiyyəsi,qədim Azərbaycan əlifbası. |
| 1.2.2 Öyrəndiyi dövrə aid yazılı mənbələr üzərində işləyir. | IX əsrin ikinci yarısı-XI əsrin ortalarında "Kitabi-Dədə Qorqud" dastanın yayıldığı geniş ərazilərdə Azərbaycan xalqının yaşadığını, dastanın yaranmasında Ağqoyunlu tayfalarının rolunu, onların arasında birliyin olmasını, doğma torpağa, yurd-yuvaya bağlılıqlarını, xalqımızın "Qara-donlu kafirlərə" qarşı apardıqları mübarizəni, onların təsərrüfat həyatını, qonşularla münasibətlərini, dini inamlarını öyrənməkdə dastanın tutarlı bir mənbə olduğunu izlənilməsi və onun üzərində işlənilməsi. | ."Kitabi-Dədə Qorqud" dastanı, Oguz türkləri,<br>Ağqoyunlu tayfaları,<br>"Qara donlu kafirlər." |
| 1.3.1.Azərbaycan ərazisində yaşamış insanların həyat tərzi və məşğuliy-yətində baş vermiş dəyişiklikləri müəyyənləşdirir. | III-V əsrlərdə Azərbaycanda yaranmağa başlayan feodalizm münasibətlərinin IX-X əsrlərdə inkişaf etdiyini, cəmiyyətin əsas istehsalçısının kəndlilər olmasını, onların başlıca olaraq uluclara və azadlara bölünməsini, irsi keçən mülk torpaqlarının geniş yayılmasını, camaat (icma) torpaqlarının dövlət mül-kiyyətində olmasını, hökmdar ailəsinə və sülalələrə məxsus xassə torpaqlarının mövcudluğunu, divan torpaqlarının dövlətə məxsusluğunu, iqta adlanan şərti torpaq mülkiyyətinin olmasını, torpaqdan istifadə müqabilində kəndlilərdən xərac alınmasını, müsəlman əhalisinin xərac və sədəqə (zəkat), müsəlman olmayanların cizyə verməsinin müəyyənləşdirilməsi. | Cəmiyyət,kəndli təbəqələri:uluclar və azadlar,feodal torpaq mülkiyyəti növləri,irsi torpaq mülkiyyəti,şərti torpaq mülkiyyəti,<br>xərac və sədəqə,ciziyə. |
| | **2. Tarixi məkan.** | |
| 2.1.1 Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri izah edir. | Azərbaycanda müxtəli təsərrufat sahələri və istehsal münasibətlərinin inkişafını ölkənin əlverişli coğrafi mövqeyi və təbi amilləri-məhsuldar torpaqları, şirin sulu çayları və gölləri,yemlə bol yaylaqları və qışlaqları, faydalı yeraltı və yerüstü sərvətləri və s. əlaqələndirərək izah edilməsi. | Coğrafi mövqe,süni suvarma,dənli bitkilər, ipəkçilik,bağçılıq,<br>maldarlıq,faydalı qazıntılar,balıqçılıq. |
| 2.1.2 Dövrə aid xəritə və xəritə sxemlərdəki müxtəlif tarixi | Dövrə aid xəritə və xəritə - sxemlərdən dövlətin yerləşdiyi əraziyə, onun coğrafi mövqeyinə, şəhərlərinə, döyüş yerlərinə, ticarət yollarına, təsərrufat həyatına, mədəniyyət nümunələrinə, inzibati bölgüsünə, dəniz və çaylarına, təbii sərvətlərinə dair məlumatlar toplayaraq onların izah edilməsi. | Ərazinin coğrafi mövqeyi,ticarət yolları, mədəniyyət nümunələri,<br>dəniz və çayları,təbii sərvətləri. |

| | | |
|---|---|---|
| hadisə, proses və təzahürlərə dair məlumatları izah edir | | |
| | **3. Dövlət** | |
| 3.1.1 Azərbaycan feodal dövlətlərinin inkişafı, müstəqilliyini itirməsi və siyasi müstəqilliyinin bərpası səbəblərini şərh edir. | Azərbaycan eramızın III əsrində Sasani imperiyasının, VII əsrdə isə Ərəb xilafətinin işğal etməsini, işğalçılar tərəfindən ölkəyə çoxlu fars və ərəb mənşəli əhalinin köçürülməsini, lakin bu halın xalqının təşəkkülü prosesini dayandıra bilməməsini, əksinə uzun tarixi dövr ərzində Azərbaycanın bütöv halda həmin imperiyaların tərkibində olması nəticəsində ölkənin bölgələri arasında əlaqələrin daha da genişlənməsini, işğalçılara qarşı mübarizə şəraitində vahid xalqın yaranması prosesinin sürətlənməsini, IX əsrin ortalarından başlayaraq xilafətin zəifləməsi nəticəsində qədim dövlətçilik ənənələrinin yenidən dirçəlməsini, Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər dövlətlərinin yaranması və inkişafı səbəblərin şərh edtməsi. | .Sasani imperiyası və Ərəb xilafəti tərkibində iqtisadi və mədəni birliyin yaranması,<br>dövlətçiliyin bərpası. |
| 3.1.2 Azərbaycanda dövlətçilik ənənələrinin inkişafı xüsusiyyətlərini dəyərləndirir. | Azərbaycanın qədim dövlətçilik ənənələrinin dirçəlişinin böyük əhəmiyyətə malik hadisə olmasını, bütün bu dövlətlərin hamısında islam dininin rəsmi din olmasının Azərbaycan xalqının etnik təkamülündə, vahid türk dilinin və mədəniyyətinin tərəqqisində, türk tayfalarının, həmçinin onlarla qaynayıb qarışmış qeyri-türk qruplarının yadelli qəsbkarlara qarşı vahid qüvvə halında birləşməsində mütərəqqi rol oynamasını, bunun nəticəsində vahid xristian cəbhəsinin Azərbaycan torpaqlarını ələ keçirmək planının boşa çıxmasını, bununla belə IX-XI əsrlərdə Azərbaycan dövlətlərindən heç birinin ölkədə uzun müddətli sabitlik yarada bilməməsinin ölkədə feodal dağınıqlığı və ara müharibələri dövrünün başlanmasına təsirini dəyərləndirir. | Dövlətçilik ənənələri, Azərbaycanda vahid dövlətin olmaması,<br>feodal dağınıqlığı,<br>ara müharibələri, xalqın təkamülündə islam dininin rolu. |
| 3.1.3 Feodal dövlətləri ilə bağlı cədvəllər hazırlayır. | IX əsrin ikinci yarısında Xilafətin süqutu ilə Azərbaycanda dövlətçiliyin dirçəlməsi, yeni feodal dövlətlərin yaranması, onların siyasi, iqtisadi və mədəni inkişafı ilə bağlı məlumatlar əsasında müxtəlif cədvəllər hazırlaması. | Şirvanşahlar,Sacilər,<br>Salarilər,Şəddadilər,<br>Rəvvadilər. |
| | **4. Şəxsiyyət** | |
| 4.1.1. Tarixi şəxsiyyətləri (Cavanşir, Babək, Yusif Əbu Sac, Şəmsəddin Eldəniz, | Tarixi şəxsiyyətləri (Cavanşir, Babək, Yezid ibn Məziyəd, Əbu Sac Divdad, Yusif ibn Əbu Sac, Mərzban ibn Məhəmməd, Fəzl ibn Məhəmməd, Şəmsəddin Eldəniz, Axsitan, I İbrahim Xəlilullah, Qara Yusif, Uzun Həsən, Sara Xatın və b.) dövlətçiliyin bərpası, qorunması və inkişafında, ölkənin daxili və xarici siyasətində, siyasi-iqtisadi müstəqilliyinin təmin edilməsində, mədəniyyətin və mədəni əlaqələrin təşkili | Dövlətçiliyin bərpası,<br>dövlətin qorunması,<br>idarəetmə formaları, dövlətinn daxili və xarici siyasəti,müstəqilliyin təmin edilməsi, mədəni əlaqələrin təşkili. |

| | | |
|---|---|---|
| İbrahim Xəlilullah, Qara Yusif, Uzun Həsən) oxşar və fərqli cəhətlərinə görə təhlil edir. | istiqamətində gördüyü işləri oxşar və fərqli cəhətlərinə görə təhlil etməsi. | |
| 4.1.2. Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı sxem və cədvəllər hazırlayır. | Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər dövlətlərinin hökmdarlarının oxşar və fərqli cəhətləri ilə bağlı cədvəllər hazırlaması. | Dövlətin yaradılmasında rolu, ordu quruculuğu sahəsində xidmətləri, mərkəzləşmiş dövlətin yaradılması təşəbbüsü, daxili və xarici siyasəti, mədəni əlaqələri. |
| | **5. Mədəniyyət** | |
| 5.1.1.Mədəniyyətin inkişaf mərhələlərini dəyərləndirir. | IX əsrin ortalarından başlayaraq Azərbaycan mədəniyyətinin inkişaf mərhələlərini, Azərbaycan mütəfəkkirlərinin Xilafət imperiyasının sərhədləri daxilində baş vermiş mədəni oyanışda, müsəlman intibahı adlanan mədəniyyətin yaranmasında yaxından iştiraknı, Azərbaycan türk dilinin bütün ölkə ərazisində vahid ünsiyyət vasitəsinə çevrilməsini dəyərləndirməsi. | Sasani və Ərəb işğalından sonra Azərbaycanda müstəqil dövlətlərin yaranması- nın mədəni inkişafa təsiri,intibah mədəniyyəti. |
| 5.1.2. Milli mədəni dəyərlərin formalaşmasına dinlərin təsirini dəyərləndirir. | İslamı qəbul etmiş xalqların bir-birinə faydalı təsiri mədəniyyətin bütün sahələrində onları yaxınlaşdıran ümumi əlamətlər kimi meydana çıxmasını, mədrəsələrdə və məktəblərdə dini və həmçinin dünyəvi elmlərin öyrədilməsini, ümumi islam mədəniyyətinin zənginləşməsində Xilafətə tabe olan bütün xalqların, o cümlədən Azərbaycan xalqının yaxından iştirakını dəyərləndirməsi. | İslam mədəniyyəti, ərəb şərqnin mədəniyyət mərkəzləri, islam şərqində məşhur olan Azərbaycanlı alimlər və onların islam mədəniyyətinə verdiyi töhfələr. |
| 5.1.3. Mədəniyyətin inkişaf mərhələlərini əks etdirən təqdimatlar hazırlayır. | İnternetdən, ensiklopediyalardan, sənədlərdən, tarixi kitablar və dərsliklərdən istifadə edərək Azərbaycan mədəniyyətinin mərhələlərini əks etdirən təqdimatlar hazırlaması:<br>1. Sivilizasiyayaqədərki mədəniyyət.<br>2. Antik mədəniyyət.<br>3. İslam mədəniyyəti.<br>4. İntibah mədəniyyəti. | Sivilizasiyayaqədərki mədəniyyət, antik mədəniyyət, islam mədəniyyəti, intibah mədəniyyəti. |

## VIII sinif

| | **1.Tarixi zaman** | |
|---|---|---|
| **Standartlar** | **Məzmun** | **Açar sözlər** |
| 1.1.1.Azərbaycan və dünya ölkələrində baş vermiş mühüm hadisə, proses və təzahürlərin sinxronluğunu izah edir. | Azərbaycan və dünya ölkələrində baş vermiş, qarşılıqlı münasibətdə olan mühüm hadisə, proses və təzahürlərin sinxronluğunu, müxtəlif ölkə və yaxud tarixi prosesin müxtəlif cəhətlərinə aid olan tarixi faktların eyni zamana düşməsini izah etməsi. | Xronologiya, sinxronluq. |
| 1.1.2. Hadisə və proseslərin zamana görə əlaqələndirilməsinə dair tematik sinxron cədvəllər hazırlayır. | Dünya ölkələrində baş verən hadisə və proseslərin zamana görə Azərbaycanla əlaqələndirilməsinə dair tematik sinxron cədvəllər hazırlaması. | Tematik sinxron cədvəllər. |
| 1.2.1. Dövrə aid hadisə, proses və təzahürləri verilmiş yazılı mənbələrlə əlaqələndirir. | Dövrə aid hadisə, proses və təzahürləri həmin dövrdə yazılmış mənbələrlə əlaqələndiriımə və təhlil edilməsi. | Türk səyyahı Övliya Çələbinin Bakının ticarət əlaqələri və nefti haqqında məlumatları və başqaları. |
| 1.2.2. Öyrəndiyi dövrə aid yazılı mənbələri təhlil edir, nəticələrini təqdim edir. | Mərkəzləşdirilmiş Azərbaycan dövlətinin yaranması və onun tarixi əhəmiyyəti haqqında internetdən, ensiklopediyadan, ilk qaynaqlardan, tarixi ədəbiyyatlardan və dərsliklərdən materiallar toplayıb ümumiləşdirərək nəticələrini plan əsasında təqdim etməsi: | Mərkəzləşmiş dövlət, onun əlamətləri, tarixi əhəmiyyəti, imperiyaya çevrilməsi. |

| | | |
|---|---|---|
| 1.3.1. Azərbaycan ərazisində yaşasmış insanların həyat tərzi və məşğuliyyətlərin-də baş vermiş dəyişiklikləri izləyir və onların səbəblərini izah edir. | XVII əsrdə Azərbaycanda mövcud olan torpaq mülkiyyəti formalarının əvvəlki dövrlərdə, xüsusən XVI əsrdə olduğundan az fərqlənməsini, ölkədə dövlət torpaqları (divan); şah və onun ailəsinin xüsusi torpaq mülkiyyəti (xalisə); hərbi və mükli məmurlara məxsus şərti torpaq sahələri (tiyul); məscidlər və dini idarələrə məxsus torpaqları (vəqf); xüsusi mülkiyyətdə olan torpaqları (mülk); icma torpaqları (camaat) kimi torpaq mülkiyyəti formalarının mahiyyətini izah edir.<br>XVII əsrin ikinci yarısında divan və xalisənin aparıcı mülkiyyət forması olmasını, kənd təsərrüfatının Azərbaycan iqtisadiyyatında əsas yer tutmasını, təsərrüfatın əsasını əkinçilik və maldarlığın təşkil etməsini, cəmiyyətin başlıca istehsalçısı və vergi verən təbəqəsinin kəndlilər olmasını, kəndlilərin müxtəlif mükəlləfiyyətlər yerinə yetirməsini, Azərbaycanda kəndli qruplarının XVII əsrdə də mövcud olmasınının səbəblərini izah etməsi. | Mülkiyyət formaları- divan,xalisə, soyurqal, vəqf, mülk, camaat; vergilər,hakim zümrə, kəndli qrupları: rəiyyət, rəncbər. |
| | **2. Tarixi məkan** | |
| 2.1.1. Azərbaycanın coğrafi mövqeyi və təbii amillərini təsərrüfatın, ictimai münasibətlərin inkişafı və ölkənin siyasi vəziyyəti ilə əlaqələndirir. | Azərbaycanın tarixən əlverişli coğrafi şəraitə, gözəl iqlimə, məhsuldar torpaqlara və zəngin təbii sərvətlərə malik ölkə olmasını, otlaqların, yaylaq və qışlaqların olmasının heyvandarlığın inkişafına geniş imkanlar açmasını, əlverişli strateji mövqeyinin isə yadellilərin yürüşlərindən qorunmaqda və ticarət əlaqələrində xüsusi əhəmiyyət kəsb etməsini, bütün bunların ölkədə ictimai münasibətlərin inkişafı və siyasi vəziyyətə öz təsirini göstərməsini,bununla belə feodal münasibətlərinin inkişafının feodal dağınıqlığına səbəb olması, bunun Azərbaycana xüsusi maraq göstərən xarici işğalçıların ölkəmizə müdaxiləsinə şərait yaratması ilə əlaqələndirməsi. | Azərbaycanın coğrafi və strateji mövqeyi, təsərrüfat sahələrinin inkişafı, təbii sərvətləri,<br>ticarət əlaqələri. |
| 2.1.2. Xəritələrdəki məlumatlara əsasən sxem və cədvəllər tərtib edir. | Azərbaycanın XV-XVIII əsrlərinə aid xəritələrindən istifadə edərək aşağıdakı məzmunda cədvəllər hazırlaması:<br>1. XV-XVIII əsrlərdə Azərbaycan ərazisində bir-birini əvəz etmiş dövlətlər (müstəqil və işğalçı dövlətləri xronoloji ardıcıllıqla göstərməklə).<br>2. Azərbaycan ərazisindən keçən beynəlxalq ticarət yolları. | XV—XVIII əsrlərdə Azərbaycan ərazisində bir-birini əvəz edən dövlətlər.Azərbaycan ərazisindən keçən beynəlxalq ticarət yolları. |
| | **3. Dövlət** | |
| 3.1.1. Mərkəzləşmiş dövlətin yaranması və | Feodal pərakəndiliyinin ölkənin ayrı-ayrı hissələri arasında təsərrüfat əlaqələrinə mane olması və məhsuldar qüvvələrin inkişafını ləngitməsi, feodal hakimləriin özbaşınalığının artması, xalq kütlələrinin vəziyyətinin ağırlaşması, ticarət əlaqələrinin pozulması | Azərbaycanda mərkəzləşmiş dövlətin yaranması üçün şəratin yetişməsi,Azərrbaycan torpaqlarının |

| | | |
|---|---|---|
| tənəzzülü, Azərbaycan torpaqlarının birləşdirilməsi uğrunda mübarizənin xüsusiyyətlərini şərh edir. | Azərbaycan torpaqlarının birləşdirilməsi uğrunda mübarizəni, mərkəzləşmiş dövlətin yaranmasını zəruri etdiyini və bu işin Səfəvilər tərəfindən müharibə yolu ilə yerinə yetirildiyini şərh edir, lakin bu yüksəlişin uzun müddət davam etmədiyini əsaslandırması. | birləşdirilməsi uğrunda mübarizənin xüsusiyyətləri,tənəzzülün baş verməsi səbəbləri . |
| 3.1.2. Dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini dəyərləndirir. | Avropa diplomatiysının Azərbaycanda baş verən hərbi-siyasi dəyişikliklərin Qərbdə diqqətlə izlənilməsini, Səfəvilərin uğurlarnıdan Osmanlılara qarşı istifadə etmək meylini, islam dünyasındakı fikir ayrılığının düşdüyünü müşahidə etməsini, papanın Almaniya, Fransa, İspaniya, Portuqaliya, Skandinaviya dövlətlərinin başçılarına məktub yazaraq onları Şah I İsmayılın uğurlarından Osmanlı imperatorluğuna qarşı istifadə etməyə çağırmasını, Səfəvi-Osmanlı münasibətlərini daim müharibə həddində saxlamaq, bununla Osmanlı imperatorluğunu Səfəvi dövləti ilə toqquşdurub hər ikisini zəifləmək və Şərqdə möhkəmlənmək kimi ənənəvi siyasətini davam etdirməsini dəyərləndirməsi | Avropa diplomatiyasının Səfəvilərin uğurlarından Osmanlılara qarşı istifadə etmək meyli,<br>I Şah İsmayılın şiəlik məzhəbindən istifadə etməkdə məqsədi, xalqı Səfəvilərin ətrafında birləşməyə sövq edən səbəb. |
| 3.1.3. Dövrlə bağlı mənbələrdən əldə etdiyi məlumatlar əsasında sxem və cədvəllər qurur. | İnternetdən, ensiklopediyalardan öyrənilən, dövrlə bağlı digər mənbələrdən əldə etdiyi məlumatlar əsasında sosial-iqtisadi inkişaf, vergi və mükəlləfiyətlər və s. məsələlərlə bağlı sxem və cədvəllər qurması. | Vegi və mükəlləfiyyət,<br>sosial-iqtisadi inkişaf. |
| **4.Şəxsiyyət** | | |
| 4.1.1. Azərbaycan dövlətçiliyində mühüm rol oynamış tarixi şəxsiyyətlərin (Şah I İsmayıl, Şah I Təhmasib, Şah I Abbas, Nadir şah, Qubalı Fətəli xan, | Azərbaycan dövlətçiliyində mühüm rol oynamış tarixi şəxsiyyətlərin (Şah I İsmayıl, Şah I Təhmasib, Şah I Abbas, Şah II Təhmasib, Nadir şah, Hacı Çələbi,Qubalı Fətəli xan,Pənahəli xan, İbrahimxəlil xan, Ağa Məhəmməd şah Qacar, Sadıq xan, Həsən xan və b.) dövlətçiliyin qorunması, inkişafı və möhkəmləndiril-məsində, xarici təcavüzə qarşı (İrana, Rusiyaya, erməni və gürcülərə qarşı) xalqın mübarizəsinin təşkilində, mövcud sərhədlərin qorunub saxlanılması istiqamətində görülmüş işlərdə, sosial–iqtisadi məsələlərdə və s. sahələrdə fəaliyyətlərini dəyərləndirməsi. | Dövlətçiliyin qorunması,xarici işğala qarşı mübarizə, . sosial-iqtisadi məsələlər. |

| | | |
|---|---|---|
| Hacı Çələbi) fəaliyyətini dəyərləndirir. | | |
| 4.1.2. Tarixi şəxsiyyətlər haqqında müqayisəli sxem və cədvəllər hazırlayır. | Tarixi şəxsiyyətlərin dövlətçiliyin möhkəmləndirilməsi, sosial-iqtisadi problemlərin həlli ilə bağlı məsələlər haqqında müqayisəli sxem və cədvəllərin hazırlanılması. | Azərbaycan dövlətciliyində mühüm rol oynamış tarixi şəxsiyyətlər,onların xarakterik cəhətləri, dövr üçün səciyyəvi olan fəaliyyətləri. |
| | **5. Mədəniyyət** | |
| 5.1.1. Yeni ictimai – iqtisadi münasibətlərin mədəniyyətə təsirini dəyərləndirir. | Yeni ictimai-iqtisadi münasibətlərin XVII əsrin ikinci yarısı – XVIII əsrdə ölkədə elm və mədəniyyətin inkişafında müəyyən canlanma yaratmasına, kitabxanalara marağın artmasına, incəsənətin inkişaf etməsinə, ölkədə məktəblərin, məscidlərin, karvansaraların tikilməsinə, şəhərsalmada baş verən dəyişikliklərə, beləliklə, özünəməxsusluğunu qoruyub saxlayan Azərbaycan mədəniyyətinin Səfəvi dövlətinə daxil olan başqa xalqlarla sıx əlaqə şəraitində inkişaf etməsinə və zənginləşməsinə təsirini dəyərləndirməsi. | Yeni ictimai - iqtisadi münasibətlər, maarif və elm, ədəbiyyat, incəsənət. |
| 5.1.2. Azərbaycan mədəniyyətinin inkişafına təsir edən amilləri müəyyənləşdirir. | XVIII əsrdə baş vermiş siyasi hadisələrin, daxili feodal çəkişmələrinin, üsyanların, maarif müəssisələrinə bağışlanmış torpaqların əvvəlcə yerli məmurlar və feodallar, sonra isə Nadir şah tərəfindən ələ keçirilməsinin, nəticədə əsas gəlir mənbələrindən məhrum edilən maarif müəssisələrinin bir çoxunun sıradan çıxmasını, məktəblərin məscidlərdə, xüsusi dükanlarda və şəxsi evlərdə yerləşdirilməsinin və s.mədəniyyətin inkişafına mənfi təsirini müəyyənləşdirməsi. | XVIII əsrdə baş verən siyasi hadisələr, daxili feodal çəkişmələri, üsyanlar, maarif müəssisələrinə bağışlanmış torpaqların mənimsənilməsi. |
| 5.1.3. Azərbaycanın mədəni nailiyyətlərini əks etdirən cədvəllər hazırlayır. | Azərbaycanın maarif, elm, ədəbiyyat, incəsənət, memarlıq sahəsində nailiyyətlərini əks etdirən cədvəllər hazırlaması. | Maarif,elm, incəsənət, memarlıq. |

**IX sinif**

| Standartlar | Məzmun | Açar sözlər |
|---|---|---|
| | **1. Tarixi zaman** | |
| 1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir. | Tarixi hadisə, proses və təzahürlərin ardıcıllığının müəyyən edilməsinin tarixi prosesi dərk etməyin zəruri şərti olmasını, prosesin başlanmasının onun başa çatmasından əvvəl meydana gəlməsini dərk edir və tarixdə baş verən hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirməsi. | Hadisə,proses, təzahür,zaman. |
| 1.1.2. Mühüm hadisə, proses və tzahürlərə dair xronoloji cədvəllər hazırlayır. | XIX-XX əsrlərdə Azərbaycan tarixində baş vermiş mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəlləri hazırlaması. | Azərbaycanda XIX-XX əsrlərdə baş vermiş mühüm hadisə, proses və təzahürlər. |
| 1.2.1 Eyni hadisəyə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir. | Azərbaycan tarixində baş vermiş eyni hadisəyə- Azərbaycan ərazisinin Rusiya və İran arasında bölüşdürülməsi, Azərbaycanda sosializm quruculuğu məsələləri, Azərbaycan-Ermənistan münasibətləri və.s. məsələlərə yazılı mənbələrdə fərqli yanaşmaların müəllifin həmin ölkələrə, xalqlara, hadisələrə münasibətindən, hadisə ilə bağlı düzgün məlumata malik olub-olmamasından, nəticə çıxarmaq qabiliyyətinin səviyyəsindən asılı olaraq meydana gəlməsini faktlar əsasında müqayisə etməsi. | Eyni hadisəyə fərqli münasibətlər: ölkələrə münasibət,<br>xalqlara münasibət,<br>hadisəyə münasibət,<br>məlumatsızlıq. |
| 1.2.2. Müxtəlif mənbələr əsasında təqdimatlar hazırlayır. | İnternetdən, ensiklopediyalardan, ilkin mənbələrdən, tarixi əsərlərdən, dərsliklərdən istifadə etməklə Rusiya imperiyasının Şimali Azərbaycanda müstəmləkəçilik siyasətinə, XIX əsrin 60-70-ci illərində Azərbaycanda burjua islahatlarına, Şimali Azərbaycanda milli-demokratik hərəkata və siyasi mübarizəyə, mədəniyyət məsələlərinə həsr edilmiş təqdimatlar hazırlaması. | Müstəmləkə siyasəti,<br>komendant idarə üsulu, dövlətçilik ənənələri, köçürmə siyasəti. |

| | | |
|---|---|---|
| 1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir. | Rusiya müstəmləkçiliyinin ilk illərində Şimali Azərbaycanda əhalinin sosial tərkibinin əvvəllərdə olduğu kimi qalmasını, çarizmin sosial zümrələrin hüquqi vəziyyəti və kəmiyyət göstəricilərinin müstəmləçilik siyasətinə uyğun şəkildə tənzimlənməsinə xüsusi fikir verməsini, xanlıqlar ləğv edildikdən sonra hakim təqəbə içərisində başlıca yeri bəylərin tutmasını, çarizmin onların torpaq hüquqlarına münasibət məsələlərində mövqeyini bir neçə dəfə dəyişməsini, yalnız 1846-cı il 6 dekabr fərmanı ilə onların əvvəlki mülkiyyət hüququnu təsbiq etməsini, əhalinin sosial tərkibində kəndlilərin əsas yer tutmasını, Rusiya imperiyasına daxil olan bəzi müstəmləkələr kimi Şimali Azərbaycanın da tədricən ümumrusiya əmək bölgüsünə cəlb olunmasını və ümumurusiya bazarına qoşulmasını və b. dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirməsi. | Həyat tərzi, hakim təbəqə, üçüncü zümrə, ağalar,bəylər,<br>sultanlar, məliklər, ruhanilər, kəndlilər. |
| **2. Tarixi məkan** | | |
| 2.1.1.Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri dəyərləndirir. | Azərbaycaın coğrafi mövqeyi və təbii sərvətlərinin burada müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafına imkan yaratmasını, XIX əsrin ikinci yarısında əvvəllərdə olduğu kimi kənd təsərrüfatında əsas yeri əkinçilik və maldarlığın tutmasını, sənətkarlıq sahələrində xalçaçılıq, toxuculuq, dulusçuluq, ipəkaçma, metal emalı və b. sahələrin üstünlük təşkil etməsini, ipəkçiliyin kənd təsərrüfatında mühüm yer tutmasını, bağçılıq, bostançılıq və üzümçülüyün geniş yayılmasını müəyyənləşdirir, bununla belə bəhs edilən dövrdə Şimali Azərbaycanda manufaktura tipli ilk müəssisələrin meydana gəlməsini, kapitalist münasibətlərinin əsl inkişafının XIX əsrin 60-cı illərinə təsadüf etməsini, fabrik-zavod istehsalının ortaya çıxmasını, Bakıda neft istehasalı və neft emalı sənayesinin meydana gəlməsini, Azərbaycanın xarici ticarət əlaqələrində əsas üstünlüyün Rusiya ilə ticarətə verilməsini izləməsi. | Azərbaycanın coğrafi mövqeyi,kənd təsərrüfatı sahələri,<br>sənaye sahələri, ticarət,manafaktura, fabrik-zavod sənayesi,kapitalist münasibətlərinin yaranması. |

| | | |
|---|---|---|
| 2.1.2. Mühüm tarixi hadisə və prosesləri kontur xəritələrdə təsvir edilir. | Rusiya tərkibində Şimali Azərbaycanın, İran tərkibində Cənubi Azərbaycanın sərhədlərini, kütləvi surətdə Şimali Azərbaycana köçürülən ermənilərin yerləşdirildiyi əraziləri, Azərbaycanda rus və alman məskənlərini, Şimali Azərbaycanda müstəmləkiçilik əleyhinə üsyanların baş verdiyi əraziləri, Azərbaycandan keçən ticarət yollarını, sənaye obyektlərini, böyük şəhərləri, Azərbaycan Xalq Cümhuriyyətinin, SSRİ tərkibində Azərbaycan SSR-in sərhədlərini,Azərbaycan diviziyalarının Böyük Vətən mübaribəsində keçdiyi yolu, müstəqil Azərbaycan Respublikasının ərazisini və inzibati ərazi bölgüsünü kontur xəritələrində təsvir etməsi. | Şimali və Cənubi Azərbaycanın sərhədləri,rus, erməni və alman məskənləri, AXC-nin ərazisi, Azərbaycan Respublikasının ərazisi. |
| | **3.Dövlət** | |
| 3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir. | Müstəmləkə rejimi şəraitində Şimali Azərbaycanın siyasi və iqtisadi cəhətdən Rusiyaya tabe edilməsini, Azərbaycanın Rusiyanın xammal mənbəyinə çevrilməsini, Rusiya qanunları əsasında idarə olunmasını, xarici və ticarət əlaqələrinin yalnız imperiya tərəfindən aparılmasını, Azərbaycan Xalq Cümhuriyyətinin xalqımıza XX əsrdə sivil demokratiyani, hüquqi dövlətcilik ənənələrini qoyub getməsini, 1920-ci il 28 aprel işğalından sonra Şimali Azərbaycanda Sovet Sosialist Respublikası dövrünün başlanmasını, torpaqlarımızın bir hissəsinin Sovet rəhbərliyinin dəstəyi ilə Ermənistana verilməsini, ölkədə imperiyanın mənafeyinə uyğun sənayeləşdirmə və zorakı kollektivləşdirmə siyasətinin aparılmasını, xalqımızın və dilimizin adının, əlifbamızın süni olaraq dəyişdirilməsini, müstəqillik şəraitində Azərbaycan Respublikasının daxili və xarici siyasətdə uğurlar qazanmasını, daxili siyasi sabitliyin və iqtisadi inkişafın təmin edilməsini, əhalinin həyat səviyəsinin daim yüksəldilməsini təhlil etməsi. | Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati,sosial-iqtisadi həyatda baş verən dəyişikliklər,Azərbay- can Xalq Cumhuriyyəti sivil demokratiyanın nümunəsidir,Azərbaycan Demokratik Respublikası. |
| 3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir. | Azərbaycanın zəngin təbii sərvətləri, ilk növbədə zəngin neft yataqları, Qərb ilə Şərq arasındakı əlverişli strateji coğrafi mövqeyi daim xarici dövlətlərin marağını cəlb etmiş, müəyyən dövrlərdə Azərbaycanda vahid dövlətin olmaması bu işi asanlaşdırmışdır. Müstəqil və suveren Azərbaycan Respublikasının yaranması ilə bu iddialara ən nəhayət son qoyulması. | Azərbaycanın zəngin sərvətləri,əlverişli geosiyasi mövqe, vahid dövlətin olmaması. |
| 3.1.3. Azərbaycan | İnternetdən, ensklopediyalardan, ilkin sənədlərdən, qəzet və jurnal materiallarından, | Azərbaycan dövlətləri ilə bağlı |

| | | |
|---|---|---|
| dövlətləri ilə bağlı müxtəlif mənbələrdən topladığı materialları təqdim edir. | dərslik və s. mənbələrdən toplanılmış məlumatları təhlil edib ümumiləşdirərək "Azərbaycanın üçüncü minilliyin əvvəllərində xarici siyasəti və beynəlxalq əlaqələri" mövzusunda təqdimat etməsi. | mənbələrdən toplanılmış materiallar. |
| **4. Şəxsiyyət** | | |
| 4.1.1. Dövlətçiliyin möhkəmləndirilməsində və inkişafında tarixi şəxsiyyətlərin (Məmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev) rolunu dəyərləndirir. | Dövlətçiliyin bərpası, möhkəmləndirilməsi və inkişafında tarixi şəxsiyyətlərin rolunu dəyərləndirir. Belə ki, Vətənimizin şimalında müstəqil dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında Məmməd Əmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Əlimərdan bəy Topcubaşovun və b., XX əsrin başa çatması ərəfəsində Azərbaycanın müstəqilliyinin yenidən bərpa olunmasında, dövlətçiliyimizin qorunmasında və inkişaf etdirilməsində, Azərbaycanın dünya birliyində layiqli yerini tutmasında, onun suveren hüquqlarının, ərazi bütövlüyünün beynəlxalq təşkilatlar tərəfindən tanınmasında Heydər Əliyevin və İlham Əliyevin tarixi xidmətlərini dəyərləndirməsi. | Dövlətçiliyin bərpası, Azərbaycan XalqCümhuriyyətinin möhkəmləndirilməsi, dövlətçiliyin itirilməsi,Azərbaycan Respublikası timsalında dövlətçiliyin bərpası. |
| 4.2.1. Azərbaycanın görkəmli şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir. | İnternetdən, ensklopediyalardan, tarixi sənədlərdən, kitablardan, kütləvi mətbuatdan Azərbaycanın görkəmli şəxsiyyətlərinə dair materiallar toplayır, onları təhlil edir və müxtəlif formalarda təqdim etməsi. | Görkəmli tarixi şəxsiyyətlər, onlarin dövlətçilik sahəsində xidmətləri. |
| **5. Mədəniyyət** | | |
| 5.1.1. Azərbaycan sivilizasiyası və mədəniyyətlərinin xarakterik əhəmiyyətlərini şərh edir. | Şimali Azərbaycanda kapitalizmin coşğun inkişafı nəticəsində mədəniyyətdə həlledici dəyişikliklər dövrünün başlanmasını, ağır müstəmləkə rejimi şəraitində Azərbaycan mədəniyyətinin ayrı-ayrı sahələrində müəyyən irəliləyişlərə nail olunmasını, yeni tipli məktəb və mədəni-maarif müəssisələrinin, milli mətbuatın və teatrın yaranmasının mədəniyyətin başlıca səciyyəvi xüsusiyyətlərini təşkil etməsini, yeni əsrin ilk illərində elm, təhsil, səhiyyə, idman, turizm, ətraf mühitin mühafizəsi problemlərinin | Kapitalizmin inkişafı, Azərbaycan sivilizasiyası, mədəniyyətin xarakterik əhəmiyyətləri, mədəniyyətin inkişafı perspektivləri. |

| | | |
|---|---|---|
| | Azərbaycan dövlətinin gündəlik qayğısı olmasını, sosial -iqtisadi sahədə qazanılmış uğurların milli mədəniyyətin inkişafı ilə əlaqələndirilməsini, milli özünüdərkin, milli dəyərlərin möhkəmləndirlməsinin Azərbaycançılıq ideologiyasının formalaşdırlmasının mühüm şərti olmasını şərh etməsi. | |
| 5.1.2. Azərbaycan sivilizasiyası və mədəniyyətlərinin xarakterik əhəmiyyətlərini dünya sivilizasiyası və mədəniyyətlərinin xarakterik əlamətləri ilə müqayisə edir. | Uzun müddət müstəmləkə şəraitində yaşayan ölkəmizdə bir sıra sahələrdə, ilk növbədə elm sahəsində ğeriliyin özünü daha kəskin sürətdə biruzə verməsini, dövlət müstəqilliyi bərpa edildikdən sonra Respublikanın mədəni – mənəvi həyatında mühüm dəyişiklikləri, müharibələrin, yüz illər ərzində yaradılmış mədəni-sosial obyektlərin erməni işğalçıları tərəfindən məhv edilməsini,postsovet Respublikaları ilə əlaqələrin zəifləməsinin təhsilə, elmə, incəsənətə mənfi təsirini, lakin bunula belə Azərbaycan mədəniyyətinin öz mübarizliyini, mənəvi qüvvələrin, öz kökünə və ümumbəşəri dəyərlərə daha möhkəm bağlılığının səciyyəvi cəhətlərini, beləliklə Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarekterik əlamətlərini dünya sivilizasiysı və mədəniyyətinin xarakterik əlamətləri ilə müqqayisə etməsi. | Azərbaycan sivilizasiyası və mədəniyyətlərinin xarakterik əlamətləri, dünya sivilizasiyası və mədəniyyətin xarakterik əlamətləri, onların qarşılıqlı təsirinin müqayisəsi. |
| 5.1.3. Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir. | İnternetdən, ensklopediyalardan, mədəniyyət tarixinə dair yazılardan, sənədlərdən, dərsliklərdən istifadə etməklə Azərbaycan xalqının XIX – XX əsrdə mədəni inkişafına dair araşdırmalar aparır, nəticələrini aşağıdakı problemlər üzrə təqdim etməsi:<br>1. Maarifin inkişafı.<br>2. Elmin inkişafı.<br>3. Mətbuatın inkişafı.<br>4. Ədəbiyyatın inkişafı.<br>5. İncəsənətin inkişafı.<br>6. Milli – mədəni dirçəliş.<br>7. Cənubi Azərbaycan mədəniyyəti | Maarif, təhsil, elm, mətbuat.ədəbiyya, incəsənət, Azərbaycan mədəni dirçəliş. |

**X sinif**

| 1. Tarixi zaman | | |
|---|---|---|
| 1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir | Qədim ərazisi, dili, siyasi qurumları, mədəniyyəti olan Azərbaycan xalqının inkişaf etməsini və erkən orta əsrlərdə daha geniş ərazidə formalaşmasını, Azərbaycanda məskunlaşan iran- dilli və qafqazdilli xalqların taleyinin tarixən Azərbaycan türkləri ilə bağlı olmasını, tarix boyu Azərbaycan dövlətlərinin yüksəliş və tənəzzül dövrü | Azərbaycanın yerləşdiyi ərazi, Azərbaycanda ilk insan cəmiyyətlərinin yaranması, Azərbaycan dövlətçiliyi, Gülüstan və Türkmənçay sülh |

| | | |
|---|---|---|
| dövrünü müqayisə edir, təqdimatlar hazırlayır. | keçirməsini, Azərbaycanın həmişə qonşularla sülhsevər, dinc münasibətlər saxlamasını, lakin bəzi qonşuların fürsət düşdükdə ərazilərimizi işğal etmələrini, nəhayət Rusiya ilə İran arasında gedən müharibələr nəticəsində bağlanmış Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycan torpaqlarının iki hissəyə parçalanmasını və uzun müddət öz müstəqilliyini itirməsini müqayisə edir və təqdimatlar hazırlaması. | müqavilələri. |
| 1.1.2. Mənbələr əsasında Azərbaycanın keçmiş və müasir dövrlərünə dair xronoloji cədvəllər hazırlayır. | Müxtəlif mənbələrdən toplanmış materiallar əsasında Azərbaycanın keçmişi və müasir dövrünə aid xronoloji cədvəllər hazırlayıraq onları təhlil etməsi. | Azərbaycanın keçmişinə və müasir dövrünə aid xronoloji cədvəllər hazırlayır. |
| 1.2.1. Tarixi hadisəyə aid mənbələrin müəllifinin mövqeyini müəyyənləşdirir. | Tarixi hadisəyə dair yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirmək üçün onun tədqiqatçılıq bacarığını, baş verən hadisəyə münasibətini, şəxsiyyətini araşdırır, həmin mənbəni bu hadisəyə həsr edilmiş digər uyğun mənbələrlə, tarixi əsərlərlə tutuşdurur və müqayisə edir,beləliklə həmin hadisəyə obyektiv münasibəti öyrənir və yalnız bundan sonra son nəticəyə gəlməsi. | Mənbəşünaslıq, tədqiqatçılıq, mövqe. |
| 1.2.2. Yazılı mənbələrin, yaxud tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir. | Yazılı mənbələrin, yaxud tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirmək üçün ilk növbədə həmin mənbədə, yaxud da tarixi sənəddə göstərilən hadisənin nə vaxt baş verdiyini, onun müəllifini və onu hazırlayan təşiklatın mövcud olduğu vaxtı, çap olunmuş tarixi əsərlərdə belə məlumatın olub-olmadığını müəyyənləşdirməsi. | .Yazılı mənbə, tarixi sənəd, dövri mətbuat |
| 1.3.1. İnsanların həyat tərzində dəyişiklikləri mənbələr əsasında təqdim edir. | İnternetdən, ensklopediyalardan, tarixi mənbələrdən istifadə etməklə XIX əsrin birinci yarısından - XX əsrin əvvəllərinə qədər insanların həyat tərzindəki dəyişilikləri araşdırır və müxtəlif formalarda təqdim edilməsi. | Kapitalizmin yaranması və inkişafı ilə əhalinin sosial tərkibində baş verən dəyişikliklər,Şimali Azərbaycanda Rusiyanın iqtisadi siyasəti və onun nəticələri. |
| **2.Tarixi məkan** | | |
| 2.1.1. Müxtəlif tarixi dövrlərdə | Müxtəlif tarixi dövrlərdə Azərbaycanın əlverişli geosiyasi mövqeyə malik olduğunu , şimalda Dərbənddən başlamış, cənubda Zəncan – Qəzvin – Həmədan bölgələrinə qədər | Azərbaycanın geosiyasi mövqeyi,onda baş verən dəyişikliklər, |

| | | |
|---|---|---|
| Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir. | çatması, şərqdə Xəzər dənizindən başlayaraq qərbdə Borçalını, Göyçə mahalını, İrəvanı və Urmiya gölünün sahillərini əhatə edən əlverişli bir ərazidə yerləşdiyini dəyərləndirməsi. | Azərbacanın əlverişli təbii-coğrafi mövqeyi. |
| 2.1.2. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və dioqramlar tərtib edir. | Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeinə, onlarda baş vermiş dəyişikliklərə dair qrafik və dioqramlar tərtib etməsi. | Azərbaycan dövlətləri,onların hər birinin geosiyası mövqeyi, bu mövqeyin ölkənin təsərrüfat həyatına təsiri. |
| **3. Dövlət** | | |
| 3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir. | Qədim tarixə malik Azərbaycan xalqının öz dövlətçilik ənənələrini qorumasını, inkişaf etdirməsini və təkmilləşdirməsini, tariximizin müəyyən dövrlərində müxtəlif səbəblər üzündən müvəqqəti olaraq müstəqilliyini itirməsini, torpaqları başqa imperiyaların tərkibinə qatılmış olsa da, şərait yarandıqda onu yenidən bərpa etməsini, XIX əsrin 30-cu illəri- XX əsrin əvvəllərində Şimali Azərbaycanın Rusiyanın müstəmləkə rejimi şəraitində yaşamasını, Şimali Azərbaycanda tədbiq edilən komendant idarə üsulunun ağır müstəmləkə idarə sistemi olmasını və mahiyyətcə hərbi-feodal səciyyəsi daşımasını, Rusiyanın Azərbaycanda bu idarəçilik sistemini yaratmaqla əvvəllərdə mövcud olmuş dövlətçilik ənənəllərini ləğv etməyi, imperiyaya sədaqətli olan yerli məmurları hazırlamağı qarşısına məqsəd qoymasını, lakin komendant idarə üsulunun mahiyyətcə özünü doğrultmamasını və hakim dairələrin onu ləğv etməyə məcbur olmasını, ümumrusiya idarəçiliyinə keçilməsini və bir müddət sonra, yəni 1844-cü ildə Qafqaz canişinliyinin yaradılmasını və ona müstəsna dərəcədə geniş səlahiyyətlərin verilməsini, yeni inzibati - ərazi bölgüsünə keçilməsini, İran dövləti tərkibində Cənubi Azərbaycanın idarə edilməsini, inzibati ərazisi quruluşunun xüsusiyyətlərini təhlil etməsi. | .Komendant idarəçiliyi, onun xarakterik cəhətləri, canişinlik, inzibati - ərazi bölgüsü, Cənubi Azərbaycanda İnzibati-ərazi quruluşu -nun xüsusiyətləri. |

| | | |
|---|---|---|
| 3.1.2. Müxtəlif dövrlərdə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir. | Müxtəlif dövrlərdə Azərbaycanın daim böyük dövlətlərin maraq dairəsində olmasını, birinci dünya müharibəsi ərəfəsi və dövründə alman inhisarlarının Bakı neftinə xüsusi maraq göstərməsini, almanların Osmanlı dövlətinin iştirakı ilə Qafqazı və Mərkəzi Asiyanı nüfuz dairəsində saxlamaq niyyətini, İngiltərə və Osmanlı dövlətinin də bu regionda xüsusi maraqlarının olmasını şərh etməsi. | Almaniya, İngiltərə və Osmanlı dövlətinin Azərbaycanda maraqları,Azərbaycanın bu münasibətlərdə mövqeyi. |
| 3.1.3. Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və dioqramlar tərtib edir. | XIX əsrin 30-50-ci illəri-XX əsrin əvvəllərində Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib etməsi. | XIX əsrin 40-cı illərinin islahatları, XX əsrin əvvəllərində aqrar qanunlar,islahatların mütərəqqi cəhətləri, islahatların məhdud cəhətləri |
| **4. Şəxsiyyət** | | |
| 4.1.1. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərini (I Axsitan, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Abbas, Nadir şah, Cavad xan, Ağa Məhəmməd şah Qacar) dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir. | Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərini (İranzu, Atropat, I Axsitan, Şəmsəddin Eldəniz, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Təhmasib, Şah I Abbas, Nadir şah, Hacı Çələbi, Fətəli xan, Pənahəli xan, Cavad xan, Ağa Məhəmməd şah Qacar) dövr baxımından dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə (I Tutmos, Hammurapi, I Dara, Mete Xaqan, İsgəndər, Solon, Yuli Sezar, Atilla, Mahmud Qəznəvi, Məhəmməd Peyğəmbər, Xlodviq Böyük Karl, Məlik şah, Çingiz xan, Fateh II Mehmet, Əmir Teymur, Oranlı Vilhelm, Oliver Kromvel, I Pyotr, Corc Vaşinqton, III Səlim, Franklin Ruzvelt, Mustafa Kamal Atatürk, Konrad Adenauer, Turqut Özal və b.) dövlətçiliyin bərpası, inkişafı və qoruması, siyasi, iqtisadi, sosial və mədəni sahədə həyata keçirdiyi tədbirlər baxımından müqayisə edərək dəyərləndirməsi. | Azərbaycanın görkəmli tarixi şəxsiyyətləri, dünyanın görkəmli tarixi şəxsiyyətləri. |

| | | |
|---|---|---|
| 4.1.2.Görkəmli tarixi şəxsiyyətlər haqqında topladığı materiallara əsasən referat və təqdimatlar hazırlayır. | İnternetdən, ensklopediyalardan, tarixi əsərlərdən, ilkin sənədlərdən topladığı və təhlil etdiyi materiallara əsasən görkəmli tarixi şəxsiyyətlər haqqında plan əsasında referat və ya təqdimatlar hazırlaması: | Şəmsəddin Eldəniz, Uzun Həsən, Şah I İsmayıl,Nadir şah. Cavad xan. |
| **5. Mədəniyyət** | | |
| 5.1.1. Mədəniyyətin inkişafını tarixi şərait və sosial iqtisadi vəziyyət baxımından dəyərləndirir. | Azərbaycan xalqının qədim mədəniyyəti olan bir xalq kimi inkişaf etməsini və formalaşmasını, IX əsrin ortalarından başlayaraq Azərbaycanda mədəniyyətin tərəqqisinin baş verməsini, xilafətin sərhədləri daxilində mədəni oyanışda, müsəlman intibahı adlanan mədəniyyətin yaranmasında yaxından iştirak etməsini, kapitalizmin inkiaşfı nəticəsində mədəniyyətdə həlledici dəyişikliklər dövrü başlanmasını, yeni tipli məktəb və mədəni– maarif müəssisələrinin, milli mətbuatın və teatrın yaranmasını, əhalinin qabaqcıl ziyalılarının xalqın milli şüurunun oyanmasına ideya təsirini və s. tarixi şərait və sosial-iqtisidai vəziyyət baxımından dəyərləndirməsi. | Qədim dövr mədəniyyəti, orta əsr mədəniyyəti, Türk- islam mədəniyyəti, kapitalizm dövrünün mədəniyyəti. |
| 5.1.2. Azərbaycan mədəniyyətini Türk İslam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir. | Azərbaycan mədəniyyətinin Türk – islam mədəniyyətinin tərkib hissəsi olmasını konkret faktlarla əsaslandırır, Azərbaycanın dünya mədəniyyətinə verdiyi töhfələri qiymətləndirməsi. | Azərbaycan mədəniyyətinin Türk-İslammədəniyyətinin tərkib hissəsiolması,onun dünya mədəniyyətinə verdiyi töhfələr. |
| 5.1.3. Türk-İslam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatlar və təqdimatlar | İnternetdən, ensklopediyalardan, tarixi sənədlərdən, ədəbi nümunələrdən, muzey materiallarından və dərsliklərdən istifadə etməklə Türk – İslam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin (təhsil, elm, incəsənət, ədəbiyyat və s sahələr) inkişafına dair araşdırmalar aparır, nəticələrinə dair referat və təqdimatlar hazırlaması. | Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinin tərkib hissəsi olması, elm və mədəniyyət sahəsində görkəmli nümayəndələri və onların təhsil, elm, incəsənət, ədəbiyyat sahəsində nailiyyətləri. |

| | | |
|---|---|---|
| hazırlayır. | | |

## XI sinif

| 1. Tarixi zaman | | |
|---|---|---|
| **Standartlar** | **Məzmun** | **Açar sözlər** |
| 1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrlərini dəyərləndirir, təqdimatlar hazırlayır. | Azərbaycan tarixinin keçmiş və müasir dövrünün mürəkkəb və ziddiyyətli olmasını, bu ərazidə ilk dövlətlərin yaranmasını, inkişaf etməsini və tənəzzülə uğramasını, buranın həmişə xarici dövlətlərin maraq dairəsində olmasını, Şərqin müsəlman və türk dünyasında ilk dəfə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın tarixinə hüquqi dövlətçiliyin və siyasi demokratiyanın ənənələrini bəxş etməsini, 1920-ci il 28 aprel işğalından sonra 70 ildən çox bir müddəti əhatə edən dövrdə Azərbaycanın əslində Moskva tərərfindən idarə olunmasını, totalitar rejimin və bolşevik ideologiyasının təsiri altında yaşamasına baxmayaraq, müəyyən iqtisadi və mədəni tərərqqi yolu keçməsini dəyərləndirir. Azərbaycanın üçüncü Respulika - müstəqil Azərbaycan Respublikası dövrünün xalqımızın tarixində xüsusi yer tutmasını, xalqın çağırışı ilə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi nəticəsində respublikada hərc-mərcliyə son qoyulmasını, dönməz sosial-siyasi sabitlik yaradılmasını, dinamik iqtisadi və siyasi inkişaf prosesinin başlanmasını, xarici siyasətdə uğurlar qazanılmasını, bu gün həmin siyasətin Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən ardıcıllıqla, dönmədən davam etdirilməsini əks etdirən təqdimatlar hazırlaması. | Azərbaycanda mövcud olmuş dövlətlər, onların siyasi quruluşu, tarixi şəxsiyyətlər,müsəlman və şərq dünyasında ilk dəfə yaradılan demokratik dövlət və onun tarixdə yeri,<br>Azərbaycanda 3-cü Respublika dövrü, onun yaradılmasında Heydər Əliyevin xidmətləri,İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın regionda aparıcı dövlətə çevrilməsi. |
| 1.1.2. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrünə aid müqayisəli cədvəllər | Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrünə aid siyasi, iqtisadi, sosial, mədəni məsələlərə dair müqayisəli cədvəllər hazırlaması. | Siyasi, iqtisadi, sosial və mədəni inkişafla bağlı materiallaın toplanması və təhlili. |

| | | |
|---|---|---|
| hazırlayır. | | |
| 1.2.1. Mənbədəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışları dəyərləndirilir. | Mənbədəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışlarları müəlliflərin milli dövlətçilik maraqları, şəxsi mövqeyi, tədqiqatçılıq bacarıqlarının səviyyəsi baxımından dəyərləndirilir. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətin qurulması, inkişafı, süqutu, totalitar bolşevik rejiminin qurulması bə s. məsələlərə həsr olunmuş problemlərlə bağlı sovet tarixçilərinin əsərlərindəki baxışları müasir Azərbaycan tarixçilərinin həmin problemlə bağlı əsərlərindəki və müasirlərinin xatirələrindəki baxışlarla müqayisə edərək yaranmış fərqlərə dair mülahizələrini bildirir və onları dəyərləndirməsi. | Mənbə, dövlətçilik maraqları, şəxsi mövqe. totalitar rejim. |
| 1.2.2. Tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir. | Dövrə aid maddi və yazılı mənbələrdən (Azərbaycan tarixçilərinin əsərləri, qeydləri, hakimiyyət orqanlarının qərar və sərəncamları, kütləvi informasiya materialları, internet resursları) lazım olan tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq olanları seçir və izah etməsi. | İlkin sənədlər, kütləvi informasiya vasitələri,internet resursları,Azərbaycan tarixçilərinin həmin dövrə aid əsərləri. |
| 1.3.1. Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini tarixi dövrlə əlaqələndirir. | Hər bir xalqın formalaşması zəruri olan şərtlər yarandıqda mümkün olur, həmin vacib şərtlərin dil birliyi, ərazi bütövlüyü, mədəniyyət vahidliyi, məhəlli – iqtisadi əlaqələr ümumilliyi olmasını, tarixi – siyasi hadisələrin gedişindən asılı olaraq bu şərtlərin inkişafının ləngiməsini və ya sürətlənməsini açıqlayaraq Azərbaycanın qədim zamanlardan geniş əraziləri əhatə etməsini, türk və qeyri türk etnoslarının qaynayıb-qarışmasını, onları birləşdirən ümumi cəhətlərin, eyni ideologiyanın təsiri altında olmasını, tabe olduğu imperatorluq və yadelli hücumlarına qarşı birgə mübarizə aparmalarını Azərbaycan xalqının təşəkküli prosesini surətləndirən əsas cəhətlərlə əlaqəliliyini əsaslandırması. | Xalqın formalaşması üçün zəruri olan şərtlər.onun xüsusiyyətləri. |
| **2. Tarixi məkan** | | |
| 2.1.1. Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir. | Ölkəmizin əlverişli geosiyasi mövqeyinin əhəmiyyətini , onun təbbi ehtiyyatlarından – relyef, iqlim, torpaq, su, faydalı qazıntılar, əmək ehtiyatları, mövcud maddi və sosial infrastrukturlarından vətənimizin gələcəyi naminə daha yaxşı istifadə etmək haqqında mülahizələrini söyləyirək dəyərləndirməsi. | Geosiyasi mövqe, təbii ehtiyyatlar, infrastruktur. |

| | | |
|---|---|---|
| 2.1.2. Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır. | İnternetdən, ensiklopediyalardan, tarix və coğrafiyaya aid lüğətlərdən istifadə etməklə Azərbaycanın geosiyasi mövqeyini, fiziki – coğrafi şəraitini, təbii ehtiyatlarını, möcvud maddi və sosial infrastrukturlarını təhlil edərək təqdimatlar hazırlaması. | Azərbaycanın geosiyasi mövqeyi, fiziki-coğrafi şəraiti. |
| **3. Dövlət** | | |
| 3.1.1.Müxtəlif dövrlərdə Azərbaycanda yaranmış dövlətlərin dövlətçilik ənənlərinin və svilizasiyaların inkişafında rolunu dəyərləndirir. | Azərbaycan xalqının öz dövlətçilik ənənələrini və sivilizasiyaları tarix boyu qorumasını, inkişaf etdirməsi və təkmilləşdirməsini, tariximizin müxtəlif dövrlərində müəyyən səbəblər üzündən müvəqqəti olaraq müstəqilliyini itirməsini, torpaqları başqa imperiyaların tərkibində olsa da, xalqın öz dövlətçilik ənənələrini unutmamasını, şərait yarandıqda onu yenidən bərpa etməsi, XX əsrin əvvəllərində və sonlarında yaranmış tarixi şəraitdən istifadə edərək özünün dövlət müstəqilliyini bərpa etməsini, dünyəvi, demokratik dəyərlər uğrunda mübarizədə nailiyyətlər qazanmasını dəyərləndirməsi. | Dövlətçilik ənənələri, sivilizasiyalar, XX əsrin əvvəllərində və sonunda dövlətçiliymizin bərpası, dünyəvi demokratik dəyərlər. |
| 3.1.2.Qlobal problemlərin həllində Azərbaycanın mövqeyini və apardığı siyasətini dəyərləndirir. | Ekoloji tarazlığın pozulması, işsizlik, korrupsiya, terrorizm, müharibə təhlükəsi, dini münasibətlərdə ayrıseçkilik və s. problemlərin həllində Azərbaycanın mövqeyinin və apardığı siyasətin həmişə düzgün və ədalətli olmasını dəyərləndirməsi. | Qlobal problemlər, ekoloji tarazlığın pozulması,korrupsiyamüharibə, dini ayrıseçkilik. |
| 3.1.3. Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir. | İnternetdən, ensiklopediyalardan, tarixi sənədlərdən əldə etdiyi materialların tədqiqi nəticəsində Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparmaqla ölkəmizdə qədim dövrdən bu günə kimi mövcud olmuş dövlətçilik tarixini xarakterizə edir və müsbət proqnozlar verir. Öz fikirlərini son illərdə Azərbaycan Respublikasının əldə etdiyi nailiyyətlərlə əsaslandırır və onu qonşu dövlətlərlə müqayisə etdirməsi. | Dövlətçilik tarixi, dövlətçiliktariximizin keçdiyi yol, Azərbaycan Respublikasının dövlət quruculuğu sahəsində fəaliyyəti |
| **4. Şəxsiyyət** | | |
| 4.1.1. Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin | Şərqin müsəlman və türk dünyasında ilk dəfə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətində Məmməd Əmin Rəsulzadənin, Fətəli xan Xoyskinin və b., SSRİ-nin tərkibində totolitar rejm və bolşevik ideologiyasının təsiri altında | . Şəxsiyyətə verilən tələblər, fərd və şəxsiyyət, cəmiyyət və şəxsiyyət, Azərbaycan Xalq Cümhuriyyəti, |

| | | |
|---|---|---|
| (Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Əbülfəz Elçibəy, Heydər Əliyev, İlham Əliyev) rolunu və fəaliyyətini dəyərləndirir. | yaranmasına baxmayaraq, Azərbaycan SSRİ-nin müəyyən iqtisadi və mədəni tərəqqi yolunu keçməsində Nəriman Nərminovun, Cənubi Azərbaycanda milli dövlətçiliyin bərpasında Şeyx Məhəmməd Xiyabaninin, Azərbaycan Xalq hərəkatında Əbülfəz Elçibəyin, Respublikada tüğyan edən hərc – mərcliyə son qoyulmasında, milli dövlətçiliyimizin bərpası və inkişafında, dönməz sosial – siyasi sabitliyin bərqərar edilməsində, dinamik iqtisadi və siyasi inkişaf prosesinin başlanılmasında, xarici siyasətdə uğurlar əldə edilməsində Heydər Əliyevin,. ölkənin Beynəlxalq nüfuzunun yüksəldilməsində, onun Şimali Qafqazda aparıcı dövlətə çevrilməsində, hərbi qüdrətinin artırılmasında İlham Əliyevin fəaliyyətini dəyərləndirməsi. | Azərbaycan Respublikası, Cənubi Azərbaycanda milli hökumət. |
| 4.1.2. Görkəmli tarixi şəsxiyyətlər haqqında layihələr hazırlayır. | Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinin dövlətçiliyin möhkəmləndirilməsi və inkişafı, sosial-iqtisadi və siyasi inkişafı, müdafiə qüdrətinin artırılması vəs. məsələlərlə bağlı fəaliyyətlərinə aid layihələr hazırlaması. | Dövlətçiciliyin möhkəmləndirilməsi və inkişafı,müdafiə qabiliyyətinin artırılması. |
| | **5. Mədəniyyət** | |
| 5.1.1.Dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir. | Dünya mədəniyyətinin inkişafında N.Tusi, Y.Məmmədəliyev, L.Landau, Q.Qarayev, Lütfizadə, Ü.Hacıbəyli və başqalarının timsalında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirməsi. | Yeni kəşflər, onların yayılması,mədəniyyət sahəsində əldə edilən nəticələrin qorunması. |
| 5.1.2. Azərbaycanın milli ənənəvi dəyərlərini Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir. | Sovet rejimi şəraitində proletar mədəniyyəti adı altında Azərbaycan xalqının milli – mənəvi dəyərlərinə, xalq musiqisinə, musiqi alətlərinə, ərəb əlifbası ilə yazılmış nadir əsərlərə qarşı hücumlarda Azərbaycan xalqının özünüdərkinə, öz milli mənəvi dəyərlərinə olan məhəbbət hissini öldürməyin mümkün olmadığını və onların xalqın dünya mədəniyyətinə töhfə kimi qorunub- saxlanılmasını dəyərləndirməsi. | Xalqın milli – mənəvi dəyərləri,sovet rejminin onlara mənfi münasibəti,həmin dəyərlərinAzərbaycan xalqının dünya mədəniyyətinə töfhəsi kimi qorunub saxlanılması. |
| 5.1.3. Azərbaycan mədəniyyətinin dünya | İnternetdən, ensiklopediyalardan, ilkin sənədlərdən, dərsliklərdən topladığı materiallar əsasında Azərbaycan mədəniyyətinin elm, təhsil, incəsənət, milli – mənəvi dəyərlər | Mədəniyyətlə bağlı araşdırmalar,tədqiqat-lar aparmaq, |

| | | |
|---|---|---|
| mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələrini təqdim edir. | sahəsində dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələrini təhlil edib ümumiləşdirirərək təqdim etməsi. | ümumiləşdirmələr etmək. |

## Resurslar

## Xəritələr:

1. Dünyanın siyası xəritəsi.
2. Azərbaycan Respublikasının siyası xəritəsi.
3. Dünyanın inzibati xəritəsi.
4. Azərbaycan Respublikasının inzibati xəritəsi.
5. Azərbaycanın qayaüstü təsvirləri.
6. Daş dövri abidələri (1,5 milyon il bundan əvvəl -e.ə. IV minilliyə qədər).
7. Tunc və dəmir dövrü abidələri (e.ə.IV minilliyin ikinci yarısı- e.ə VIII əsrə qədər).
8. Azərbaycan ərazisində ilk tayfa birlikləri, erkən dövlət qurumları.
9. Azərbaycanda İskit (Sak) padşahlıgı (e.ə VII əsr-e.ə.590-cı il).
10. Manna dövləti (e.ə.IX əsr- e.ə.590-cı il ).
11. Azərbaycan torpaqları Midiya dövləti tərkibində (e.ə.IX əsr- e.ə.590ci il).
12. Atropatena və Albaniya ilk orta əsrlərdə.
13. Azərbaycan torpaqları Əhəmənilər dövlətinin tərkibində (e.ə.550-e.ə. 330-cu illər).
14. Albaniya-Girdiman dövləti (VI-VIII əsrlər).
15. Azərbaycan Ərəb xilafəti dövründə (VIII əsrin ortaları-IX əsrin birinci yarısında).
16. Şirvanşahlar,Şəddadilər və Rəvvadilər dövləti.
17. Sacilər dövləti (879-941-ci illər).
18. Salarilər dovləti (941-981-ci illər).
19. Azərbaycan Böyük Səlcuq imperatorlugu dövründə.
20. Azərbaycan Eldənizlər dövləti (1136-1225-ci illərdə).
21. Azərbaycan Monqol imperatorlugu dövründə.
22. Azərbaycan Hülakü imperatorlugu dövründə (1258-1357-ci illər)ş.
23. Əmir Teymurun və Toxtamış xanınAzərbaycana yürüşləri (XIV əsrin 80-cı illəri-XV əsrin əvvəlləri).
24. Qaraqoyunlu dövləti (1410-1468-ci illər).
25. Agqoyunlu dövləti (1468-1503-cü illər).
26. Səfəvilər dövləti (1501-1555-ci illər).
27. Səfəvilər dövləti (1555-XVII-ci əsrin birinci yarısı ).
28. Azərbaycanın tarixi abidələri.
29. Azərbaycan XVII əsrdə.
30. Azəbaycan XVIII əsrin birinci yarısında.
31. Azərbaycan xanlıqları.
32. Azərbaycan XVIII əsrin sonu –XIX əsrin əvəllərində.
33. XIXəsrdə Azərbaycanda müstəmləkəcilik əleyhinə üsyanlar.
34. XIXəsrin ikinci yarısı-XX əsrin əvvəllərində Azərbaycanın inzibati ərazi bölgüsü.

35. Şimali Azərbaycan Rusiya imperiysının tərkibində (XIX əsrin 20-ci illərinin sonu -1917-ci il).
36. Azərbaycan Detmokratik Respublikası (1918-1920-ci illər).
37. Azərbaycan Böyük Vətən müharibəsi illərində.
38. Gəncə üsyanı (xəritə-sxem).
39. Azərbaycan tarixi üzrə atlaslar (V-XI siniflər).
40. Azərbaycan tarixi üzrə kontur xəritələr.

## Azərbaycan tarixi üzrə audiovizual tədris vasitələri

**1.** Azərbaycan tarixi . Qədim dövr-I disk.
2. Azərbaycan tarixi. Orta əsrlər dövrü I-II disk.
3. Azərbaycan tarixi . Yeni dövr - I-III disk.
4. Azərbaycan tarixi . Ən yeni dövr - I-IV disk.

## Cədvəllər, sxemlər, diaqramlar, plakatlar.

1. "Azərbaycan ən qədim zamanlardan dövlətəqədərki dövrdə: arxeoloji dövrlər, abidələr, hadisələr".
2. "Azərbaycanda tunc və dəmir dövrü:abidələr, təsərrüfat, sosial-siyası həyat".
3. "Azərbaycan və ona qonşu olan vilayətlərin əhalisinin etnik tərkibi (e.ə.III-II minillik).
4. "Albaniya əhalisinin etnik tərkibi".
5. "Atropatena əhalisinin etnik tərkibi "
6. "Azərbaycanda müstəqil feodal dövlətləri".
7. "III-XII əsrlərdə Azərbacanda torpaq mülkiyyəti formaları".
8. "İran-Bizans müharibələri".
9 ."XII –XVI əsrlərdə Azərbaycanda torpaq mülkiyyəti formaları".
10. "XV-XVI əsrlərdə Azərbaycanda vergilər".
11. "Səfəvilərin dövlət quruluşu".
12. "Səfəvi-Osmanlı müharibələri".
13. "Azərbaycan xanlıqları".
14. "Azərbaycan sultanlıqları".
15. "Qarabağ məliklikləri".
16. "Xanlıqların idarəetmə sistemi".
17. "Azərbaycan deputatları Rusiya Dövlət Dumasında(1906-1917-ci illər).
18. "Cənubi Azərbaycanın İran dövləti tərkibində inzibati-ərazi bölgüsü" (XIX əsrin sonu- XX əsrin əvəllərində).
19. "XIX əsrin 60-70-ci illərində Şimali Azərbaycan torpaqlarının Rusiya imperiyası tərkibində inzibati bölgüsündə baş vermiş dəyişiklliklər".
20."1840-cı il 10 aprel tarixli qanuna müvafiq olaraq Şimali Azərbaycanın Rusiya imperiyası tərkibində inzibati bölgüsü".
21. "Şimali Azərbaycanda fəaliyyət göstərən başlıca partiya və təşkilatlar"(XIX əsrin sonları-1917-ci ilin ortalarınadək).

22. “Şimali Azərbaycan torpaqlarının Rusiya imperiyası tərkibində inzibati bölgüsü “ (XIX əsrin əvvəlləri-1830-cu illər).
23. “Şimali Azərbaycan torpaqlarının Rusiya imperiyası tərkibində inzibati bölgüsü”(1846-cı il 14 dekabr fərmanı ).
24. “Azərbaycan Xalq Cumhuriyyətinin beynəlxalq əlaqələr”.
25. “Azərbaycan Respubllikasının islahat proqramı”.
26. “Azərbaycan Respublikasının neft kontraktları”.
27 . “Cənubi Azərbaycanda Milli hökumətin (1920-ci il) islahatlar proqramı”.
28 .“Əsrin müqaviləsi”nin imzalanması.
29. “Zorakı kollektivləşməsinin iqtisadi-sosial nəticələri”.
30. “İkinci Dünya Müharibəsi illərində Azərbaycan SSR-də neft hasilatı”.

## PORTRETLƏR:

1. Dədə Qorqud
2. Cavanşir
3. Babək
4. Şəmsəddin Eldəniz
5.Əcəmi Naxçıvani
6.Nizami Gəncəvi
7. Nəsirəddin Tusi
8.İmadəddin Nəsimi
9. İbrahim Dərbəndi
10. Qara Yusif
11. Sara Xatın
12. Uzun Həsən
13. Şah İsmayıl
14. İbrahim Xəlilullah
15. Məhəmməd Füzuli
16. Nadir şah
17. Hacı Çələbi
18. Qubalı Fətəli xan
19. Cavad xan
20. Abbasqulu ağa Bakıxanov
21. Mirzə Kazımbəy
22. Mirzə Fətəli Axundzadə
23. Hacı Zeynalabdin Tağıyev
24. Ağa Məhəmməd şah Qacar
25. Qaçaq Nəbi
26. Cəlil Məmmədquluzadə
27. Həsən bəy Zərdabi
28. Səməd bəy Mehmandarov
29. Mirzə Ələkbər Sabir

30. Əliağa Şıxlinski
31. Nəriman Nərimanov
32. Fətəli xan Xoyski
33. Şeyx Məhəmməd Xiyabani
34. Nəsib bəy Yusifbəyli
35. Ənvər Paşa
36.Hüseyn Cavid
37. Hüseynxan Naxçıvanski
38. Məmməd Əmin Rəsulzadə
39. Üzeyir Hacıbəyli
40. Mustafa Topçubaşov
41. Səttarxan
42.Yusif Məmmədəliyev
43. Məhəmmədhüseyn Şəhriyar
44. Qara Qarayev
45. Mehdi Hüseynzadə
46. Fikrət Əmirov
47. Müslüm Moqomayev
48. Həzi Aslanov

**Bədii filmlər:**

"Arxadan vurulan zərbə", "Axırıncı aşırım", "Babək", "Bakılılar", "Bizim eradan milyon il əvvəl", "Dədə Qorqud", "Nizami" , "Nəsimi". "Fətəli xan", "Səbuhi", Səhər", "İnsan məskən salır", "İldırımlar sönmür", "İstintaq", "Kəndlilər", "Qacaq Nəbi", "Yenilməz batalyon", "Uzun ömrün akkordları", "Uzaq sahillərdə", "Qara daşlar", "Böyük dayaq", "Sevinc buxtası", "Yeddi oğul istərəm", "Tütək səsi", "Onun böyük ürəyi", "Fəryad", "Şərikli çörək" və b.

## Tezaurus

**Aqrar cevriliş-**kənd təsərrüfatında muzdlu əməyin kütləvi şəkildə tətbiqi nəticəsində kapitalist münasibətlərinin bərqərar olması.

**Alternativ-**iki imkandan birini seçmək zərurəti.

**Antik mədəniyyət-** qədim yunanların və romalıların mədəniyyəti.

**Arxeologiya-** insanların həyatını maddi mənbələr əsasında öyrənən elm.

**Avtoritarizm-** hakimiyyət, nüfuz, siyasi hökmranlığın antidemokratik sistemi.

**Azərbaycan tarixi fənni üzrə alt standartllar-** əsas standartda ifadə olunmuş fikrin müəyyən hissəsidir.

**Azərbaycan tarixi fənni üzrə dərslik-** dövlət təhsil standartları əsasında hazırlanmış kurikulumlara uyğun olan, şagirdlərdə müstəqil tədqiqatçılıq və yaradıcılıq vərdişlərinin aşılanmasına, demokratik dünyagörüşünün formalaşmasına imkan yaradan, onları düşünməyə sövq edən, məntiqi təfəkkürü inkişaf etdirən, tətbiqi xarakter daşıyan, inteqrativ xüsusiyyətə malik əsas dərs vəsaitidir.

**Azərbaycan tarixi fənni üzrə inteqrasiya** -müəyyən təhsil sistemi çərcivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz olmasını formalaşdırmaq, onları inkişaf və özünüinkişafa istiqamətləndirmək məqsədilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmağı və onları sistemləşdirməyi tələb edən didaktik prinsipdir. Dünyanın təhsil təcrübəsində onun şaquli və üfüqi olmaqla iki növündən istifadə edilir.

**Azərbaycan tarixi fənni üzrə resursla**r- məzmun standartlarında istifadə olunan təlim vasitələridir.

**Azərbaycan tarixi fənni üzrə təlimin məzmunu-** şəxsiyyətin formalaşmasına yönəlmiş bacarıqlar şəklində ifadə edilən təlim nəticələrinin (təlim standartlarının) məcmusudur.

**Azərbaycan tarixi fənninin təlimi nəticələri-** müəyyən bir mərhələdə mənimsənilməsi nəzərdə tutulan və əvvəlcədən müəyyənləşdirilmiş təlim

nailiyyətlərinin konkret bir səviyyəsidir.

**Azərbaycan tarixi fənninin məzmun xəttləri-** fənn üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunan məzmunun zəruri hissəsidir.

**Azərbaycan tarixi fənni üzrə məzmun standartı-** dövlətin təhsil alanların bilik və bacarıq səviyyəsinə qoyulmuş dövlət tələbidir.

**Azərbaycan tarixi fənni üzrə qiymətləndirmə standartlarlı-** təhsil alanların nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir.

**Azərbaycan tarixi fənni üzrə təlim strategiyası-** təhsil prosesində istifadə olunan forma, metod, üsul və vasitələrin məcmusudur.

**Azərbaycan tarixi fənninin təhsil proqramı (kurikulum**) -təhsilin hər bir pilləsi üzrə təlim nəticələri və məzmun standartlarını, tədris fənlərini,həftəlik dərs və dərsdənkənar məşgələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılması sıstemini özündə əks etdirən dölvət sənədidir.

**Azərbaycan tarixi fənninin tədris vahidləri-** dərslikdəki mövzuların tematik qrupudur.
bağladığı müqavilələrin ölkənin ali məclisi tərəfindən təsdiq edilməsi.

**Deklarativ**- məlumat xarakterli biliklərdir, bunların sırasına anlayışlar,təriflər,faktlar daxildi

**Demoqrafiya -**əhalinin yerləşdirilməsini, yerini dəyişməsini, sosial-iqtisadi vəziyyətini tədqiq edən elm sahəsi.

**Deportasiya** – azlıqda qalan əhalinin zorla, kütləvi surətdə dövlət səviyyəsində öz doğma yurdlarından köçürülməsi.

**Dəyərlər-** şəxsiyyəti şərtləndirən keyfiyyətlər.

**Didaktika-** pedqqoqikanın təhsil,təlim və tərbiyənin nəzəri cəhətdən hazırlanan hissəsidir. Didaktika tədqiqatının mövzusu təlim prosesinin məqsədi, məzmunu, qanunauyğunluğu və prinsipləridir.

**Ehkamçılıq-** yeniliyi nəzrə almayan, dəyişməz, donuq müddəalardan istifadə edən təfəkkür metodu.

**Ekstremizim-** siyasətdə ifrat görüşlərə və tədbirlərə olan meyl.

**Era-** tarixin müəyyən bir başlanğıc anı və ya nöqtəsi.

**Əsas qiymətləndirmə növləri-** diaqnostik ,formativ, summativ.

**Fənnin tədrisində şagirdyönümlülük-** şagird pedoqoji prosesin mərkəzində dayanır. Bütün tədris və təlim işi şagirdlərin maraq və tələbətlarının ödənilməsinə, onların istedad və qabiliyətlərinin,potensial imkanlarının inkişafına yönəldilır.

**Fənninin tədrisi prosesində fəaliyyətin stimullaşdırılması-** pedoqoji prosesin səmərəli qurulması, şagirdlərin təlimə maragının artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyəndirilir, nəticə etibarilə şagirdlərin daha uğurlu təlim nəticələrinə istiqamətləndirilməsi təmin olunur.

**Fənninin tədrisində inkişafyönümlülük**- şagirdlərin əqli fəallıgı izlənilir, nailiyyətləri təhlil edilir, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsi tənzimlənir

**Hadisə-** bu və ya digər xalqların, ölkələrin tarixində baş vermiş, təkrar olunmayan faktlardır.

**Hicri era** -başlanğıcı Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə hicrət etdiyi ildən başlanır. Bu hadisə xristian erasının 622-ci ilində baş vermişdir.

**Xristian era-** xristian dininin banisi İsa peyğəmbərin anadan olduğu gündən hesablanır. Bu era müsəlman alənində milad (yəni”anadan olma”)adlanır.

**Xronologiya**- tarixdə baş vermiş hadisələri ardıcıllıqla öyrənən elm.

**İmtiyaz**- hüquqi üstünlük

**İnhisar-** fəaliyyətin hər hansı bir sahəsində müstəsna vəziyyət, dövlətin, təşkilatların, firmaların və s. müstəsna hüququ.

**İnnovasiya-** müxtəlif təşəbbüslər, elmi tədqiqat əsasında formalaşan mütərəqqi xarekterli yeniliklər.

**Kommunikasiya** – məlumatın bir şəxs və ya qrup tərəfindən digərinə ötürülməsi.

**Kontekstual-** problemin həll edilməsi yolu ilə əldə olunan yeni biliklərdir.

**Məhsuldar qüvvələr-** əmək alətləri, torpaq, yeraltı sərvətlər, insanlar və s.

**Millət-** müəyyən psixologiya və şüura malik olan insanlarin tarixən yaranmş sosial-iqtisadi və mənəvi birliyi.

**Milli kurikulum-** ölkə miqyasında təhsilin hər bir pilləsindəki fəaliyyətlərin həyata keçirilməsinə imkan yaradan və onları istiqamətləndirən konseptual sənəddir.

**Pedaqoji innovasiyalar-** təhsil müəssisələrində, pedaqoji nəzəriyyələrdə, müəllim və şagirdlərin fəaliyyətlərində, təlim-tərbiyənin məzmununda, forma, üsul və vasitələrində, idarəetmədə, məqsəd və nəticələrdə, ümumən, pedaqoji sistemdə baş verən yeniliklərdir. Onlar müəyyən dövr ərzində sabit qalaraq ənənəvi qaydada davam etdirilir, həmin dövrün səciyyəvi pedaqoji hadisəsinə cevrilir.

**Təhsildə qiymətləndirmə sistemi-** beynəlxalq, milli və məktəb səviyyələrində aparılan qiymətləndirməni əhatə edir. Orada zəruri məzmunun (qiymətləndirmə standartlarının), vasitələrin (test, sual və s.), formaların, üsulların müəyyənləşdirlməsi və onların reallaşdırılmasına aid prosedurları özündə birləşdirir.

**Fəal (interaktiv) təlim-** şagirdlərin idrak fəallığına əsaslanır, təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitinin yaradılmasını tələb edir.

**Idrak fəaliyyəti-** idrak prosesində həyata keçirilən fəaliyyətdir. Psixoloqların fikrincə, idrak fəaliyyətində bilmək, anlamaq, tətbiq etmək, sintez etmək və dəyərləndirmək əsas mərhələlər hesab olunur. Müasir təhsil konsepsiyasına görə, şagirdin təlim fəaliyyətinin psixopedaqoji əsasını məhz həmin parametrlər təşkil edir. Ona görə də "hafizə məktəbi"ndən fərqli olaraq "təfəkkür məktəbi"ndə təlim stanadartları hazırlanarkən onlar əsas götürülür.

**Müstəmləkə iqtisadiyyatı -**istehsal prosesini axıra qədər davam etdirmək imkanından məhrum edilmiş ölkə.

**Natural təsərrufat -**yaşayış üçün lazım olan məhsulun və hazır şeylərin satış ücün deyil, şəxsi tələbatı ödəmək üçün hazırlandığı təsərrüfat.

**Neft maqnatları-** neftin çıxarılması, emalı və satışını öz əllərində saxlayan nəhəng neft şirkətlərinin sahibləri.

**Numizimatika-** qədim sikkə və pulların tədqiqi ilə məşğul olan elm.

**Paleoqrafiya -**dövrümüzə qədər gəlib çatmış qədim yazıları öyrənən elm.

**Pedoqoji prosesin tamlıgı-** pedaqoji prosesdə təlimin məqsədləri kompleks şəkildə (inkişafetdirici, öyrədici, tərbiyəedici) həyata kecirilir, real nəticələrlə yekunlaşan müəllim və şagird fəaliyyətini əhatə edir.

**Prosedural-** fəaliyyətin icrasına dair prosudur qaydaları əhatə edən biliklərdir.

**Proses-** hadisələrin ardıcıl mərhələlərlə davam etməsi.

**Ratifikasiya** – dövlət başçısının digər dövlətlərlə, yaxud beynəlxalq təşkilatlarla

**Referendum-** dövlət həyatının ən mühüm məsələlərinə dair kecirilən rəy sorğusu.

**Sinxronluq-** qarşılıqlı münasibətlərdə olan və bir-birilə əlaqəli tarixlər sistemi..

**Sivilizasiya-** bu və ya diğər ölkələr və xalqlar qrupuna xas olan maddi, mənəvi və sosial həyatın müəyyən inkişaf mərhələsi.

**Suverenlik** -ölkənin daxili həyatının bütün məsələlərinin həllində və diğər dövlətlərlə münasibətlərdə hakimiyyətin sərbəstliyi, dövlətin istiqlaliyyəti və müstəqilliyi.

**Şagird naliyyətləri-**bilik və bacarıqlar əsasında qazanılan dəyərlərdir.

**Tədrisdə dəstəkləyici mühitin yaradılması-** pedaqoji prosesin münasib maddi-texniki baza əsasında və saglam mənəvi-psixoloji mühitdə təşkil edilməsi keyfiyyətin və səmərəliliyin yüksəldilməsi ücün əlverişli və təhlükəsiz təlim şəraiti yaradılır.

**Təlimdə bərabər imkanların yaradılması** - bütün şagirdlərə eyni təlim şəraiti yaradılır və pedogoji proses onlarin potensial inkanları nəzərə alınmaqla tənzimlənr.

**Təzahür-** tarixdə baş verən bəzi faktların müxtəlif xalqların, ölkələrin tarixində təkrarlanması.

**Totalitarizm-** Dövlətin cəmiyyət üzərində tam nəzarəti.

**Unitar dövlət** -dövlət quruluşu forması:burada dövlətin ərazisi fedarasiyadan fərqli olaraq, fedarativ vahidlərə deyil, inzibati ərazi vahidlərinə bölünür.Unitar dövlətdə vahid dövlət konstitusiyası, vahid dövlət hakimiyyəti orqanları sistemi, ümumi hüquq sistemi qüvvədədir.

**Vasitəçi ticarət-** tacirlərin bir ölkədən aldıqları malları başqa bir ölkədə, digər bir ölkənin tacirlərinə satmaları.

## İstifadə olunmuş ədəbiyyat

### *Azərbaycan dilində.*


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2003.

2. Abbasov Ənvər. “Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri.” Kurikulum” jurnalı, 2008, №-1

3. Abbasov Ənvər. Kurikulum islahatının əsas istiqamətləri. ”Azərbaycan məktəbi” jurnalı, 2011,№.4.

4. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə konsepsiyası . “Azərbaycan müəllimi” qəzeti, 6 fevral, 2009-cu il.

5. Azərbaycan təhsili XXI əsrin astanasında.Bakı,1998.

6. Ağayev Sabir.Tarixin tədrisində interaktiv təlim metodunun tətbiqi təcrübəsindən.Bakı,2009.

7. Əlizadə Əbdül.Yeni pedoqoji təfəkkür.Bakı, 2001

8. Əhmədov Aydın. Ümumi təhsil sistemində kurikulum islahatı: real nəticələrə doğru. “Kurikulum” jurnalı, 2008, №1.

9. Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramı, Bakı, 2000.

10.Əhmədova Mehriban. Əliyev Məcid.Qasımlı Musa və b.Müllim hazırlığının və orta təhsilin perspektuivləri.(Qərb təhsil sisteminin təcrübəsi əsasında). Bakı,2005.

11. Hüseynov Ramiz, Mehdiyeva Nəzakət. “Məktəbdə tarixin tədrisinin perspektivləri”. “Tarix, insan və cəmiyyət” jurnalı, Bakı, 2006, 1-(2).

12. Hüseynov Ramiz. “Azərbaycan tarixi tədrisinin bəzi məsələlərinə dair”. “Azərbaycan məktəbi” jurnalı, 2010, №1.

13. Hüseynov Ramiz, Mehdiyeva Nəzakət. “Tarix fənnindən şagirdlərin bilik və bacarıqlarının yoxlanılması və qiymətləndirilməsi prinsipləri və metodları”. “Tarix, insan və cəmiyyət” elmi metodik jurnalı, Bakı, 2009, № 1-2.

14. Cəbrayılov İ. İntiqam. “Azərbycan tarixi fənni üzrə təhsil standartlarının hazırlanması məsələləri.”Təhsilin aktual problemləri. Bakı,2007

15. Kərimov Firəngiz, Əhmədova Meriban, Varrella Gəri və b. İnteqrativ kurikulum: mahiyyət və nümunələr, Bakı, 2006.

16. Kurikulum islahatı: tədqiqatlar, nəticələr, Bakı,2011.

17. Qəndilov Rafiq,Tağıyeva Sevda, Qocayev Şəmsi və b. Həyati bacarıqlara əsaslanan təhsil. Müəllimlər üçün tədris vəsaiti (X-XI siniflər). Bakı-2006

18. Qocayev Əkbər, Qocayeva Şəhla, Əliyeva Sevda. Tarixi anlayış və terminlərin izahlı lüğəti.Bakı,2002.

19. Qocayev Əkbər. Tarixi şəxsiyyətlər. Bakı, 2008.

20. Mərdanov Misir. Azərbaycan təhsili inkişaf yollarında (Müəllimlərin XIII qurultayına hesabat məruzəsi), 2008.

21. Mərdanov Misir, F.Şahbazlı. “Azərbaycanın təhsil siyasəti (1998-2005)” I, II kitab. Bakı, “Təhsil,” 2005.

22. Mərdanov Misir. “Azərbaycan təhsili dünən, bu gün, sabah” Bakı, “Təhsil”, 2006.

23. Mərdanov Misir, Ağamalıyev Rəhim, Mehrabov Abdulla.Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı,2003.

24. Mehrabov Abdulla. Öyrədən və öyrənən münasibətlərinin tənzimlənməsində interaktiv metodların (yanaşmaların) rolu. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, “Elmi əsərlər”, Bakı, 2008 №-4.

25. Mahmudov Yaqub. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, 2002.

26. MəlikovRauf, Nəcəfli Tofiq. “Tarixin interaktiv təlimi”. Bakı, 2002

27. MəlikovRauf, İbrahimov Nizami. Məktəblinin tarix lüğəti. Bakı, 2004.

28. Müəllimlər üçün tədris vəsaiti. (X-XI siniflər). Bakı, 2006.

29 Orta ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün tarix proqramları və metodik vəsait. Bakı, 1997.

30. Rüstəmov İzzət. “Gələcəyə istiqamətlənmiş böyük siyasət”. “Gənc istedad” jurnalı, 2009, № 1-2.

31.“Təhsil haqqında Azərbaycan Respublikasının qanunu”. Bakı, 2009
32. Tağıyeva Sevda. və b. Həyati bacarıqlara əsaslanan təhsil. Müəllimlər üçün tədris vəsaiti. (V-IX siniflər). Bakı, 2006.
33. Tarixin tədrisində müasir üsullar (şərhlər, tövsiyyələr, nümunələr). Bakı, 2000
34. “Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (Kurikulum)”. Kurikulum jurnal, 2010-cu il. № Umumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı-2012.
35. Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün Azərbaycan tarixi dərslikləri. Bakı, 2005-2012.
36. Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün tarix proqramları. Bakı, 2005-2012.
38. Veysova Zülfiynə. Fəal təlim metodları. Bakı, 2007.
39. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, “Təhsil”, 2008, 480 səh.
40. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı, “Kövsər”, 2008, 224 səh.
41. İbtidai siniflər üçün yeni fənn kurikulumlarına dair gündəlik planlaşdırma nümunələri. Bakı, “Kövsər”, 2010, 196 səh.
42. Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). Bakı, “Kurikulum” jurnalı, 2010, №3, səh. 115-130.
43. Kurikulum islahatı: tədqiqatlar, nəticələr. Bakı, “Mütərcim”, 2011, 344 səh.
44. Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı, “Mütərcim”, 2012, 402 səh.
45. Azərbaycan Respublikasının ümumi təhsil sistemində qiymətləndirmə Konsepsiyası. Bakı, “Kurikulum” jurnalı, 2009, №2, səh. 138-150.

**Rus dilində.**

1. Алексашкина Л.Н., Боголюбов Л.Н., Ворожейкина Н.И. «Учебник стандарты школ России ( государственнные общеобразовательные стандарты начального общего,основного общего и среднего (полного) общего образования). Книга первая. М. «Прометей», 1998г.
2. Стандарт среднего (полного) общего образования по истории.- «Преподавание истории в школе» №1 2005 г.
3. Смоленский Н.И. «Историческое образование и историческая теория» журнал «новая и новейшая история» №-5 2000 г.
4. Вяземский Е.Е. « Историческое образование в современной России.» Справочно-методическое пособие для учителей.М. 2002 г.
5. Крикунова Т.К.. «Практическая педагогика».М. 2001 г.
6. На пути к пониманию прошлого: поиски, версии, идеи. Книга для учителя истории. Рига, 2000 г.
7. Радугин А.А..Психология и педагогика.М., 2001 г.
8. Величко В.В.., Карпиевич,Д.В., Кирилюк, «инновационные методы обучения в гражданском образовании.Минск., 2001 г.

**İngilis dilində.**

1. Borich.G.D.Effektive teaching methods/Upper Saddle River,1996.
2. NCSS Expectations of excellence: Curriculum standarts for social studies (Bulletin 89). Washington, DC, 1999.
3. Devine, Thomas G. Teaching student skills,Boston,1997.
4. English. The Ontario Curriculum. Grades 1-8. Ministry of Education of Ontario, 2000.